
Camal Zeynaloğlu
XƏYALINDAKI
AĞ YAYLIQLAR

**Camal Zeynaloğlu**

# Xəyalındakı ağ yaylıqlar

**"Print-S" nəşriyyatı**
**Bakı – 2015**

**Az2**
**--------**
**2015**

**Camal Zeynaloğlu: "Xəyalındakı ağ yaylıqlar"**

(Azərbaycan dilində)

**Redaktor: Həqiqət Kərimova,**
fəlsəfə üzrə fəlsəfə doktoru

**Bakı, "Print - S" nəşriyyatı - 2015, - 210 səh.**

Bu kitab C.Zeynaloğlunun "**Yaxşı insanlar sorağında**" ədəbi silsiləsindən **üçüncü,** oxucularıyla isə **on yeddinci** görüşüdür.

Kitab tanınmış jurnalist, istedadlı yazıçı-publisist, şair və ziyalı, Prezident təqaüdçüsü **Böyükxan Bağırlının** həyat fəaliyyəti və ədəbi yaradıcılığına həsr olunur.

Kitabda B.Bağırlının indiyə kimi heç yerdə dərc olunmayan **"Sübh yuxusu"** adlı yeni bir hekayəsi də verilmişdir.

**264700005**
**C-------------------- qrifli nəşr**
**00 - 2015**

***İSBN: 978 - 99 - 52 - 440 - 02- 9***

**© C. Zeynaloğlu – 2015**

"Zəngin" tərcümeyi-halı olmasa da, ömür yolu çox sadə təsir bağışlasa da, Böyükxan Bağırlı istedadlı bir nasir və publisistdir. O, yurdumuzun Cənub bölgəsində ədəbi həyatın qurucularından və indi sözüötən ağsaqqallarından biridir. Xüsusilə, Cəlilabadda yetişən, ilk qələm təcrübələri ilə onun redaktor olduğu rayon qəzetində çıxış edən yazarların ilkin yol göstərəni, xeyir-dua verəni rəhmətlik Abbasağa və Böyükxan Bağırlı olubdur. O, indi də bu missiyanı yerinə yetirir…”

**Vaqif YUSİFLİ,**

filologiya elmləri doktoru, professor

“...Böyükxan Bağırovun “**Aynalı gölün payızı**” kitabında onun bədii axtarışlarının istiqaməti aydındır... Həyatdan həqiqətə! O, bu yolu narahat və təmkinli istedadına güvənərək keçmək niyyətindədir. Bu niyyətlə atılan ilk addım-ilk kitab müvəffəqiyyətlidir. B.Bağırovun bədii uğurları, bir yazıçı kimi dəst-xəttini müəyyən edən amillər ilk növbədə onun həyata münasibətilə bağlıdır. Böyükxana hekayə yazdıran vahid hiss var: narahatlıq! Təsadüfi deyil ki, onun bütün hekayələri bu duyğunun təsviri ilə başlayır, məhz o, qəhrəmanların xarakterini səciyyələndirən cəhətlərin çıxış nöqtəsi olur...”

**Nizaməddin ŞƏMSİZADƏ,**
filologiya elmləri doktoru, professor

"Böyükxan Bağırlının **«Aynalı gölün payızı»** kitabına daxil edilmiş eyni adlı hekayə, habelə «Nar kolları», «Ağ yaylıqlar», «Çöllərdə səhər» hekayələri bu gənc müəllifin öz həmyaşıdları barəsində daha inandırıcı və səmimi yazdığına dəlalət edir. Ümumiyyətlə, B.Bağırlının kitabında toplanan yazılar gənc nəsrimizin daha bir ümidverici nümayəndəsi barəsində danışmağa imkan verir. Onun hekayələri müəllifin bədiiliyin sirlərinə bələdliyindən, psixologizmə uğurlu müraciətindən xəbər verir."

**Vilayət QULİYEV,**
filologiya elmləri doktoru, professor

"Böyükxan Bağırlının imzası ədəbi ictimaiyyətə qədərincə tanışdır. 1946-ci il təvəllüdlü yazıçının 1985-ci ildə "Aynalı gölün payızı" kitabı nəşr olunmuşdur. Həmin 80-ci illərdən məxsusi izlədiyim istər kitabındakı, istərsə də "Azərbaycan", "Ulduz" jurnalları, "Ədəbiyyat qəzeti"ndə dərc olunmuş povest və hekayələrindənyadımda daim içi ilə əlləşən, sosial ağrıları iç düşüncələrinə çevirən, təhlilə gətirən bir insanın obrazı qalmışdır. Böyükxan Bağırlı bu gün də qəhrəmanına sadiqdir...

Hekayələrə zamanın havası ağır bir faciə dumanı kimi çökmüşdür. İlğım - hələ hərəsi bir rakursdan: fotoşəkildə

ürkək xatirə və biznesmen dayının gəlişində zəif bir ümiddirsə; ikinci hekayədə əvvəldən axıra getdikcə sıxlaşan qatı sosial faciə durumudur. Mənəvi insan ictimai həyatın çabaları içrə. Cəmiyyət ilkin halqası-ailədə, bircə yığcam süjet, vahid təhkiyə xətti, qəhrəman və bir neçə personaj iç yaşantıları ilə...”

**Tehran ƏLİŞANOĞLU,**
filologiya elmləri doktoru, professor

“...Kiçik hekayələrdə böyük həqiqətləri ustalıqla verən Böyükxan Bağırlının bir yazıçı kimi yetişməsində onun jurnalistik fəaliyyəti mühüm rol oynamışdır. Publisistik yazılarını-oçerk və felyetonlarını canlı, diri, obrazlı şəkildə qələmə alan Böyükxan Bağırlı ekspressiv yazılaradək qaynar bir yaradıcılıq yolu keçmiş, həyatı obrazlı şəkildəəks etdirmək üçün həyatın özündən dərs almışdır. B.Bağırlının hekayələrində gizli nəzm çalarları mövcuddur, bu hekayələrdə təhkiyə, əhvalatçılıq zahiri, lirizm, emosionallıq, mətndaxili poetika isə aparıcı xətti təşkil edir. Təsvir olunan həyat lövhəsi mənsur parçalarla verilir, qəhrəmanın iç dünyası, düşüncəsi mətnin alt qatındakı lirizmi qabardır...”

**Bilal ALARLI,**
filologiya üzrə fəlsəfə doktoru

“...Yazıçı, şair və publisist Böyükxan Bağırlı yüksək insani keyfiyyətləriylə yanaşı, yorulmaq bilməyən, həmişə axtarışda olan, oxumaqdan bircə an belə usanmayan, daim öz üzərində işləyən, düzlüyü, dürüstlüyü, xeyirxahlığı, əqidə saflığını, ləyaqəti, işinə məsuliyyətlə yanaşmağı, prinsipiallığı, zəhmətə alışqanlığı, özünə mökəm inamı və həyata bağlılığı, düşüncə və fikirlərində sərbəstliyi, azadiliyi, zəhmətə qatlaşmağı özünün həyat amalına çevirən əsl ziyalı şəxsiyyətlərdəndir...”

**Camal ZEYNALOĞLU,**
yazıçı-publisist

“...Böyükxan bəy istedadlı bir adamdır. O, ədəbiyyatı dərindən bilir. Hər üç janrda: şeir, nəsr və dramaturgiya sahəsində qələmini sınamağı bacarır. Zehni çox qüvvətlidir: saatlarla klassik və müasir şairlərimizdən şeir deməyi sevir.

Böyükxan bəyin ən qüvvətli cəhəti - tamahsızlığıdır. Məhz bunun nəticəsidir ki, o, təmiz adını qoruyub-saxlaya bilmişdir...”

**Qubad ƏLİYEV,**
təqaüdçü dil-ədəbiyyat müəllimi

“...Yazıçının böyüklüyü ondadır ki, oxucu oxuduğu əsərdə özünü görür, qəhrəmanın yaşantılarını öz içindən keçirib özünküləşdirir...

Bu baxımdan Böyükxan Bağırov müasir nəsrimizdə öz imzasını təsdiq elətdirən, yeni əsərləri intizarla gözlənilən və sevilən yazıçıdır. O, böyük oxucu məhəbbətini istedadı bahasına və gərgin əməyi sayəsində araya-ərsəyə gətirdiyi hekayə və povestləri ilə qazana bilib. Onun əsərlərində bədii dilin axıcılığı, folklor şirinliyi, qəhrəmanların təbii deyim tərzi, müəllif səmimiyyəti daha qabarıq özünü büruzə verir və oxucunu inandırır...”

**Ədalət SALMAN,**
**“Sözün işığı”** jurnalının baş redaktoru

“Tanınmış publisist və yazıçı Böyükxan Bağırov haqqında düşünərkən ilk növbədə yadıma söz düşür. O söz ki, insanın qəlbini riqqətə gətirir, onu düşündürür. Bu, adi söz deyil, yazıçının oxucuya ünvanladığı, böyük dəyər verdiyi, yəqin ki, hər biri üzərində dönə-dönə düşündüyü bədii sözdür. İstedadlı qələm sahibinin yazılarının tilisiminə düşən təkcə mən yox, həm də çoxsaylı oxucularıdır. Həmin oxuculardan və bu əsərləri dostlarıma, tanışlarıma ürəklə təbliğ edənlərdən biri də mənəm...

.... Günlərin bir günü Böyükxan müəllimin yenə də ən hörmətli mətbu orqanlarından hesab olunan “Ədəbiyyat və incəsənət” qəzetində geniş həcmli bir hekayəsi çap olundu. Oxudum və heyrətləndim. Kəndimizin adamları, uşaqlı-ğımızın keçdiyi yerlər, hətta dərələr və təpələr gözümün önündə canlandı. Qəzetdən bir neçə nüsxə alaraq bədii yaradıcılıqla məşğul olan həmfikirlərimə payladım və böyük bir fəxrlə bildirdim ki, bu cavan oğlan mənim kəndçim, qohumumdur. Tələbə yoldaşlarım məndən tez-tez onun hekayələrini istəyirdilər. Çünki onlar da bu yazılara heyran olmuşdular...”

**Ələddin ƏZİMOV,**
AYB-nin üzvü, şair

“...Yazı manerasında və redaktorluq fəaliyyətində maarifçilik deyilən bir ab-havanın üstün bir cəhət olduğu açıq-aydın görünməkdədir. Bir çox psixoloji əsərlərində isə insan qəlbinin dramalarını yaradıb. O, sözdən ehtiyatla, zərgər dəqiqliyi ilə istifadə edən və sözün üstündə əsim-əsim əsən lirik-psixoloji hekayələr ustasıdır. Hiss olunur ki, müəllif nə yazırsa ürəyinin hökmü ilə yazır, şəxsən yaşadıqlarını, gördüklərini qələmə alır, özü də elə ustalıqla qələmə alır ki, bu hekayələrdə oxucu yazıçıdan çox, qəhrəmanların özü ilə üz-üzə durub həmsöhbət ola bilir.

Bu hekayələr nə qədər obrazlı təfəkkürün məhsulu olsa da, inandırıcı süjetləri var, hadisələrin mahiyyətinə enmək, varmaq bacarığı nəzərə çarpır. Buna bir-birindən fərqli yaradıcılıq musiqisi altında qələmə alınmış, özünəməxsus ritmə otuzdurulmuş hekayələrini oxuyarkən şahid oldum. Bu hekayələr olduqca yığcamdır, süjet xətti başlanğıcdan oxucunu dalınca çəkməyi bacarır. Görünən odur ki, müəllif oturub özündən Amerika kəşf eləmir, reallıqları qələmə alır. Bu hadisələrin xeyli qismi həyatda baş verənlərdir. Yazıçının təxəyyülü qidasını həyat materialından götürüb. Ona görə təsvir olunan mənzərələr təbii təsir bağışlayır və asan da oxunur...”

**İbrahim SEL,**

yazıçı-publisist



Yazıçı-publisist **Böyükxan Bağırlı** (Bağırov Böyükxan Yadulla oğlu) 21 avqust 1946-cı ildə Cəlilabad rayonunun Alar kəndində anadan olub. O, 1954-cü ildə Alar kənd yeddiillik məktəbin birinci sinfinə qəbul olur. Yeddiillik məktəbi bitirdikdən sonra, Alar kənd axşam orta məktəbinə daxil olur. O, bir müddət fəhlə işləyib. Sonra Alar kənd axşam məktəbini bitirib. 1966-cı ildə Bakı Dövlət Universitetinin filologiya fakültəsinin jurnalistika şöbəsinə daxil olub. 1971-ci ildə təhsilini əyani bitirib. Elə həmin il respublika televiziyasında əmək fəaliyyətinə başlayıb. Sonra isə radionun yerli baş redaksiyasında redaktor kimi çalışıb.

Həmin illərdə hekayələri radioda səsləndirilib. **“Nəğməli gecə”** hekayəsi Xalq artisti Rafiq Babayevin ifasında radionun qızıl fondunda saxlanılır.

1979-cu ildən Cəlilabad rayonunun **“Yeni gün”** qəzetində çalışır. Otuz altı ildir ki, həmin qəzetin redaktorudur.

B.Bağırlı **“Cəlilabad”** (1974), **“Aynalı gölün payızı”** (1985) və “**Yaşayın, insanlar”** (2001) kitablarının müəllifidir.

O, Jurnalistlər İttifaqının və Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

Ailəlidir, altı övladı var.

# Vətəndaş və fədakar yazıçı

Yazıçı-publisist, tərcüməçi-psixoloq Camal Zeynaloğlunun adı ədəbi mühitdə yaxşı tanınır. Mübarizə, döyüş əhval-ruhiyəsi yalnız döyüşçüyə xas olacaq keyfiyyət deyil. Bəzən mənə elə gəlir ki, ən böyük mübarizə və döyüş ideoloji cəbhədədir. Kəsərli qələm sahibi olmaq, acı göz yaşına bürünmüş ömür səhifələrini olduğu kimi qələmlə əks etdirmək hər insana nəsib olmur. Yazıçı dostum, qardaşım Camal Zeynaloğlunun əsərləri vətən sevgisinin zərrələrindən rişələnmiş, bu günün reallığı ilə uzlaşan, oxucularını düşünməyə məcbur edən, onlara doğru, düzgün yol göstərən, onlara böyük mənəvi və əxlaqi dəyərlər bəxş edən, milli dəyərlərə ciddi önəm verən, onun üzərində öz ibrətamiz fikir və düşüncələrini ifadə edən mənəvi həyata baxışıdır.

C.Zeynaloğlunda vətəndaşlıq ruhu çox güclüdür. O, yaratdığı əsərlərdəki hadisələrə seyrçi gözüylə baxmır, onların kökünə, mahiyyətinə varmağa çalışır. Yazıçı əsərlərində boğazdan yuxarı danışmır, qəhrəmanlarının dərdini, kədərini özünküləşdirir, onu içindən keçirir. Sanki yazarın içində bir yanğı var. Oxucu bu yanğını görür, bu Vətən yanğısı, torpaq yanğısıdır. Nə qədər ki, torpaqlarımız yağı düşmənin tapdağı altındadır, bu yanğı

od olub hamımızı yandıracaq. Bu yanğını yaşamaq nə qədər çətindirsə, onu qələmə alıb, gördüyü kimi də yaşatmaq daha çətindir.

C.Zeynaloğlunu ən çox düşündürən, narahat edən məsələlərdən biri də qadın təmizliyi, qadın ləyaqəti, qadın ismətidir. Bu düşündürücü məsələ yazıçının əsərlərinin ana xəttini təşkil edir. Burada hadisələr qəhrəmanlarının xarakterlərinin açılmasına, fərdi ictimai mühitin məhsulu olduğuna istiqamət götürdüyündən oxucu özünü yazarın məharətlə yaratdığı əsərlərdəki həmin personajların yerində hiss edir.

Yazıçı Camal Zeynaloğlunda vətənpərvərlik hissi, insan təbiətinə vurğunluq, torpağa, soykökə bağlılıq çox yüksəkdir. Bunu onun yaradıcılığından daha aydın görmək olur. Məsələn, onun "**Ölümlə üz-üzə", "Qanlı fevral gecəsi", "Gecikmiş sevgi", "Qarabağ dərdi - erməni vandalizmi"** kitabları bu qəbildəndir. Yazıçının **"Uğursuz nikah", "Məni qınamayın", "Ölüm doğmalığı", "Nakam məhəbbət", "Tanrı cəzası", "Talelər dünyası"** kitablarında isə gənc nəslin sağlam, möhkəm iradəli, milli mənliyini, ləyaqətini qorumağı bacaran, həyatın bütün çətinliklərinə sinə gərən yeni nəslin yetişdirilməsi problemi qoyulur.

C.Zeynaloğlu toxunduğu mövzularda bugünkü həyatımızdakı inam, etibar, ədalət, şərəf, ləyaqət, əqidə saflığı, həyata bağlılıq kimi insani keyfiyyətlərlə yanaşı, riyakarlıq,

rüşvətxorluq, xəyanət, etibarsızlıq, pul hərisliyi, narkomaniyaya, içkiyə aludəçilik kimi qeyri-insani keyfiyyətlərdən də söhbət açılır.

O, eyni zamanda çox işgüzar, özünə qarşı tələbkar, istedadlı, qayğıkeş, etibarlı dost və səmimi bir yoldaşdır. Camal müəllim adamları tez başa düşür, anlayır və onlarla asanlıqla səmimiyyət körpüsü yarada bilir. Hər şeydən öncə, onu qeyd edim ki, o, insanlara inanır. Buna görə də Camal müəllim sadə və təvazökardır.

Camal Zeynaloğlu hər şeydən öncə, cəmiyyətin ağrı-acısına laqeyd qala bilməyən vətəndaş-jurnalist və vicdanlı yazardır. Onun yazılarının əsas qayəsini real həyat hadisələri təşkil etdiyindən oxucu onun əsərlərində əsl həyatı hiss edir. Camal müəllimin sevilməsi onun oxucularının istək və tələblərinə uyğun əsərlər yarada bilməsindədir. O, həm də bir xeyirxah insan kimi, hər zaman darda olan adamların köməyinə yetişir, onlara maddi və mənəvi köməyini əsirgəmir. Yazarın həmkarı haqqında hazırladığı bu kitabı da onun növbəti xeyirxah əməllərindən hesab etmək olar. Camal müəllim sözə, sənətə, yaradıcı insana, əsl ziyalıya dəyər verən, vətənpərvər olan hər bir azərbaycanlını sevir, ona hörmətlə yanaşır və rəğbət bəsləyir.

C.Zeynaloğlunun şair, yazıçı-publisist Böyükxan Bağırlı haqqında hazırladığı bu kitab da onun xeyirxah əməllərinin təcəssümüdür. Əsl ziyalı, sənətkar və yaradıcı

insandan yazmaq böyük savab işlərdən hesab olunur. Camal müəllim də özünün dediyi kimi, bu savab işi başqalarına buraxmaq istəməyib. O, çalışır ki, həyatda daha çox savab işlər görsün. Bu yolda qələm dostum və qardaşıma uğurlar arzu edirəm.

Yaradıcı ziyalı, həyatını bədii sözü rövnəqləndirməyə, ona əvəzsiz dəyər verməyə, onu oxucuları üçün zinətləndirməyə həsr edən bir qələm sahibi haqqında yazmaq, şərəfli, ləyaqətli və xeyirxah bir missiyanı yerinə yetirmək zəhmət tələb edən və təqdirəlayiq işdir. Məhz yazıçı qardaşım Camal Zeynaloğlu bu xeyirxah missiyanın öhdəsindən layiqincə və məharətlə gəlib.

Göründüyü kimi, Camal müəllim bədii sözdən ilmə-ilmə əbədi abidə yaradan fədakar insanları həmişə yüksək qiymətləndirməyi bacaran bir insandır.

Əziz qardaşım, yorulmadan yaz, yarat! İnsan öz xeyirxah əməlləri və yazıb-yaratdığı əsərləriylə həyatda özünə əbədi abidə ucaldır. Yazdığın dəyərli əsərlər, çap etdirdiyin onlarla kitablar sənin bədii sözdən yaratdığın yaraşıqlı abidələrdəndir. Sən sağlığında özünə abidə yaradanlardansan. Yazan əllərin var olsun, qardaşım!

**Həqiqət KƏRİMOVA,**
fəlsəfə üzrə fəlsəfə doktoru

# Örnək insan və yaradıcı şəxsiyyət

Filosofların dediyi kimi Allah-təalanın xəlq etdiyi, yaratdığı insanın dünyaya göz açdığı andan başlayaraq onun təhsil və tərbiyəsinə, gələcəkdə bir şəxsiyyət kimi formalaşmasına təsir edən bir çox amillər mövcuddur. İnsan dilini, dinini, düşüncəsini, şüurunu, əxlaqi xüsusiyyətlərini, milli və mənəvi dəyərlərini, həyat fəaliyyətini həmişə onun üçün göstərilən nümunələrə və onlardan aldığı təəssüratlarla formalaşdırır. Yunan dramaturqu Sofokl yazır: *“Dünyada heyrətedici güclü qüvvələr çoxdur, lakin insandan güclüsü yoxdur”.* Doğrudan da özünü dərk edən insan öz gücünü, qüvvəsini, intellektini, potensial imkanını cəmləyib bir yerə yönəldərsə, o yenilməz olar, bütün istək və arzularını həyata keçirər. Bunun əsasında da insanın özünəinamı dayanır. Bu xüsusiyyətlər ən çox yaradıcı adamlarda mövcud olur. Çünki yazıb-yaratmaq insana ilk növbədə öz nəfsinə qalib gələ bilmək bacarığı aşılayır. Əgər insan nəfsini öz əsirinə çevirə bilsə, bu adam həyatda hər istəyinə müvəffəq ola bilər. Digər tərəfdən də həmin insan iç dünyasında hər zaman “təmizlik işləri” aparmalı, daxilindəki hər cür qeyri-insani xüsusiyyətlərindən xilas olmalıdır. Belə olan halda deyirlər ki, o, yaxşı insandır. Bu insanlar hansı zaman və

məkanda, hansı şəraitdə yaşamasından və fəaliyyət göstərməsindən asılı olmayaraq, öz gözəl insani keyfiyyətlərini qoruyub saxlamağı bacara bilir, kimsəyə, nəyə görəsə boyun əyməyərək öz-özünün sahibi, azad insan olur. Yüksək insani keyfiyyətlərə malik olan yaradıcı şəxslər digərlərindən yüksəklikdə dayanaraq cəmiyyət arasında həmişə hörmət və rəğbətlə qarşılanırlar. Həmin adamlar həddindən artıq təvazökar olduqları üçün həm şəxsi keyfiyyətləri baxımından, həm də yaradıcılıq baxımından diqqət mərkəzində olmaqdan çəkinərək, yalnız başlarını aşağı salıb cəmiyyətə, insanlara, bütünlüklə millətə xeyir verə biləcək işlərlə məşğul olurlar. Bunun müqabilində onlar kimsədən nəsə ummurlar. Yuxarıda sadaladığımız yüksək insani keyfiyyətlərə malik olan gözəl, şəxsiyyətinə və yaradıcılığına rəğbət bəslədiyim insanlardan biri də yazıçı-publisist Böyükxan Bağırlıdır.

Mən **"Yaxşı insanlar sorağında"** adlı ədəbi silsilədən olan üçüncü kitabımı qəlbindən zahiri aləminə sanki nur süzülən, ədəb-ərkanı, əxlaqı, tərbiyəsi ilə həmyaşıdları arasında seçilən, ədəbi mühitdə tanınmış yaradıcı şəxsiyyətlərdən biri olan Böyükxan Bağırlıya həsr edirəm. Yaradıcı insanlardan yazmaq böyük savab işdir. Mən də əlimə düşən bu savab işi qazanmaq fürsətini başqasına buraxmaq istəmədim.

Yazıçı, şair və publisist Böyükxan Bağırlı yüksək insani keyfiyyətləriylə yanaşı, yorulmaq bilməyən, həmişə axtarışda olan, oxumaqdan bircə an belə usanmayan, daim öz üzərində işləyən, düzlüyü, dürüstlüyü, xeyirxahlığı, əqidə saflığını, ləyaqəti, işinə məsuliyyətlə yanaşmağı, prinsipiallığı, zəhmətə alışqanlığı, özünə mökəm inamı və həyata bağlılığı, düşüncə və fikirlərində sərbəstliyi, azadiliyi, zəhmətə qatlaşmağı özünün həyat amalına çevirən əsl ziyalı şəxsiyyətlərdəndir.

B.Bağırlı ata yurdunun gərəkli davamçısı olan ləyaqətli övlad, örnək olunası valideyn, Azərbaycan ziyalılığının bütün müsbət keyfiyyətlərini özündə cəmləşdirən, hər şeydən öncə millətini, Vətənini, xalqını hədsiz bir məhəbbətlə sevən vətəndaşdır.

Mən yazıçı-publisist B.Bağırlının "Zəhərlənmiş tale" povestini, "Cəhənnəmi görənlər", "Xoş xəbər", "Sərnişinlər", "Çovğun", "Aynalı gölün payızı", "Ağ yaylıqlar", "Göyərçinlər" hekayələrini oxumuşam. Müəllifin ədəbi yaradıcılığına azdan-çoxdan bələd olan bir oxucu kimi deyim ki, onun yaradıcılığında müşahidəçilik qabiliyyəti, hadisələrə yanaşma üsulu, onları təsvir etmək bacarığı çox yüksəkdir. B.Bağırlının əsərlərinin əsas qəhrəmanları kənddə yaşayan, torpağa, əməyə bağlı insanlardır. Açığını deyim ki, müəllif öz əsərlərində kənd həyatını gözəl təsvir edərək, oxucunu istər-istəməz kənddə keçirdiyi o unudulmaz uşaqlıq illərinə səyahət etməyə sövq edir.

Yazılarından duyulur ki, yazıçı kənd həyatını, məişətini, etnoqrafiyasını, folklorunu, doğulduğu kəndin qədim tarixini yaxşı bilir. Bunu B.Bağırlı özünün uşaqlıq illəri haqqında danışığından da görmək olur. Belə ki, o, uşaqlıq illərini xatırlayarkən deyir: "*Mən Cənub bölgəsində, Pokrovka kəndi (indiki Günəşli kəndi) ilə qonşu olan Alar kəndində doğulub boya-başa çatmışam. Bizim alarlıların, yaşlı nəslin dediyinə görə, kökü Altaylara, Sibir çöllərinə, daha sonra Cənubi Azərbaycanın Urmiya gölü ətrafına, Şahdağı mahalına, Ərdəbil dövrəsinə gedib çıxır... Mənim yazı-pozuya meylim içində boya-başa çatdığım mühitlə bağlıdır. Gözümü açanda ətrafımda nağılçıları, avazla qəsidə oxuyan dərvişləri, el arasında "Lotu" adlandırılan xalq məzhəkəçilərini, növbə ilə uzun qış gecələri ayrı-ayrı məhəllələrdə haqq aşiqləri barədə dastanlar söyləyən telli saz ustalarını, ilaxır çərşənbə gecələrində çillə çıxaran, dilək tası quran sevdalı qızları, Kərbəla müsibətindən əhvalatlar söyləyən rövzəxanları, bekarçılıqdan kəndin o baş, bu başına şayiələr yayan, hədəfə gələn, tilova düşən, "zır kəndçi" deyilən müəyyən avam, suyu şirin adamlar barədə söz çıxardıb belələrini bir günün ərzində dəli edib çöllərə salan baməzələri, yazda havalar qızanda ilan tutan ovsunçuları, düyün çalanları, tas quranları, divara arpa yeridən cadugərləri, hoqqabazları... görmüşəm."*

Yazıçı kənd həyatını, orada yaşayan, çalışan insanların təkcə keçirdikləri həyat tərzini deyil, onların hər

birinin daxili psixolojisini, iç dünyasını, düşüncələrini, davranışlarını verməyə çalışır, adamların könül dünyalarını vəsf edir. Müəllif əsərlərinin qəhrəmanlarını oxucusuna ilk andan tanıtmağa çalışmır, gərgin dramatik səhnələrdən sonra qəhrəmanın xəyallar aləminə dalaraq, keçmiş xatirələri ocaq közü kimi çözələyərək əslində onun kim olduğunu göstərməyə çalışır. B.Bağırlının qəhrəmanları - istər müsbət olsun, istər mənfi, onlar həyatımızın həm sovet dövrünü, həm də müasir dövrümüzün reallıqlarını özündə ehtiva edən insanlardır. Müəllif ideal qəhrəman obrazları yaratmaq fikrindən uzaqdır, ancaq o, yazıçı fəhmi ilə cəmiyyəti müşahidə edərək, qəhrəmanlarının fərdi və tipik keyfiyyətlərini təhlili nəticəsində öz obrazlarını oxucular üçün nümunəyə çevirmək istəyir. Və o, buna nail olur. Yazıçı qəhrəmanlarını ilahiləşdirməyə çalışmır, sadəcə onları olduqları kimi cəmiyyətə təqdim etməyə çalışır.

Bütün dövrlərdə, tarix boyu insan problemi, xüsusən onun mənşəyi, mahiyyəti, təbiətdə tutduğu yeri, cəmiyyətdəki rolu məsələləri fundamental fəlsəfi problemlərdən biri kimi nəzərdən keçirilir. Fəlsəfə meydana gələndən bəri insan həmişə onun diqqət mərkəzində olmuşdur. Ancaq müasir elm nə qədər inkişaf edirsə-etsin, insanın mənşəyi və mahiyyəti məsələlərində hələ də sirli cəhətlər çoxdur. İnsan hələ ki, kəşf olunmayan şüurlu bir varlıq olaraq qalır. Müasir elmin nailiyyətlərinə əsaslanaraq demək olar ki,

insan evolyusion inkişafın məhsuludur. Elm sübut etmişdir ki, insanın inkişafında bioloji amillərlə yanaşı, sosial amillər də mühüm rol oynamışdır. Hər bir insanın necə inkişaf etməsi onun düşdüyü mühitdən, kollektivdən, cəmiyyətdən asılıdır.

Mən filosof alim Həqiqət xanım Kərimova ilə “İnsan və onun psixologiyası” mövzusu barədə söhbət aparmışdım. Həqiqət xanım insan haqqında mənə bir neçə maraqlı açıqlamalar vermişdi. Onun fikrincə: “*İnsan hələ də bəşər tarixində müəmmalı bir varlıq olaraq qalmaqdadır. İnsan daim yüksək məqamlara can atır. Onun müəmması isə beyinidir. Məncə, beyinin şifrəsi açılarsa, elm insan haqqında axtardığı cavabı tapa bilər. Əql və düşüncə beyinə məxsusdur. Quranda əql barədə 500-ə yaxın ayə vardır. İnsan təbiəti iki xassəlidir. Zahirən görünən, maddi xüsusiyyətlərə malik olan insan - yəni zamanın təsiri ilə dəyişən insan; ikincisi daxili aləminə aid olan, yəni zəka, idrak, vicdan kimi keyfiyyətləri özündə birləşdirən mənlikdir ki, maddi aləmdə nisbi olan hər şeyi onunla anlayıb təyin edir, dəyişkənlikləri müqayisə edir. Məhz insana xas olan bu ikinci xassə məkan və zamanın təsirindən dəyişmir. Vicdan həqiqət və mənəvi Əxlaqdır*”.

İnsanı ucaldan onun əxlaqı, vicdanı, həyata düzgün baxışı, öz potensial gücünü düzgün yerə, düzgün istiqamətləndirmək, məqsəd və məramına çatmaq üçün gərgin əmək sərf etmək bacarığıdır. Doğrudan da zəhmət,

əmək insanı şərəfləndirir, ona məmnunluq, bəxtiyarlıq bəxş edir. Böyük şairimiz Hüseyn Cavid çox doğru olaraq göstərir ki, *"əsl bəxtiyarlıq xalqa xidmətdir. O adam xoşbəxtdir ki, onun əməyi milyonlara gərək olsun, Vətənin, ölkənin çiçəklənməsinə, yüksəlməsinə xidmət etsin."* Bunu nəzərə alan şair insanları xeyirli işlər görməyə, təşəbbüskarlığa, yaradıcı əməyə, fədakarlığa çağıraraq deyir:

**Haqq da, həqiqət də göz önündədir,**
**Yer altında deyil, yer üstündədir.**
**Bəxtiyarsan əgər çəkdiyin əmək,**
**Cahan sərgisinə versə bir çiçək.**

Yorulmaq bilməyən, daim yazıb-yaradan, xeyirxah əməllər sahibi, yazıları ilə Vətəninə, xalqına xidmət göstərən, özünü həmişə millətinin əsgəri hesab edən istedadlı qələm sahibi Böyükxan Bağırlı da belə insanlardandır. O, həyatda həmişə öz gücünə, təfəkkürünə arxalanaraq cəmiyyətdə öz layiqli yerini qazanmışdır. B.Bağırlının ədəbi mühitdə qazandığı uğurlar onun gecə-gündüz çalışdığı gərgin əməyinin nəticəsində olmuşdur. Onu istər oxucuları, istərsə də qələm dostları həmişə xoş xatirələrlə yada salır, onun haqqında daim xoş sözlər söyləyirlər. İnsanı cəmiyyətdə sevdirən onun şəxsiyyətinin bütövlüyü, əqidə saflığı, qüruru, şərəfi, hər yerdə ədalət prinsipini gözləməsi, adamlara qarşı xeyirxah münasibəti,

səmimi davranışı, təmkinliliyi, riyakarlıqdan uzaq olması, mənəvi azadlığı, ictimai fəallığı, etik normalara ciddi riayət etməsi, özünə və başqalarına həmişə hörmətlə yanaşması, ətrafındakıların diqqətin cəlb edə bilmək bacarığına malik olmasındadır. Rus psixoloqu D.A.Leontevin fikrincə, "*şəxsiyyət doğulmur, şəxsiyyət təşəkkül tapır.*" Sosiallaşma nə qədər ki, dinamik xarakter daşıyır, şəxsiyyətin təşəkkülü bir o qədər daimilik kəsb edir. Yazıçı B.Bağırlıda şəxsiyyətin inkişafı onun ədəbi yaradıcılığındakı müxtəlif insan tiplərinin cəmiyyətdə onlara qarşı münasibətin formasından və dinamizm əsas etibarıilə daha çox sosial mühitdən asılı olduğunu göstərməsindədir. İ.S.Viqotski isə şəxsiyyəti hər şeydən əvvəl, fəaliyyətdə olan varlıq kimi araşdırır. Çünki şəxsiyyətin məqsədi, vəzifələri, davranışı və hərəkətləri yalnız insanın fəaliyyətində üzə çıxır. Yazıçı-publisist B.Bağırlının şəxsiyyəti onun ədəbi fəaliyyətində, sosial mühitdəki insanlarla rəftar və davranışlarında aydınca görmək mümkündür. O, yaşadığı cəmiyyətdə ictimai dəyərini bilən, öz yaradıcılıq imkanları ilə ədəbi mühitdə özünəməxsus atmosfera yaradan və oxucularına, onu sevənlərə gərəkli olduğunu başa düşən yazarlardandır. Zamanın özünün daxilində olan insanlar da fərqli olurlar. Eyni cəmiyyətdə yaşayan insanlardan biri özünü xoşbəxt, digəri isə bədbəxt hesab edir. B.Bağırlı özünü xoşbəxt sanan insanlardandır. Onun xoşbəxtliyi elə cəmiyyətə

gərəkli bir vətəndaş olmağındadır. Onun xoşbəxtliyi Vətəninə, xalqına, elinə-obasına qələmi ilə xidmət etməsindədir. O, torpağına, yurduna qırılmaz tellərlə bağlı gözəl insan, böyük şəxsiyyətdir. Cəmiyyətdə baş verən hər hansı bir neqativ hadisə onu təkcə yazar kimi deyil, həm də bir vətəndaş olaraq qəlbən narahat edir, onun içini sızladır. İnsanların ağrı-acılarını özününkü hiss edir, onların dərdlərinə şərik çıxır, düşdükləri çətin vəziyyətdən çıxış yolu göstərməyə çalışaraq, onlara hər zaman kömək etməyə hazır olduğunu öz əməlləriylə sübut etməyə çalışır. Bəzən insan həyatda çarəsiz qalaraq kimdənsə kömək gözləmək məcburiyyətində qalır. Belə insanlar öz qüvvəsinə inamı olmayan şəxslərdir. Amma elə insanlar da vardır ki, hər hansı çətin vəziyyətə düşməsindən asılı olmayaraq kömək üçün kiməsə müraciət etmək fikrindən uzaq olur. O, yalnız öz gücünə, potensial imkanına, intellektinə güvənərək qarşılaşdığı maneəni dəf edə bilir. Yazıçı-publisist B.Bağırlı da öz bacarığına, qabiliyyətinə, idrakına əmin olan insanlardandır. O, həyatda rastlaşdığı hər bir şeyin, hər bir hadisənin mahiyyətinə varmaq istəyir, onu daha dərindən öyrənməyə çalışır. İnsanın həyatda qazandığı ən böyük qələbə öz üzərindəki qələbəsidir. Əgər insan öz nəfsinə qalib gələ bilsə, o, həyatda istədiyinə nail ola bilər. İnsan özünü dərk etsə, o, həyatı dərk etmiş olar. Bunun üçün insanın daim öz üzərində çalışması lazımdır. Böyükxan müəllim də yorulmaq

bilmədən həmişə öz üzərində işləyərək mənəvi dünyasını zənginləşdirməyə çalışır. Bu ona həmişə hörmət və başucalığı gətirir. Bununla bərabər B.Bağırlı hər yerdə və hər zaman əxlaqını, ləyaqətini, ciddiliyini, şəxsiyyətini, yüksək insani keyfiyyətlərini qoruyub saxlamağı bacarır. O, başladığı işi yarımçıq qoymağı qətiyyən sevməyən, hər şeydə ağlına, idrakına söykəndiyini əsas gətirərək işini uğurla tamamlamağı xoşlayan çox zəhmətkeş adamdır. Böyükxan müəllim gördüyü işləri hisslərə qapılmadan, ağılının gücünə inanaraq həyata keçirir və eyni zamanda işinin nəticəsindən zövq alır. O, başqalarına qarşı rəftar və davranışında həmişə ehtiyatlı və səmimidir. Yazıçı öz hərəkətlərində Platonun dediyi kimi, *“davranış hislərlə deyil, ağılla idarə olunmalıdır”* prinsipinə həmişə sadiq qalır. İnsan azaddır və onun azadlığı ağıllı davranışındadır. B.Bağırlı da hər zaman ağıllı davranışı, səmimi rəftarı, məntiqi mühakimələri, maraqlı müsahibələri, duzlu-məzəli söhbətləri ilə başqalarına örnək olmuşdur. Nasirimizdə insana xas olan ən nəcib və müsbət insani keyfiyyətlər ölçüyə gəlməz dərəcədə çoxdur. O, el arasında deyildiyi kimi, “qızdan-gəlindən həyalı” əsl türk kişisidir. Böyükxan həm də nəzakətli və xeyirxah insandır. Konfutsi deyirdi*: ”Hər kimdə bu beş keyfiyyət olsa demək o, insansevərdir. Bunlar: hörmət, nəzakətlilik, düzlük, xeyirxahlıq və dərrakəlilikdir. Əgər insan nəzakətlidirsə, ona dayaq olurlar, əgər hörmətcildirsə, ona rəğbət*

*bəsləyirlər, düzgündürsə, ona etibar edirlər, əgər o, ağıllıdırsa, uğur, xeyirxahdırsa, hörmət qazana bilər".* Konfutsinin sadaladığı beş insani keyfiyyətlərin hamısı Böyükxan müəllimdə vardır. Ona görə də ona həm ədəbi mühitdə, həm kollektivdə, həm yaşadığı el-obasında, həm də ailəsində böyük hörmət və rəğbət bəsləyirlər. İnsan təbiəti mürəkkəb olduğu üçün bəzi adamların qəlbindəkiləri bilmək, təbiəti dərk etməkdən çətin olur. İçində həsəd, kin, paxıllıq, xudpəsəndlik, riyakarlıq, qısqanclıq və s. kimi qeyri-insani xüsusiyyətlər yuva salmış insanlara da Böyükxan həmişə səmimi, mehriban, xoş rəftar sərgiləyərək insani münasibətlər bəsləyir. Bu cür insani keyfiyyət şəxsiyyətin böyüklüyünə dəlalət edir. Bütün dediklərimizi nəzərə alaraq yazıçı-publisist B.Bağırlını mübaliğəsiz olaraq böyük şəxsiyyət və başqalarına örnək olası insan adlandırsaq heç də yanılmarıq. Yazıçı qardaşımıza ədəbi yaradıcılığında bundan sonra da yaşıl işıq və uğurlu yol diləyirik.

# Uşaqlıq illəri

Böyükxanın uşaqlıq illəri 1950-ci illərin əvvəlinə təsadüf edir. O zaman balaca Böyükxanın yaddaşında ən çox qalan kənd evlərindən gələn ağlaşma səsləri idi. Bu ağlaşma səsləri kəndin müxtəlif məhəllələrindən gəlirdi. Sonralar o, dərk etdi ki, bu ağlaşma səsləri Böyük Vətən müharibəsində həlak olmuş, geri qayıtmayan ailələrin evlərindən gəlir. Çünki müharibədən qayıtmayan kəndçilərin "qara kağızı" ailələrinə gec çatdığından bu vay-şivən səsləri müxtəlif vaxtlarda gəlməkdə davam edirdi. Hələ ərindən, qardaşından, sevgilisindən xəbər almayanlar isə böyük ümidlə onların yolunu gözləyirdilər. Balaca Böyükxan bu ağlaşma səslərindən çox narahat olurdu, sabaha kimi yata bilmirdi. Fikir və düşüncələr onu rahat buraxmırdı...

Daha sonra Böyükxanın ən çox xoşladığı və əbədi yaddaşında həkk olan mağar toyları oldu. O zamanlar mağar toyları indikindən daha maraqlı keçirdi. Toy bir neçə gün davam edirdi. Əvvəlcə müğənni oxuyurdu. Sonra axşam saat 11-də toyxanaya aşıqlar daxil olurdu. Uşaqlar aşıqların toyxanaya girməsini böyük həsrətlə gözləyirdilər. Aşıqlar gəraylı söyləyib, dastanlar danışırdı. Böyükxan ən

çox aşıqların dastanlarına maraqla qulaq asırdı. Daha sonra ustad aşıq öz yanında gətirdiyi şagirdi ilə deyişirdi. Toy gecə saatları 3-ə kimi davam edirdi.

Bir dəfə kənddəki növbəti toya Aşıq Qurbanxan Sadıqov gəlmişdi. Ağsaqqallar ondan soruşdular ki, “aşıq, bu gün hansı dastanı söyləyəcəksən?” Aşıq cavabında bildirdi ki, bu gün dastanı bu kişi deyəcək. O, kənddə nağılçı, dastançı kimi tanınan Cullan kişini göstərdi. Cullan kişi bir dastan başladı. Uşaqlar maraqla Cullan kişini dinləyirdilər. Gecə saat 2-də Cullan kişi söhbətini dayandırdı və yorulduğunu bəyan etdi. O, dedi ki, dastanın ardını sabah davam edəcək. Uşaqlar həvəslə sabah axşamı gözləməli olurdular. O vaxt kənddə nə radio, nə televizor vardı. Kənddə kiçik bir kitabxana vardı. Oradakı bir neçə kitabı da kənd soveti, kolxoz sədri və partkom yığıb evlərinə aparmışdı. Bəzilərinə isə oxumaq üçün kitab çatmırdı. Balaca Böyükxanda isə kitab oxumağa böyük həvəs yaranmışdı. O, aşıqların söylədikləri dastanları, nağılları özü kitabdan oxumaq istəyirdi. Onu da qeyd edək ki, Böyükxanın ədəbi yaradıcılıqla məşğul olmağına həmin toylarda söylənilən nağıl və dastanların çox böyük təsiri olmuşdu...

Böyükxanın Qaraxan adlı yaxın qohumu vardı. O bir axşam Böyükxangilə vərəqləri əzilmiş, köhnəlmiş, əldən-ələ düşmüş qara meşin üzlü bir kitab gətirmişdi. Bu

“Aşıqlar” kitabı idi.O kitab Hümbət Əlizadənin radaktorluğu ilə çap olunmuşdu. Böyükxan hələ o vaxt orta məktəbə getmirdi. Bu kitab Latın qrafikası ilə yazılmışdı. Həmin dövrdə gənclik illərini yaşayan Böyükxanın bibisi oğlu Qaraxanın yaxşı səsi vardı. Bal kimi şirin, lirik tenor səsiylə “Kərəm gözəlləməsi” üstündə xırda-xırda gəzişər, yeddilik lampa ətrafına toplaşan qohum-əqrəbanı feyziyab eləyərdi. Bibioğlu bu kitabda yazılanların hamısını demək olar ki, əzbər öyrənmişdi. Balaca Böyükxan latın qrafikasını bu kitab vasitəsilə özü öyrəndi. O, birinci sinfə 1954-cü ildə getdi. Əlifbadan onlara Lətif müəllim dərs deyirdi. Uşaqlardan kimsə müəllimə dedi ki, Böyükxan kitabı oxuya bilir. Böyükxan da həmin “Aşıqlar” kitabını özüylə məktəbə aparmışdı. Müəllim balaca Böyükxana dedi ki, “yaxşı, bu kitabı oxu görüm.” Böyükxan da kitabdakı ustadnamələri, dastanları artıq əzbərdən bilirdi. Ona görə də kitabı oxumağa başladı. Müəllimi təəccüb bürüdü ki, əlifbanı bilmədiyi halda kitabı necə oxuya bilir. Sonra Böyükxanı dəftərxanaya apardılar. O zaman məktəb direktoru lənkəranlı Seyidağa müəllim idi. Məktəb direktoru da Böyükxana yenidən həmin kitabı oxutdu. O da əzbər bildiyindən kitabı sicilləmə oxumağa başladı. Sonradan Böyükxan əlifbanı öyrənərkən gördü ki, o, hərflərdən yalnız bir neçəsini bilir. Çünki onlar məktəbdə Kiril əlifbasını öyrənirdilər. Yəni Latın əlifbasında yalnız bir neçə hərf Kiril əlifbasına uyğun gəlirdi.

Alar kəndində çox baməzə adamlar vardı. Onlar hər axşam bir evə toplaşıb maraqlı söhbətlər edirdilər. Böyükxan həmişə onların söhbətlərinə maraqla qulaq asırdı. Onu da deyək ki, o, həmişə özündən yaşca böyüklərlə oturub-dururdu, onlardan nəsə öyrənməyə çalışırdı. Böyükxanın gələcəkdə ədəbi yaradıcılığında bu söhbətlərin çox böyük təsiri olmuşdu. O zaman “Ulduz” jurnalında Böyükxanın “Tələ” adlı bir hekayəsi dərc edilmişdi. Həmin hekayəni uşaqlıq illərində kəndə gələn ilan tutanlardan təsirlənərək yazmışdı. Yəni onun yazdığı hər hekayə və ya povestlər istər uşaqlıq illərində olsun, istərsə də gənclik illərindəki əldə etdiyi təəssüratlar nəticəsində ərsəyə gəlmişdi. Böyükxana ən çox təsir edən amillərdən biri də Novruz bayramı idi. Uşaqlar bu bayramın gəlişini həsrətlə gözləyirdilər. İlaxır çərşənbə gecələrində çillə çıxarmağı çox xoşlayırdılar. Çünki bu çillə çıxarmaq gecəsi həm folklor, həm də etnoqrafik cəhətdən maraqlı idi. Böyükxangil tərəfdə İmanəlinin bacısı Rüsxarə adlı qadın vardı. O, rəhmətlik Maralın bacısı idi. O, Əzimov Fətişə ərə getdi. Sonradan əri Fətişin müharibədən “qara kağız”ı gəldi. Rüsxarənin sinəsi sözlə dolu bir qadın idi. Yəni indiki sözlə desək, əsil şairə idi. Həmin çillə gecələrində o, özünün maraqlı qoşmalarını, gəraylarını, bayatılarını söyləyirdi və hamını heyran edirdi. Kənddə gözəl mahnı oxuyan qızlar da vardı. Onlara mahnı başı deyirdilər. Məsələn, rəhmətlik Piriş dayının qızlarından -

Minarə və rəhmətlik Fəridənin çox gözəl səsləri vardı. Xançı dayının da gözəl səsi vardı. Ümumiyyətlə, Zeyni tayfasının hamısının gözəl səsi olub. Həmin qızlar qohum olduğu üçün, Böyükxangilə xala uşağı hesab olunurdular. Onlar gəlib Böyükxangilin toylarında, xüsusən paltarkəsdidə mahnılar oxuyurdular. Qədimdə Alarda qol açıb oynamazdılar. Bu o zamanın adət-ənənəsindən, ədəb-ərkanından irəli gəlirdi. O dövrdə qızlar sadəcə ayaqlarını bir-birinə yaxın qoyaraq, əlləri yanında oynayırdılar...

# Məktəb illəri

Böyükxan1954-cü ildə 30-cu illərdə müsadirə olunmuş bir kişinin ikimərtəbəli evində yerləşən Alar kənd yeddiillik məktəbin birinci sinfinə gedib. Həmin məktəbin hər bir guşəsi, hər bir otağı, pəncərələr, nərdivanlar, nərdivanın rənginə qədər, həyətdəki böyük tut ağacı indiki kimi Böyükxanın yadındadır. Bir az sonralar əsgərlikdən qayıdan və Mingəçevirə gedib orada fəhlə işləyən böyük qardaşı Əliheydərin bir payız axşamı Ordubadinin "Qılınc və qələm" romanını özü ilə evə gətirməsi heç yadından çıxmır. Həmin payız axşamının dadı, tami hələ də balaca Böyükxanın damağından çəkilməyib. O axşam qardaşı qaz kəsdi, anası boranıplov bişirdi, manqalda çay dəmlədi. Süfrə hələ hazır olmamış bir də gördülər ki, evlərinə xeyli qonaq gəlib. Hamısı da öz yaxınları idi. Sən demə, kimsə Əliheydərin qoltuğunda "Qılınc və qələm"i görübmüş və ilmə də ondan keçibmiş. Həmin dövrdə, ucqar bir kənddə "Qılınc və qələm" romanı böyük bir qənimət idi. Hamı bu əsərdən danışırdı. Deyirdilər ki, bu kitabdan kənd kitabxanasına cəmi bir nüsxə göndəriblər, onu da müharibə veteranı olan kənd sovetinin sədri aparıb qoymuşdu evinə… Müxtəsər, həmin payız axşamı qardaşı Əliheydərlə Məzahim dayısı növbə ilə romanı oxuyurdular.

Anası Xədicə iki dəfə lampaya nöyüt tökdü. Beləliklə, kitabın oxunuşu bir həftədən çox çəkdi. Müharibədən baş leytenant rütbəsində orden-medalla qayıtmış Zöhrab əmi əlini əlinə vurub deyirdi: “Pah atonan sənin arvad yiyəsi, bu Qətibə (romandakı Qətibə surətini nəzərdə tuturdu) gör nə işlər gördü, nə oyunlar çıxartdı!.. Allah bizi məkri-zənənnən qorusun…” O zaman Böyükxan qonaqlar gedəndən sonra yorğanı çiyninə çəkib, yalan olmasın, ta sübhə kimi bu romanı ayrı bir gözlə, xüsusi bir ləzzətlə oxuyar, şagird dəftərinə özüyçün qeydlər edərdi...

O, 1962-ci ildə 7-ci sinfi bitirəndən sonra yaşlı valideynlərinə kömək məqsədilə kənddəki Əzizbəyov adına kolxozda işə düzəldi. Arıq, cılız, təcrübəsiz bir yeniyetmə olmağına baxmayaraq, yaşca ondan böyük olan iş yoldaşlarıyla ayaqlaşmalıydı ki, onlar Böyükxan-dan briqadirlərə, baş aqronoma şikayətlənməsinlər. Onlar su arxlarını təmizləyir, tirə çəkir, dəmiryolu stansiyasından pambıq çiyidi, dərman preparatları, müxtəlif mal-material daşıyırdılar. Sonra Böyükxanı taxıl xırmanına göndərdilər, burda elevatorla taxıl təmizləyirdilər. Səhərdən axşamadək tozun-torpağın içindəydilər. Payıza dönəndə onu elevatordan ayırıb kolxozun ağır işlərinə göndərdilər. Odur ki, Böyükxan işə çıxmadı. O, kolxozda əkin texnikasının taxıl səpininə hazır olmaması barədə tənqidi bir məqalə yazıb, Puşkində ( indiki Biləsuvar) çıxan rayonlararası

"Məhsul" qəzeti redaksiyasına göndərdi. Məqalə tez çap olundu. Həmin məqalə kənddə bərk səs-küy salmışdı, onu kolxoz sədrinin yanına çağırdılar. Getdi. Sədrin yanında ucaboy, orta yaşlı, saçları seyrəlmiş, səliqə-sahmanlı bir kişi əyləşmişdi. İti baxışları diqqəti cəlb edirdi. Bu adam Astarxanbazar (indiki Cəlilabad) Rayon Partiya Komitəsinin məsul işçisiydi. O, birdən yumruğunu stola vurub Böyükxanı hədələdi: "Cavan oğlansan, - dedi, - indidən demaqoqluq edirsən".

Böyükxan təmkinini pozmadan sakit bir tonda cavab verib dedi:

- İndidən eləməyim, sonraya saxlayım, yəni deyirsiz hələ tezdir?!

Kişini gülmək tutdu: "Ə, sən yaxşı kişinin oğlusan, - dedi, - otur izahat yaz, məqalənə düzəliş ver. Yaz ki, cavan olmuşam, səhv eləmişəm..."

- Siz Lenin komsomolçusuna, - dedi, - belə tərbiyə verirsiniz, onu bu sayaq əyri yola çəkirsiniz?! Yaxşı olar ki, düzəlişi mən yox, kolxoz rəhbərliyi eləsin, texnikanı əkinə vaxtında hazırlatdırsın...

Əlbəttə, bu həngamədən sonra Böyükxan kolxozda işləyə bilməzdi və o, işdən çıxdı. Oturub "Anbardar" adlı

bir pərdəli, iki şəkilli komediya yazdı. Kənd Mədəniyyət evinin direktoru, rəhmətlik Tarverdi Əliyevin xeyir- duasıyla bu komediyanı kənd cavanlarının - həvəskar aktyorların ifasında tamaşaya qoydular. Böyükxan özü baş rolda oynayırdı. Tamaşa kənd klubunda göstərilərkən, yalan olmasın, iynə atsaydın yerə düşməzdi. Klub ağzınacan adamla doluydu. Tamaşa böyük uğur qazanmışdı. Kənddə hamı ondan danışırdı. Sorağı bütün rayona yayılmışdı. Həvəskar rejissor Əlifağa Həsrətovun verdiyi quruluşda bu tamaşa rayonun bir çox yaşayış məntəqələrində nümayiş etdirildi. Bundan sonra kolxoz sədri Böyükxanı yanına çağırıb dedi: “Qayıt işinə”. Böyükxan razılaşmadı, əvvəla, kolxozda əmək haqqını gec, bəzən ilin yekunlarına görə verirdilər, ikincisi, özünə yaxşı iş tapmışdı.

O, Puşkin rayon (indiki Biləsuvar) Mexaniki Suvarma İdarəsində maşinist vəzifəsində çalışırdı. Həm də müəssisə rəhbərliyinin, ictimai təşkilatlarının orqanı olan "İrriqator" divar qəzetinin müəlliflərindən biri kimi tanınmışdı. Bir gün, 1964-cü ilin noyabr günlərindən biri idi, idarə rəisi İmran Məmmədov Böyükxanı kabinetinə çağırtdırıb dedi: "Oğlum, "İrriqator"da məqalələrinizi oxuyuram, sən bizə yaxşı kömək edirsən. Qorxma, heç kimdən çəkinmə. Gördüklərini yaz. Mexaniki yığma sexindən yazdığın tənqidi məqaləni yoxlatdırmışam, düz yazıbsan, onu müzakirə eləyəcəyik. İndi isə get "Məhsul"

qəzetinin redaktoru Həmdulla Əzizovun yanına. Demişəm, o səni qəbul edəcək. Məqalələrinin çap olunmasına köməklik göstərəcək".

Həmdulla Əzizov xeyirxah, qayğıkeş bir insandı. O, Böyükxana yaxşı tövsiyələr verdi, əlindən gələn köməyi etdi. Sonralar isə bu kişinin, eləcə də istedadlı jurnalistlər Əlövsət Bəşirovun və Dilarə Vəkilovanın zəmanəti ilə Böyükxan Bağırlı SSR Jurnalistlər İttifaqına üzv qəbul olundu...

Orta məktəbi 1964-cü ildə qurtardı. Böyükxan son dərs günü məktəbə getməmişdi. Çünki doğma məktəbdən, sinif yoldaşlarından, əziz müəllimlərindən ayrılmaq onunçün çox çətin idi. O, istəmirdi ki, uşaqlarla görüşüb ayrılsın. O, buna dözə bilməzdi və ona görə də həmin gün məktəbə getmədi. O zaman məktəbin direktoru Qaçay müəllim idi. O, çox duyğusuz bir insandı. Ancaq Böyükxan rəhmətlik Xosrov müəllim kimi, rəhmətlik Gülüsüm müəllimə kimi, rəhmətlik Xeyrulla müəllim kimi, rəhmətlik Hökümə müəllimə kimi, Adilə müəllimə kimi, Məmmədağa kimi yaxşı müəllimlərini heç vaxt unutmayıb. O, sinif yoldaşlarından Elşad Abbasovu, Arif Bağışovu, Qubad Əliyevi, rəhmətlik Aşur Quliyevi, Adil Rzayevi, Dilavər Qarayevi, rəhmətlik Aslan İsmayılovu, rəhmətlik İgidəli İbayevi, Tərlan Eyvazovu, rəhmətlik Nəriş Kərimovu,

Əzizağa Quliyevi, rəhmətlik Ağabəy Mirzəyevi, qızlardan - Eyzangülü, rəhmətlik Fəridəni, rəhmətlik Lumunu, Sürməni, Sərməni, Səyyarəni, Şahnazı yaxşı xatırlayır. Sinifdəki nadinc uşaqlar bunlardı: rəhmətlik Ağabəy, rəhmətlik Nəriş, rəhmətlik Aşur, İgidəli, Məmmədhüseyn və rəhmətlik Şahhüseyn. Böyükxanın özü də həmin illərdə dalaşqan uşaq olub. Məsələn, o, İgidəli ilə tez-tez dalaşardı. Amma sonradan evdə Böyükxana bildirdilər ki, onun anası yoxdur, rəhmətə gedib. Böyükxan fikirləşirdi ki, anası onu yedizdirib-içirir, pal-paltarını yuyur, ona nəvaziş və qayğı göstərir. İgidəlinin anası yoxdursa, deməli bu şeylərdən o, məhrumdur. Və düşündü ki, o, İgidəliylə niyə dalaşmalıdır ki?! Bundan sonra İgidəli ilə bir daha mübahisə etmədi.

Altıncı sinifdə oxuyarkən Böyükxan özündə hiss edirdi ki, o, artıq formalaşmağa doğru gedir. O, 7-ci sinifdə özünü ədəbiyyatçı kimi hesab edirdi. Bu Cəbrayıl müəllimin kəndə gəlişindən sonra oldu. Onun kəndə gəlişi özü ilə ədəbiyyat sahəsində sanki bir işıq gətirdi. Cəbrayıl müəllim Bakı mühiti görmüş, Universitet kimi böyük elm ocağında təhsil almışdı. Böyükxan ondan çox şey öyrəndi. Bir dəfə Böyükxan Cəbrayıl müəllimdən ona ərəb qrafikasını öyrətməyi xahiş etdi. Cəbrayıl müəllim də heç tərəddüd etmədən ona ərəb qrafikasını öyrətdi. Gələcəkdə bu Böyükxanın çox karına gəldi. Və onun dahi klassiklərin

yazılarını bu qrafikada oxumağına xeyli kömək etdi. Daha sonra Cəbrayıl müəllimin köməkliyi ilə o, Azərbaycan dilinin qrammatikasını öyrəndi. Böyükxan Füzulini Ərəb qrafikasında oxuyub öyrənirdi.

1958-ci ildə M.Füzulinin 500 illiyi qeyd olunurdu. Böyükxan Füzulinin "Leyli və Məcnun"unu demək olar ki, əzbər öyrənmişdi. O, Bakı Dövlət Universitetinə qəbul imtahanı verəndə, ona ədəbiyyatdan "M.Füzulinin ədəbi yaradıcılığında lirika" adlı mövzu düşmüşdü. Ondan imtahanı Cəlal Abdullayev, Təhsim Mütəllibov götürürdü. O, biletə düşən sualı danışdıqdan sonra, ona sual verdilər ki, "Füzulidən bir-iki şeir söyləyə bilərsənmi? Görək, hələ sən nə bilirsən Füzuli haqqında?" Böyükxan da başladı "Leyli və Məcnun"dan deməyə*: "Arayişi-söhbət eylə, saqi! Ver badə, mürüvvət eylə, saqi! Bir cam ilə qıl dimağımı tər, Lütf eylə, bir iltifat göstər! Qəm mərhələsində qalmışam fərd, Nə yar, nə həmnişin, nə həmdərd. Həmcinslərim təmam getmiş. Söz mülkündən nizam getmiş, Bu nəzmdə sən qalıbsənü mən, Bu nəzmi gəl edəlim müzəyyən! Sən ver badə, mən eyləyim nuş, Mən nəzm oxuyum, sən ona tut tuş! Bir dövrdəyəm ki, nəzm olub xar, Əşar bulub kəsadi-osar. Ol rütbədə qədri-nəzmdir dun Kim, küfr oxunur kəlami-mövzun. Bir mülkdəyəm ki, gər udub qan, Məzmuni-ibarətə çəkib can, Min riştəyə türfə ləl çəksəm, Min rövzəyə nazənin gül əksəm, Qılmaz ona hiçkim*

*nəzarə, Derlər gülə xar, lələ xarə. Ancaq deməzəm ki, xaki-Bağdad, Alayişi-nəzmdəndir azad. Yoxdur bir mülk bu zamanda Kim, nəzm rəvacı ola onda: Nə Hind, nə Fars, nə Xorasan, Nə Rumü Əcəm, nə Şamü Şirvan”.*

Bu arada Cəlal müəllim Böyükxanı saxlayıb dedi: “Hara gedirsən? Daha bəsdir! Oğul, de görüm dediyin sözlərin mənasını bilirsən?” O, dedi: “Müəllim, mən mənasını bilmədiyim sözləri kor-korana əzbərləmərəm.” Sonra onlar Böyükxandan bir neçə sözün mənasını soruşdular. O da həmin sözlərin mənasını dərhal dedi. Böyükxana imtahandan “5” yazdılar. Bunlar hamısı Cəbrayıl müəllimin sayəsində olmuşdu. Musiqiyə böyük həvəsi, meyli olub Böyükxanın. Xüsusən Cahangir Cahangirovun, Səid Rüstəmovun yaradıcılığı onu çox maraqlandırırdı. Böyükxan həmçinin Şövkət Ələkbərovanın ifasında Füzuli kantatasının dəlisiydi.

Böyükxanın ədəbi mühitdə özünə məxsus yer tutmağında atası Yadullanın da təsiri çox olub. O özünü ona görə xoşbəxt hiss edir ki, rəhmətlik kişi canlı ensiklopediya, böyük bir universitet idi. Böyükxan ondan çox şey öyrənib. O, ilk dərsini atasından almışdı. Ona ancaq bir diplom almaq qalırdı. Məsələn, namaz qılmağı ona heç kim öyrətməyib. O, atası namaz qılarkən yorğanın altından gizlicə ona baxırdı. Onun necə iqamə dediyini, necə səcdəyə getdiyini, təşəhüdü və salamı necə verdiyini

öyrənirdi. Və orucluq ayında atasıgil imsaka duranda, o da durub dəstəmaz aldı, iqaməni deyərək sübh namazı qılmağa başladı. Bu Böyükxanın ilk namazı idi. O, gördü ki, atası ona diqqətlə baxır. Namazı qılıb qurtarandan sonra o, gülümsəyib dedi: “Afərin, ilk namaz üçün elə də səhvin olmadı. Bəs bunu nə vaxt öyrəndin? Müəllimin kimdir?”  Böyükxan dedi: “Sizdən öyrəndim, ata! Müəllimim də sizsiniz”.

Böyükxan atasından ədəb-ərkan, əxlaqı, insan münasibətlərini öyrəndi. Atası ona deyirdi ki, “Böyükxan, nabadə məclisdə seyidə, mollaya sual verəsən. Bu ədəb-ərkana sığmayan bir haldır. Ola bilsin ki, sənin verdiyin sualı o bilmədi. O zaman həmin seyid və ya mollanın nə hala düşdüyünü özün hiss etməlisən. Əgər ona deyiləsi sözün varsa, ikilikdə de. Adam içərisində kimsəni heç vaxt çətin vəziyyətdə qoyub, onu pərt etməyə çalışma! Sənin özün haqqında da pis fikirlər yaranar. Bunu yadından heç bir zaman çıxarma!” Əslində B.Bağırlının indiki yazdıqlarının hamısı atasının zaman-zaman ona dedikləridir...

# Tələbəlik illəri

Böyükxan Bakı Dövlət Universitetində oxuyarkən demək olar ki, hazır idi. Müəllimlərin çoxusu deyirdi ki, Böyükxan get gəz. Tələbəlik illəri onun bir şəxsiyyət kimi, hər şeydən öncə bir ziyalı kimi formalaşmağında çox böyük rolu olmuşdu. Onu qeyd edək ki, Azərbaycanda tanınmış ziyalıları, elm adamlarını Bakı Dövlət Universiteti yetişdirmişdi. O da bu universitetdə oxuduğu üçün özünü xoşbəxt sanırdı. Böyükxana ən çox maraqlı gələn yataqxana həyatı idi. Çünki burada hər cür xarakterə malik insanlarla, yurdun müxtəlif bölgələrindən gələn gənclərlə rastlaşmaq mümkün idi. Onlarla həmsöhbət olmaq, hər bölgənin özünəməxsus adət-ənənələrini öyrənmək Böyükxan üçün maraqlı idi. Buraya gələn hər bir gənc çıxdığı ailənin, mühitin əxlaq və tərbiyəsini nümayiş etdirirdi. Tələbəlik illərində onun yataqxanada çoxlu dostları vardı. Bu dostluq əlaqələri bu günə kimi də davam etməkdədir. Böyükxan onlarla tez-tez görüşməsə də, ancaq mütamadi olaraq telefon vasitəsilə bir-birilərinin kef-əhvalını soruşub, hazırkı vəziyyətləriylə maraqlanırlar.

Böyükxanın bəxti onda gətirdi ki, o, əyani oxudu. Əli Fəhmi kimi, Mir Cəlal kimi, Nurəddin Babayev kimi, Nəsir İmanquliyev kimi, Bəxtiyar Vahabzadə kimi, Famil Mehdi kimi tanınmış şəxslərdən dərs almaq, onlarla canlı ünsiyyətdə olmaq tələbələr üçün böyük şərəf idi. Tələbə yoldaşlarının hamısı yaradıcı uşaqlar idi. Nüsrət Kəsəmənli, Ramiz Rövşən, Sabir Rüstəmxanlı, Vaqif Yusifli, Seyran Səxavət, Eldar Baxışoğlu, Sədayə Cəmilova, Rüzgar Qurbanova, Aslan Zeynallı, Məmməd Oruc, Məhəmməd Baharlı, Nəsir Əhmədov, Ramiz Vahidoğlu, Rafiq Bağırov, Rizvan Qafanlı, Zərifə Cahangirli, İntiqam Mehdiyev, Nizami Təhməzov, Abbas Abbasov, Elxan Əzizov, Qasid Nağıoğlu, Qalib Əhmədov, Azər Əhmədov kimi istedadlı qələm sahibləri Böyükxanın tələbə yoldaşları olub. M.F.Axundov kitabxanası onların ən sevimli yerləri idi. Axşam saat 12-yə qədər kitabxanada oturub mütaliə edirdilər. Bəzən çox gec olduğu üçün məcbur qalıb onları qovurdular ki, artıq kitabxananı bağlamaq lazımdır. Yəni onlar kitaba o qədər aludə olmuşdular ki, başqa şeylər barədə düşünməyə qətiyyən vaxtları olmurdu. Kitab oxumaq, elm öyrənmək onlar üçün mənəvi tələbata çevrilmişdi. Onlar bu təlabatları ödəmədən özlərini miskin, aciz, məyus, nəyisə itmiş bir məxluq hesab edirdilər. Kitablar onların həyatlarının bir parçasına çevrilmişdi. Onlar kitablarla nəfəs alırdılar.

Tələbəlik illərində ikinci həyatları kitabxanalarda keçirilən ədəbi disputlarda iştirak etmələri olub. Onların universitetdəki ədəbi dərnəyin rəhbəri, şeir üzrə Zöhrab Tahir, nəsr üzrə dərnəyin rəhbəri isə Gülhüseyn Hüseynoğlu idi. İkinci dərnək Lenin adına kitabxanada fəaliyyət göstərirdi. Oradakı dərnəkdə Böyükxan Abbas Abdullanı, Şəmşad Rzanı, İsa İsmayılzadəni, Ələkbər Salahzadəni, yəni onlardan qabaqkı nəslin nümayəndələrini gördü. Dərnəkdə şeirlər oxunurdu, müzakirələr gedirdi, tənqidi fikirlər söylənilirdi. Həmin dərnəyə gənc tələbə yoldaşlarından Nüsrət Kəsəmənli, Nəsir Əhmədov da gedirdilər. Amma onlar hələ ki, yuxarıda adlarını sadaladığımız korifeylərin qarşısında cəsarət edib şeirlərini söyləyə bilmirdilər. Həmin kitabxanadakı dərnəyin rəhbəri Bayram Bayramov idi. Sonra Bayramı Tofiq Mütəllibov əvəz etdi. Daha sonra dərnəyə Nəriman Həsənzadə rəhbərlik etdi. Bundan başqa,onlar M.Ə.Sabir adına kitabxanadakı dərnəyə də gedirdilər. Onlar bəzi şeyləri universitetdə deyil, həmin kitabxanalardakı ədəbi dərnəklərdə  öyrəndilər. Həmin ədəbi görüşlər onların hər birilərinin yaradıcılığına böyük təsir göstərmişdi. Dərnəkdə hər bir istedadlı gənc şairə Vahid Əziz uğurlu yol yazırdı. Bir dəfə "Azərbaycan gəncləri" qəzetində rəhmətlik Qasım Qasımzadənin (O, Nəriman Qasımzadənin atası, "Ədəbiyyat qəzeti"nin baş redaktoru idi. Çox gözəl insandı, xeyirxah adamdı, istedadlı gənclərə həmişə doğru yol

göstərər, onlara əlindən gələn köməkliyi edər, gənc şairlərə uğurlu yol yazardı.) Seyran Səxavət haqqında uğurlu yol yazmışdı. Hamı bu yazıdan danışırdı. O dövrdə bir ədəbi yarış vardı. Hər bir gənc çalışırdı ki, qəzet səhifələrində onun şeiri, hekayəsi çap olunsun.

Tələbəlik illərində Böyükxanın ilk yazısı, yəni şeirləri universitetin **"Lenin tərbiyəsi**" qəzetində çap olunmuşdu. Onun şeirlərini Ağamusa müəllim vermişdi və uğurlu yol yazmışdı. Bütün gənc şair və nasirlərin ilk yazıları bu qəzetdə çıxdıqdan sonra, digər mətbu orqanlarında nəşr oluna bilərdi. Böyükxan ilk şeirlərini "Lenin tərbiyəsi" qəzetində Zöhrab Tahirin rəhbərliyi altında keçirilən dərnəkdə söylədi. Onunla bərabər Nüsrət Kəsəmənli, Eldar Baxış, Namiq Fərrux, Sədayə Cəmilova, Məmməd Oruc, Seyran Səxavət və başqaları şeir söylədi. Dərnəkdə bəyənilən şeirləri **"Lenin tərbiyəsi**" qəzeti dərc edirdi. Ağamusa Axundovun Böyükxan barəsində yazdığı uğurlu yol onu ədəbi yaradıcılığa daha da həvəsləndirdi. Həmin qəzetdə Böyükxanın **"Qonşular"** və bir də başqa bir şeiri dərc olunmuşdu. Ondan sonra 1968-ci ilin mart ayında Məmməd Arazın xeyir-duası ilə **"Ulduz"** jurnalında şeiri çap olunması onun ən böyük uğuru oldu. Sonralar **"Yeni gün"** qəzetində şeirlərini çap elətdirdi. Böyükxan şeirlərinə təkrarən nəzər saldıqda, dərk elədi ki, o, artıq şeirə sığmır. Düşündü ki, onun nəsr sahəsində oxucuya daha çox

deməyə sözü var. Və bu sahədə o özünü daha çox ifadə edə bilər. Böyükxan o insanlarla təmasda olub, onlarla görüşüb söhbət etmişdi və istəyirdi ki, nəsrdə həmin adamların personajlarını yaradıb oxuculara tanıtsın. Məsələn, **"Çovğun"** hekayəsini götürək. O, həmin hekayəni 5-6-cı sinifdə oxuduğu zaman, "Çala"da mal-heyvan saxladıqları dövrlərdə  Salyan tərəfdən onlara iki-üç nəfər qonaq gəlibmiş. Onlar söhbət edirlərmiş ki, iki il bundan qabaq burada bir gəlin çovğuna düşüb və yolunu azaraq donubmuş. Həmin söhbət Böyükxanın heç vaxt yadından çıxmırdı, onu daim narahat edirdi. Və sonda o, həmin hadisəni qələmə alandan sonra özündə rahatlıq tapdı.

Onlar Qırmızıkənd stansiyasına tez-tez gedir və uşaq həvəsilə gəlib-gedən qatarlara baxırdılar. O qatarlardan kimisi onlara baxıb gülür, kimisi əl eləyir, kimisi də alma atırdı. Bir dəfə vaqonun pəncərəsindən bir qızın Böyükxana diqqətlə baxdığını görüb. Qızın baxışları onun gözləri önündən heç getmirdi. Və günlərin birində bunun təsirindən Böyükxanın **"Ağ yaylıqlar"** hekayəsi ərsəyə gəldi. Bu hekayədə o özünün uydurduğu utopiyaya vurulmuşdu. O qıza vurulmuşdu ki, həmin qız həyatda yox idi. Onun fikrincə, hər bir baxışda bir həyat, bir yazılmamış dastan var.

B.Bağırlıya yazmaqda ən böyük təsir göstərən Çingiz Aytmatovdur. Bir zamanlar onun dəlisi olub. Ondan əvvəl isə Ənvər Məmmədxanlının "əsiri" olubmuş. Hətta onun Anna Kareninadan tərcüməsini orijinal əsər kimi qəbul edirdi. Böyükxanın ədəbi yazılarının üzə çıxmasında Sabir Əhmədlinin böyük zəhməti olub. Bu hər zaman onun çiyinlərində borc olaraq qalmaqdadır. Hətta, **"Döyüşçülər daş karxanasında"** adlı hekayəsini ona həsr etmişdi. Sabir Əhmədlidən Böyükxan çox şey öyrənmişdi. O, böyük yazıçı idi. Qələmi ağır idi.

B.Bağırlının "Ağ yaylıqlar" hekayəsi Sabir Əhmədov "Ədəbiyyat qəzeti"ndə dərc elədi. Bunun ardınca **"Çöllərdə səhər"** və **"Nar kolları"** hekayələrini dərc elədi. Sonra Böyükxan "Ulduz" jurnalında çap olunmağa başladı...

# Bu onun həyatıdır

O, həmişə özünü torpağın bir zərrəsi, heç kim hesab edib. Ağlı kəsəndən, atasının, müəllimlərinin öyrətdiklərindən bilib ki, şan-şöhrət yalnız şəriki olmayan bizi xəlq edən o bir olan Tanrıya məxsusdur. Odur yerin, göyün sahibi, Odur külli kainata pərvəriş verən. Başqaları deyil! Yer üzündə seçilənlər yalnız Onun bəyəndikləridir. Qeyriləri deyil. Bu dünyada ölmək, yox olmaq və unudulmaq qanunları yalnız Onun bəyəndiklərinə və seçdiklərinə şamil deyil!

O, çiyinlərini abırını tökə biləsi izafi şeylərlə yükləməyi heç sevməz. O, həmişə ulu təbiətdən öyrənməyə, ibrət götürməyi xoşlayıb, sözübütöv olmağa çalışıb. Səhər tezdən öz yuvalarından - o yuvalarından ki, oralarda ərzaq ehtiyatları deyilən söz yoxdur, bomboşdur - uçub yem axtaran, bir qarın çörəyə görə öz həmcinslərinə qarşı namərd hərəkətlərə yol verməyən quşlar necə də şərəflidirlər! Bu onun düşüncələridir.

Valideynlərinin dediyinə görə, o, 1946-cı ilin mart ayında, özü də axırıncı çərşənbədən bir neçə gün əvvəl

anadan olub. Amma dövlətin rəsmi sənədlərində onun doğum tarixi avqustun 21-i göstərilir.

Atası Yadulla Qubadoğlu, anası Xədicə Böyükağa qızı ictimai mənşəcə kolxozçu-zəhmətkeş olublar. Sadə həyat sürüblər. Əllərinin zəhmətilə dolanıblar. Və uzun ömür sürüblər. Atası 1993-cü ilin fevralında, anası isə 1994-cü ilin noyabrında vəfat edib. Atası Aların Alcəfərli tayfasındandır. Anası isə Cənubi Azərbaycanın Ərşə mahalının böyük bəylərindən olan Dəhəzxan bəyin qardaşı Böyükağa bəyin qızıdır. Anası Sarıgül Alcəfər tayfasının Bağırlı tirəsindəndir.

Bir ailədə dörd uşaq olublar. Üç qardaş, bir bacı. Onun böyük qardaşı Əliheydər və bacısı Gülsuma ötən ilin - 2014-cü ilin yayında dünyalarını dəyişiblər. Allah hər ikisinə qəni-qəni rəhmət eləsin!

Bakıda keçirdiyi tələbəlik illərini və Azteleradio şirkətində işlədiyi dövrü çıxmaq şərtilə, onun bütün həyatı yaşadığı Alar kəndində və işlədiyi Cəlilabad şəhərində keçib.

Haqqında söhbət açdığımız insan tanınmış jurnalist, istedadlı yazıçı və şair, gözəl insan, səmimi, etibarlı, sədaqətli dost və yoldaş Böyükxan Bağırlıdır.

B.Bağırlının uşaqlıq illəri anasının səhər tezdən əl daşında, yəni kirkirədə buğda üyütdüyü, tez çaparaq camışları sağdığı, balaca manqal üstə süd bişirdiyi, çay qaynatdığı, sac üstündə fətir yaydığı, kətmənini götürüb

pambıq becərməyə getdiyi anlar hələ də onun gözlərinin önündədir. Müharibədən sonrakı dövr - xalq təsərrüfatının bərpası illəriydi. O zaman kimin cürəti vardı ki, kolxoz işindən yayınsın. Adamın atasını yandırardılar. Səhərin gözü açılmamış kəndin "Qozdəstə" deyilən rəhbər işçiləri, raykomun təhkimçiləri Şümür kimi həyət-bacaya doluşub pambıqçı qız-gəlinləri qışqıra-qışqıra işə çağırırdılar. Bəzən bu nanəciblər işi, pambığı bəhanə edərək, mərd, gözüaçıq insanları sındırmaq üçün onları qırmancın altına salır, əl quzuları olan imansız-vicdansız milis sahə müvəkkillərini bu təhqir olunmuş insanların üstünə qısqırdır, şərləyib tutdururdular. Edilən haqsızlığa qarşı orda-burda danışan adamları çox sadə üsulla - gecələr həyətlərinə sünbül dərzləri atmaqla susdururdular. Heç kim bu nanəciblərin qorxusundan əl tərpədə bilmirdi. Çünki arxalarında Stalin, Mir Cəfər Bağırov dururdu. Bu nanəciblərin qudurğanlığı o həddə çıxmışdı ki, onlar müharibədən geri qayıtmamış əsgərlərin ailələrinə sataşır, çəkinmədən şərəfsiz işlərlə məşğul olurdular. Ağır güzaran keçirən kolxozçu ailələri gecələr də rahatlıq tapa bilmirdilər. Kolxozun pambıq planı dolmadığına görə qış aylarında, yerə qar düşdüyü vaxtlarda gündüz pambıq tarlalarında yığdıqları açılmamış qozaları gətirib isti evlərdə həsir üstə sərir, hərarət nəticəsində açılmamış qozaların cüri pambığını əlçimləyib sarı, hanayi kisələrin içinə atırdılar. Bunu bacarmayanların, isti od-ocağı

olmayanların yorğan-döşəklərinin içindəki pambığı çəkib aparırdılar. Bütün bunlar böyüməkdə olan uşaqların gözləri önündə baş verirdi və uşaqların hər birinin qəlbində kəndin “Qozdəstə” deyilən əzvay ünsürlərinə qarşı nifrət duyğuları doğururdu. Kənddə at oynadan rəhbər işçilərin mənəm-mənəmliyinin kökü, heç şübhəsiz bədnam Stalin-Bağırov epoxası ilə bağlanırdı. O adamlar özlərini Stalinə bənzətmək üçün yaxalıqsız “Stalinka” deyilən kitel geyinir, onun üstündən də bellərinə iri beşulduz toqqalı qayış vurardılar… Stalin öləndən sonra hər şey dəyişdi. Növbəti partiya qurultayından sonra şəxsiyyətə pərəstiş dövrünün “mənəm-mənəm” deyən əzazillərin bir çoxu xalqın iradəsilə hörmətsizcəsinə atdan salındılar. Əlbətdə, onların içərisində yaxşılar da vardı. Atı qaçarkən əyilib yetim-yesirə, fağır-füğaraya, imkansıza əl yetirən də vardı. Belələrini xalq unutmur, ruhlarına salavat çevirirlər…

Onun məktəbə getdiyi və ilk zəng yaxşı yaddındadır. O özüylə məktəbə bibisi oğlu Qaraxanın “Aşıqlar” kitabını da gətirmişdi. Zəng içəri vurulanda hamı sinifdə oturub səbrsizliklə, böyük bir həyacanla müəllimlərini gözləyirdilər. Elə bu vaxt “Qalxın!” deyildi. Ortaboylu, üz-gözündən nur tökülən, şux qamətli bir kişi içəri daxil olub yazı lövhəsinin yanında dayandı, əlini seyrəlmiş saçında gəzdirib mehriban baxışlarla sinfi süzdü, “salam uşaqlar; -dedi - xoş gəlmişsiniz!”

Böyükxan qabaq sırada əyləşmişdi. Yanında outran da məktəbin direktorunun - İzzət müəllimin kiçik oğlu Yasəf idi. O, kitabı Böyükxandan alıb vərəqləyəndə, bu, Lətif müəllimin diqqətini cəlb etdi və o da gəlib qara meşin cildli "Aşıqlar" kitabını maraqla o üz-bu üzə çevirdi. Yasəf dedi ki, müəllim, bu oğlan bu kitabı oxuya bilir. Lətif müəllim diqqətlə balaca Böyükxanı süzüb kitabı vərəqlədi. Şəhadət barmağını orta səhifələrinin birinin üstünə qoyub:

- Buranı oxu görüm hələ, - dedi.
- "Novruz və Qəndaf" - Böyükxan dedi.
- Doğrudur, afərin. - Lətif müəllim mehribancasına balaca Böyükxanın başını sığalladı və barmağını həmin nağılın son səhifələrindən birinin üstündə saxlayıb onu "imtahandan" keçirtdi.
- Mənim balam, - dedi, - bu şeiri oxuya bilərsənmi?
- Oxuyaram, - Böyükxan dedi.
- Oxu!

Balaca Böyükxan həyəcanlandı, səsi əsirdi. Ancaq buna baxmayaraq o, müəllimin göstərdiyi yeri oxumağa başladı:

... ***Evliyalar, əmbiyalar, ərənlər,***
***Hanı məni doğru yola varanlar?!***
***Qərq oldu dəryada neçə min canlar,***
***Kərəm eylə, qoyma məni dəryada...***

- Bəsdir, afərin!

Birinci sinfə yenicə qədəm qoyan çəlimsiz, utancaq bir uşağın sərbəst kitab oxuması pedaqoji sahədə zəngin təcrübəsi olan Lətif müəllimi heyrətləndirmişdi. Məktəb üzü görməyən, "Əlifba" bilməyən, müəllimdən dərs almayan bir uşaq necə kitab oxuya bilir, özü də rahat, qiraətlə?!

Tənəffüs zamanı Lətif müəllim Böyükxanın qolundan tutub müəllimlər otağına apardı. İçəridə bir dəstə müəllim görəndə balaca Böyükxan əvvəlcə qorxdu. Xüsusən o, rəhmətlik Hökumə müəllimi görəndə dizləri əsdi. Çünki uşaqlardan eşitmişdi ki, o adamdöyəndi: Ayrı bir narahatçılığı da vardı: Qorxurdu ki, kitabı onun əlindən alarlar. Onda Qaraxan bibioğluna nə cavab verəcəkdi?! Böyükxan məktəbə gələndə kitabı evdən gizli götürmüşdü. Elə bilirdi ki, məktəbə əliboş getmək olmaz, gərək, nə olur, olsun-özünlə bir kitab götürməlisən. Lətif müəllim həmin kitabdan bir neçə mətni oradaca Böyükxana oxutdurdu. Hamı balaca Böyükxana, "afərin, sağ ol, əhsən" dedi. Hökumə müəllimə isə irəli gəlib Böyükxanın başını sığalladı. Kimin oğlu olduğunu soruşdu. Böyükxan da atasının adını söylədi. O, üzünü müəllim yoldaşlarına tutub: "Bu uşaq bizlərdəndi ki!" - dedi. Sonradan Böyükxan "...bizlərdəndi..." sözünün mənasını anasından öyrəndi. Hökumə müəllimənin həyat yoldaşı Fərrux Böyükxanın atasıgillə əmiuşağıymış.

Müəllimlərdən biri Böyükxana təzə bir kitab verib dedi:

- Hələ bir bunu da oxu görək.

Böyükxan gözlərini döyüb qaldı. Həmin kitabı oxuya bilmədi. Bu kitab birinci sinif şagirdləri üçün "Əlifba" kitabı idi. Uşağın karıxdığını və çox ehtiyatla Hökumə müəllimə baxdığını görən məktəb direktoru İzzət müəllim yaxınlaşıb əlini Böyükxanın başına çəkdi. O, utandığından başını aşağı dikdi və gözü sürtülmüş ayaqqabısının sağ tayının yırıq-yırtığında ilişib qaldı. İzzət müəllim balaca Böyükxandan soruşdu:

- "Əlifba" kitabın, dəftər-qələmin var?
- Xeyr,- dedi, - hələ almamışam.

İzzət müəllim həmin "Əlifba" kitabını Böyükxana bağışladı, hələ üstəlik stolun siyirməsindən bir rəngli karandaş qutusu və beş ədəd dəftər çıxarıb verdi, yenidən onu başını sığalladı. Üzünü müəllim həmkarlarına tutub:

- Bu uşağın yaxşı bazası, bünövrəsi var, - dedi, - Əlifbaya tez alışacaq.

Təəssüf ki, həmin il Böyükxan cəmi 3-4 ay məktəbə gedə bildi. Sonra möhkəm xəstələndi. O, fiziki cəhətdən çox zəif olduğundan, tez-tez xəstələndiyindən həmin dərs ilində oxumağına imkan vermədi. Növbəti dərs ilində, 1954-cü ilin sentyabrında Böyükxan yenidən birinci sinifdə oxumalı oldu. Birinci sinifdə artıq Lətif müəllim ona dərs demədi, çünki o getmişdi. Onu lənkəranlı Şükufə müəllimə əvəz edirdi.

Böyükxana Əlifba kitabı bağışlayan İzzət müəllim də direktor vəzifəsindən çıxıb ayrı bir kənddə işləməyə getmişdi. Onu məktəb direktoru kimi Seyidağa müəllim əvəz edirdi.

Məktəb illəri sürətlə gəlib keçirdi. Məktəbi bitirdikləri gün uşaqların sevimli ədəbiyyat müəllimi Cəbrayıl Allahverdiyev hardansa bir fotoqraf tapıb gətirdi. Bu, 1961-ci ilin may ayının son günləri idi. Fotoqraf əmək müəllimi Dilavər Adışovgilin həyətində buraxılış sinfi olan yeddinci sinif şagirdlərinin şəklini çəkdi. Həmin nadir fotoda sinfin yalnız oğlanları təsvir olunmuşdu.

Həmin ilin isti yay günlərinin birində təhsillə bağlı Böyükxan sinif yoldaşları Sucəddin Əsgərov və Qubad Əliyevdən şad xəbər aldı. Onlar Böyükxana dedilər ki, gözün aydın, məktəbimiz səkkizillik oldu. Payızda öz məktəbimizdə oxuyacağıq. Sonrasına Allah Kərimdir.

Beləliklə, onlar 1961-1962-ci tədris ilində səkkizilliyi də Alar kəndində başa vurdular. Yenə də üzüntülü anlar yaşadı uşaqlar. Buraxılış imtahanları verdilər. Səkkiz il onların hər cür əziyyətlərini çəkən Xeyrulla Bayramov, Təzəxan Rəsulov, Xosrov Rəcəbov, Cəbrayıl Allahverdiyev, Gülüsüm Abışova, Hökumə Əzimova, Adilə Əliyeva, Xanverdi Məmmədov, Ağarəşid İbayev, Məmmədağa Bəhrəmov kimi sevimli müəllimlərindən ayrılmaq uşaqlar üçün ağır idi. Onların hamısı kövrəlmişdi...

1962-ci ilin payızında doqquzuncu sinfi oxumaq üçün Böyükxan sənədlərini Cəlilabad şəhər Nizami adına bir nömrəli orta məktəbin direktoru rəhmətlik Tərlan Əhmədova təqdim etdi. Həmin vaxt Böyükxanın əmisi oğlu Xəzayir rayon Məhəlli İstehsalat İdarəsində sürücü işləyirdi. Rayonun rəhbər işçiləri onu yaxşı tanıyırdılar. Xəzayir Böyükxanı Tərlan müəllimə tapşırmışdı. Odur ki, Tərlan müəllim dərhal Böyükxanın ərizəsinə qol çəkdi və ona qalmaq üçün yataqxanada yer verdi. Böyükxan çox sevinirdi. Onun sevinməyinin digər səbəbi də məktəb yoldaşlarından Sucəddin Əsgərovun, Sabir Əsgərovun, Adil Rzayevin, Səyyarə və Arif Baxışovların da Nizami adına məktəbə gəlmələri idi.

Payızda dərslər başladı. Tərlan müəllim rayonun ayrı-ayrı kəndlərindən gələn uşaqları bir yerə toplayıb “kəndçi qruppası” yaratmışdı. Böyükxan sinifdə arxa cərgədə, pəncərənin yanında Sucəddinlə bir skamyada əyləşirdi. Dərslər başlayandan bir həftə sonra şagirdləri pambıq yığmağa apardılar. Pambıq yığımı oxuyan uşaqların ürəyindən deyildi. Çünki dərslərdə istər-istəməz geriləmə olurdu. Yağışlı havalarda onlar dərslərini davam etdirirdilər. Keçirilən dərslər Böyükxanı təmin etmirdi. O, müəllimlərindən kitablardan əlavə, daha çox şey öyrənmək istəyirdi. Böyükxan humanitar fənlərə daha çox üstünlük verirdi. O, axşamlar Cəbrayıl müəllimin yanına gedib ondan ərəb qrafikasını öyrənirdi. Ədəbiyyat və

Azərbaycan dili fənni üzrə hansı əlavə kitabları oxumağı barədə Cəbrayıl müəllimdən məsləhət alırdı. Cəbrayıl müəllim Böyükxanın Ədəbiyyata bu qədər maraq göstərdiyini biləndən sonra ona öz kitabxanasından professor Cəfər Xəndanın "Ədəbiyyat nəzəriyyəsi", "Azərbaycan ədəbiyyatı tarixi"nin hər üç cildini, professor Muxtar Hüseynzadənin, professor Məmmədağa Şirəliyevin, eləcə də dilçi alimlərdən Səlim Cəfərovun, Ə.Dəmirçizadənin, Ağamusa Axundovun, Yusif Seyidovun, ədəbiyyatşünaslardan Həmid Araslının, Mirzağa Quluzadənin, Mir Cəlal Paşayevin, Əli Sultanlının, Cəfər Cəfərovun və başqalarının kitablarını ona verdi. Sonra Böyükxan şad xəbər eşitdi. Yaşadığı Alar kəndində səkkizillik məktəbin bazasında kəndli gənclər axşam (orta) məktəbi açıldı. Bu xəbəri eşidən kimi Böyükxan sənədlərini oxuduğu Nizami adına orta məktəbdən alıb öz doğma kəndində yeni açılan axşam məktəbinə verdi.

O, gündüzlər işləmək üçün 1963-cü ildə Alar kəndindəki Əzizbəyov kolxozuna üzv yazıldı. O zaman kolxoz sədri, gənc, ədəbiyyatsevər, maarifə, mədəniyyətə, quruculuq-abadlıq işlərinə yaxından diqqət yetirən, qayğı göstərən, iqtisad elmləri namizədi Mehman Quliyev idi. O, Böyükxanı pambıq tarlasında bir gənc kolxozçu kimi görəndə, ona yaxınlaşıb əlini sıxdı. Bir rəhbər kimi o, Böyükxana bəzi tövsiyələr verdi. O, 1964-cü ilin payızına qədər kolxozda çalışdı. Kübrə daşınmasında, çiyid

əkinində, bitki ziyanvericilərinə qarşı mübarizə işlərində yaxından iştirak edirdi. O, axşamlar dərsə gedir, proqram üzrə ali məktəbə hazırlaşırdı. Ən əsası o idi ki, o, 17-18 yaşında əmək haqqı alırdı. Zəhmətin nə demək olduğunu artıq anlayırdı.

Böyükxan 1964-cü ilin may ayında yenə də əmisi oğlu Xəzayirin köməkliyi ilə Puşkin rayon (indiki Biləsuvar) Mexaniki Suvarma İdarəsinə işə düzəldi. İdarənin rəisi, müharibə veteranı İmran Məmmədov Böyükxanın ərizəsinin üstünü yazarkən qayğılı baxışlarını ona dikdi:

- Oğlum, sən çox cavansan, - dedi, - işləməyinə bir söz demirəm, sənin barəndə mənə xahiş ediblər. Ancaq sənə hayıfım gəlir, gərək sən oxuyasan, orta təhsil alasan, iş qaçmır, fəhləlik üçün həmişə iş var.
- Oxuyuram, - Böyükxan dedi.

İmran müəllim tutulantəhər oldu, əlindəki qələmi stolun üstünə qoyub diqqətlə Böyükxana baxdı:

- Başa düşmədim, oğlum, oxuyursansa bəs necə işləyəcəksən?
- Axşam məktəbində oxuyuram.
- Hə, belə de. Lap yaxşı. Səni maşinist vəzifəsinə götürürük. Əvvəlcə usta köməkçisi olacaqsan. Sınaq müddətində özünü yaxşı göstərsən, dalısına baxarıq, yaxşı?
- Sağ ol, İmran müəllim.

Böyükxan ayağa durub gedəndə İmran müəllim arxadan onu səslədi:

- Komsomol, - dedi, - valideynlərin durur?
- Bəli. Ancaq qocalıblar. İşə durmaqda məqsədim elə onlara kömək etməkdir.
- Sağ ol, afərin.

Böyükxan Bağırlı 1966-cı ilin iyul ayınadək, yəni Bakı Dövlət Universitetinin filologiya fakültəsinin jurnalistika şöbəsinə (əyani) qəbul olunanadək həmin idarədə işlədi. İdarənin "İrriqator" adlı divar qəzeti çıxırdı. O, ilk partiya və həmkarlar ittifaqı təşkilatının orqanı idi. İdarənin mestkomu Əlisəmid Böyükxanı bir fəal komsomolçu kimi həmin qəzetin redaksiya heyətinə cəlb etdi. Böyükxan ara-sıra bu qəzetdə satirik şeirlərlə, görülən işlər barədə kiçik məqalələrlə çıxış edirdi. Onun qəzetdə verdiyi əmək intizamı ilə əlaqədar bir tənqidi məqaləsi idarədə səs-küyə səbəb oldu. Böyükxanın ustası bundan bərk narahat oldu. O, Böyükxana deyirdi: "Cavan oğlansan, özünü işə salarsan. Sənin intizamla nə işin var, idarənin müdiri özü bilər..."

Bir gün səhər Böyükxan işə gələndə dedilər ki, rəisin qəbulunda olmalıdır. Rəis onu görmək istəyir. Bunu eşidən usta başını yırğaladı: "Axı sənə demişdim..." - dedi.

Həmin gün işi çox olduğuna görə gec də olsa, İmran müəllim Böyükxanı qəbul etdi. Böyükxan elə zənn edirdi ki, müdir onu ya işdən çıxaracaq, ya da nəsə cəza

verəcək. Çünki onun qulağına bəzi sözlər çatmışdı. Qəzetdə tənqid etdiyi adam müdirin qohumu imiş. İmran müəllim katibə qızın təzəcə gətirdiyi çaydan bir qurtum içib dedi:

- Komsomol, "İrriqator"dakı tənqidi yazını oxudum. Xoşuma gəldi. Əmək intizamı bizim işimizin, yəni dövlətin bizə tapşırdığı işin əsasını təşkil edir. İşə səhlənkar yanaşan, intizamsızlıq edən adam gözümün düşmənidir. Mexaniki yığma sexi intizamsız adamlar üzündən geridə qalır. Düz tənqid eləmisən. Qorxma. Bunu mən deyirəm, tənqid etməkdən çəkinmə. Partkoma tapşırmışam. Sənin məqaləni müzakirə edib tədbir görsünlər. Nəticəsini, ilk partiya təşkilatının qərarını "İrriqator"un növbəti nömrəsində dərc etsinlər. "İrriqator" divar qəzeti müəssisəmizin güzgüsü olmalıdır.

Böyükxan müdirə minnətdarlığını bildirib ayağa qalxmaq istəyəndə:

- Otur - İmran müəllim dedi - sənin barəndə bizim rayon "Məhsul" qəzetinin redaktoru, raykomun üzvü Həmdulla Əzizova danışmışam. Demişəm ki, qəzetində sənin yazılarına yer ayırsın. Yaxşı olar ki, bu materiallar bizim qabaqcıl meliorator və irriqatorlarımız barədə olsun. Elə indicə dur get Həmdulla müəllimin yanına, de ki, səni İmran müəllim göndərib.

Həmin gün Böyükxan Həmdulla müəllimin qəbulunda oldu. O, Böyükxana bir ata kimi qayğı göstərdi, yazılarına

qəzetində yer verdi, onu yazıb-yaratmağa ruhlandırdı. Həmdulla müəllimin verdiyi xasiyyətnamə Böyükxana Bakı Dövlət Universitetinə qəbulla əlaqədar keçirilən konkursda böyük kömək oldu. Aradan bir on il keçəndən sonra bu unudulmaz insanın verdiyi zəmanətlə Böyükxan SSRİ Jurnalistlər İttifaqına qəbul oldu. Həmin idarədə işləməyi Böyükxanın gözünü açmış, həyata baxışını dəyişmiş, insanları daha yaxından tanımaq fürsəti vermişdi. Sonralar onun "Ədəbiyyat və İncəsənət" qəzetində dərc etdirdiyi "Çöllərdə səhər" (1972, may), "Nar kolları" (1972, oktyabr), "Qu nəğməsi" (1973, iyun) adlı hekayələri Mexaniki Suvarma İdarəsində işlədiyi dövrdəki müşahidələri əsasında yazmışdır. Bu hekayələrdə təsvir olunan insanlar həyatda müəyyən bir mövqe tutmaq istəyən açıq ürəkli, saf qəlbli gənc melioratorlardır.

Böyükxan Bağırlı 1966-cı ilin avqust ayında BDU-nun filologiya fakültəsinin jurnalistika şöbəsinə qəbul oldu. O, universitetdə oxuduğu dövrdə Azərbaycanın tanınmış şair və yazıçılarından dərs almışdı. Böyükxan tələbəlik illərində Nurəddin Babayev, Nəsir İmanquliyev, Şirməmməd Hüseynov, Nüsrət Bağırov, Famil Mehdi, Əliş Nəbi, Seyfulla Əliyev, Seyran Əbdürrəhmanov, Tofiq Rüstəmov, Qulu Xəlilov kimi mötəbər qələm sahibi olan müəllimlərlə tanış oldu. Bu görkəmli şəxsiyyətlər həm jurnalistika, həm də elm sahələrində öz sözlərini demiş insanlardı. Bu sənət müəllimləri ilə yanaşı, tanınmış mətnşünas alim Əli

Fəhminin, incəsənət tarixindən, etika-estetikadan mühazirə oxuyan, xalq artisti, professor Mehdi Məmmədovun, Nurəddin Həbibovun, professor Aslan Aslanovun, görkəmli dilçi alimlərdən Ağamusa Axundovun, Ziynət Əlizadənin, Aydın Əbilovun, ədəbiyyatşünas Firuz Sadıqzadənin, müharibə veteranı Fəridə Vəzirovanın, XIX əsr Azərbaycan tarixi mütəxəssisi Raifə Həsənovanın, folklorşünas alim Vaqif Vəliyevin dərsləri də olduqca maraqlı keçirdi. Fasilə zamanı tələbələr dəhlizlərdə qızğın elmi mübahisələr edirdilər. Bu mübahisələr auditoriyada müəllimlərin iştirakı ilə davam etdirilirdi. Jurnalistika şöbəsinin uşaqları bu məsələlərdə filologiya fakültəsinin tələbələrindən fərqlənirdilər. Kafedranın rəhbərliyi də tələbə-jurnalistlərin mübariz ruhda yetişməsinə dəstək verirdi.

Tələbə-jurnalistlər görkəmli yazıçı, professor Mir Cəlal Paşayevin dərs saatlarını böyük səbrsizliklə gözləyirdilər. Onlar müəllimlərinin dərsini böyük bayram ovqatıyla qarşılayırdılar. Mir Cəlal müəllimin dərsləri onun rəhbərlik etdiyi kafedrada keçirilərdi. Bu kafedra əsil yaradıcılıq laboratoriyasıydı. Tələbələr görkəmli yazıçının mühazirələrindən doymaq bilmirdilər. Çünki o, tələbələrinə S.Vurğunla, M.Müşfiqlə, H.Cavidlə, Ü.Hacıbəyovla, C.Məmmədquluzadəylə, M.S.Ordubadiylə, Cəfər Cabbarlıyla və digər böyük sənətkarlarla bağlı şirin-şirin xatirələr danışırdı. Bu tələbələrə çox maraqlı gəlirdi. Mir

Cəlal müəllim eyni zamanda xeyirxah, mehriban, ürəyiyumuşaq bir insandı. O, vaxt tapıb tələbə jurnalistlərin ədəbiyyatda ilk kövrək addımlarını atan gənclərin ədəbi yaradıcılığına diqqət yetirər, bəyəndiyi yazıların çapına yaxından kömək edərdi.

Gənc ədəbi qüvvələrin yetişməsində fakültədə fəaliyyət göstərən ədəbi dərnəklərin də xidməti böyükdü. Bu dərnəklərin birinə yazıçı, disident Gülhüseyn Hüseynoğlu, digərinə isə şair Söhrab Tahir başçılıq edirdilər. Böyükxan Söhrab Tahirin rəhbərlik etdiyi şeir dərnəyinə üzv yazıldı. Qrupun digər üzvləri Nüsrət Kəsəmənli, Malik Fərrux, Nəsir Əhmədli, Sədayə Cəmilova, Möhübbəddin Səməd, Eldar Baxış, Rüzgar Qurbanova, Ağasən Bədəlzadə, Rizvan Qafanlı və başqalarıydılar. Dərnəyin rəhbəri gənc şairlərin şeirlərini sonadək təmkinlə dinlədikdən sonra müzakirələrə başlayırdı. O, gənclərin nöqsanlarını göstərməklə yanaşı, onlara dəyərli məsləhətlər verirdi. Dərnəkdə bəyənilən şeirləri çap olunmaq üçün Universitetdə çıxan "Lenin tərbiyəsi uğrunda" qəzetinin redaktoru Ağamusa Zeynalova təqdim edirdi.

Növbəti məşğələnin birində Böyükxan "Qonşular" adlı şeir oxudu. Müzakirə zamanı şeir bəyənildi. Təxminən bir aydan sonra dərslərin birində Nüsrət Kəsəmənli Böyükxana dedi ki, get "Ulduz" jurnalına, məsul katib Məmməd İbrahim (Məmməd Araz) səni soruşur. Deyəsən

şeirini vermək istəyir. Jurnala şəklini təqdim etməlisən. Dərsdən sonra Böyükxan tez yataqxanaya qaçdı və çamadanını açıb şəkillərindən birini seçdi. Tez özünü "Ulduz" jurnalına yetirdi. Salam verib özünü təqdim etdi. Bu zaman Məmməd müəllim jurnalın əməkdaşı Fərman Kərimzadəylə şahmat oynayırdı. O, götürdüyü fiquru əlində saxlayıb Böyükxanın üzünə baxdı. Bu isti baxışlarda səmimiyyət hiss olunurdu. Görünür, Söhrab müəllimin təqdimatındakı xoş sözlər yadında qalmışdı. - Böyükxan, şeirin yaxşıdı, yaz...

Əlindəki "fil" fiqurunu sər-səhmanla xanaya qoydu, Fərman müəllim əlini lopa bığında gəzdirib dodaqlarını büzdü, nə isə, vəziyyət gərgindi: Mənim hələ getmədiyimi hiss edən Məmməd müəllim bu dəfə üzümə baxmadan:

- Şəklini qoy stolun üstünə - dedi, - gedə bilərsən...

Böyükxanın ürəyində Məmməd müəllimə deyəcəyi sözü vardı. Şeirinin nə vaxt çap olunacağını soruşacaqdı. Amma gördü ki, yeri, məqamı deyil. İki böyük sənətkar arasında taxta üzərində şiddətli döyüş gedirdi...

B.Bağırlının həmin şeiri "Ulduz" jurnalının üçüncü sayında (1978-ci il) çap olundu. Şeirin çap olunduğuna görə o, Məmməd müəllimə minnətdarlığını bildirmək üçün gedəndə bu dəfə onu yazıçı Yusif Səmədoğlu ilə şahmat oynayan gördü. Yusif müəllim əlləriylə üzünü qapayıb dərin düşüncələrə dalmışdı, Məmməd müəllim isə gözünü fiqurlardan ayırmadan ayağa durub var-gəl eləyirdi.

Böyükxan kənardan bir az onlara tamaşa edib Məmməd müəllimə minnətdarlığını bildirmədən geri qayıtdı. O, “qrosmeystirlərə” mane olmaq istəmədi. Çünki Məmməd müəllim onun təşəkkürünü qəbul etmək durumda deyildi...

***

Orta məktəb illəri kimi, tələbəlik illəri də çox sürətlə ötüb keçdi: 1971-ci ilin iyul ayında Böyükxangilin qrupunun üzvlərini Azərbaycan KP MK-nın təbliğat-təşviqat şöbəsinə çağırıb təyinat verdilər. Uşaqların əksəriyyəti Azteleradio-komitetə göndərildi. Böyükxan da həmin ilin oktyabr ayında Respublika radiosunun Yerli Verilişlər baş redaksiyasında kiçik radaktor kimi əmək fəaliyyətinə başladı. Azteleradiokomitetin radio üzrə sədr müavini yazıçı Cəmil Əlibəyovun qayğısını Böyükxan hər zaman öz üzərində hiss edirdi. C.Əlibəyov “Azərbaycan gəncləri” qəzetinin redaktoru olarkən 1978-ci ildə Böyükxan onun başçılıq etdiyi redaksiyada bir aylıq istehsalat təcrübəsi keçmiş, yazılarla çıxış etmişdi. Görünür, bu, Cəmil müəllimin yadında qalmışdı.

Radioda jurnalistlik fəaliyyətini davam etdirməklə yanaşı, Böyükxan bədii yaradıcılıqla da məşğul olmağa başladı. Belə ki, bir gün o, yazılarından birini götürüb “Ədəbiyyat və incəsənət” qəzeti redaksiyasına getdi. Yazını nəşr şöbəsinin müdiri Sabir Məmmədova verdi. O, Böyükxana dedi ki, arxayın ol, şöbənin müdiri, yazıçı Sabir

Əhmədov Cəbrayıla gedib, gələn kimi hekayəni ona təqdim edəcəyəm. Aradan bir- iki həftə keçmişdi. Tez-tez yolu Radio-televiziya Verilişləri Komitəsinə düşən şair Sabir Rüstəmxanlı "Ədəbiyyat qəzeti"nin şöbə müdiri işləyirdi. 1972-ci ilin may günlərinin birində Radiotelekomitetin həyətində Böyükxan Sabirlə rastlaşdı. Sabir tələbə yoldaşına dedi ki, hekayən Sabir Əhmədovun xoşuna gəlib, vaxtın olanda onunla görüşərsən.

B.Bağırlı vaxt tapıb Sabir Əhmədovla görüşə gedəndə onun "Çöllərdə səhər" adlı hekayəsi artıq "Ədəbiyyat və incəsənət" qəzetində gözəl bir illüstrasiya ilə birlikdə çap olunmuşdu. Böyükxan o zaman Zevin küçəsində yerləşən "Ədəbiyyat qəzeti" redaksiyasına gedib yazıçı Sabir Əhmədovla görüşdü və ona minnətdarlığını bildirdi. Sabir müəllim Böyükxanın təşəkkürünü qəbul edib: "Təzə yazı gətir" - dedi və öz işiylə məşğul olmağa başladı...

Böyükxanın **"Çöllərdə səhər"** hekayəsinin taleyi uğurlu oldu. Həmin hekayə Cəmil Əlibəyovun da xoşuna gəlmişdi. Radionun həyətində iməcilik keçirilən gün Cəmil müəllim Böyükxanı yanına çağırıb dedi: "O hekayəni sən yazmısan?" Böyükxan cavabında: "Bəli", - dedi. Cəmil müəllim dedi ki, təbrik edirəm, apar onu ver ədəbi-dram verilişləri baş redaksiyasına, Mailə Muradxanlıya və de ki, Cəmil müəllim tapşırdı ki, qoy hekayə radioda səslənsin.

Bir neçə gündən sonra həmin hekayə xalq artisti, diktor Sabir Ələsgərovun ifasında radionun birinci proqramında səsləndirildi.

Sonralar xalq yazıçısı Sabir Əhmədli ardıcıl olaraq Böyükxanın bir neçə hekayəsini "Ədəbiyyat və incəsənət" qəzetində çap etdi. Və o hekayələr 1985-ci ildə "Yazıçı" nəşriyyatında **"Aynalı gölün payızı"** səhlövhəsi altında ayrıca kitabça halında çap edilib oxuculara çatdırıldı.

B.Bağırlının radioda fəaliyyəti uzun sürmədi. Bir gün Cəlilabad rayon "Taxılçı" qəzetinin redaktoru, vaxtilə televiziyanın "Gənclik" baş redaksiyasında şöbə müdiri işləmiş, respublikanın tanınmış jurnalisti, orta məktəbi qızıl medalla, BDU-nu fərqlənmə diplomu ilə bitirmiş Əlövsət Bəşirov radiotelekomitetin həyətində Böyükxanla rastlaşır və gülərək deyir: "Onsuz da səni axtarıb tapacaqdım, qəzetimizdə kənd təsərrüfatı şöbəsi müdirinin yeri boşdur, onu səninçün saxlamışam, gəl işlə, cavan oğlansan, partiyaya keçərsən, qəzetdə tez inkişaf edərsən, maaş da yaxşıdır, valideynlərin də orada yaşayırlar..."

Beləliklə, 1973-cü ilin iyul ayında Böyükxan radio ilə xudafizləşməli oldi. Cəmil Əlibəyov onu işdən çıxarmaq istəmirdi: Ərizəsini geri qaytardı, dedi get işinlə məşğul ol.

Böyükxan işdən çıxmaq üçün xahişə müharibə veteranı, qocaman yazıçı Əbil Yusifovun yanına getdi. Yazıçıya dedi ki, işdən çıxmaq üçün Cəmil müəllimin razılığını alsın. Əbil müəllim Böyükxanın xahişini Cəmil

müəllimə çatdıranda, o, “Qoy o oğlan yanıma gəlsin” deyib. Sonra Böyükxan Cəmil müəllimin yanına getdi. Cəmil müəllim ona oturmaq üçün yer göstərib dedi:

- Böyükxan, sizin redaksiyadan qulağıma sözlər gəlir. Sizin baş redaktor bir az o təhər... belə. Köhnə adamlardandır. Orada səni incidib eləmirlər ki? Şöbə müdiriniz Zaman Qarayev fağır, başıaşağı adamdı. Bəlkə Əbil...

- Xeyir, - dedi, - Cəmil müəllim, Əbil müəllimdən qətiyyən narazılığım yoxdu. Hətta aramızda dostluq münasibəti yaranıb. Onun evində bir neçə dəfə olmuşam. Yoldaşı gözəl bir anadır. Qarabağlı qızıdır. Yox, yox, münasibətimiz yaxşıdır.

Söhbətin bu yerində Cəmil müəllim Böyükxana Qarabağ şivəsiylə:

- Heylə?! - dedi. - Mən nəsə ayrı bir şey düşünürdüm. Təki belə olsun.

Böyükxan Cəmil müəllimin yaratdığı bu isti ab-havadan istifadə edərək, işdən getməyinin səbəblərini yerli-yataqlı ona çatdırdı. Cəmil müəllim Böyükxanı diqqətlə dinləyib dedi:

- Əgər fikrini dəyişsən, ya da müəyyən vaxtdan sonra nə vaxt istəsən qayıdıb gələ bilərsən, sən bizim kadrımızsan.

Cəmil müəllimin bu sözləri Böyükxanı kövrəltdi. Böyükxan onu yaxşı bir insan kimi tanıyırdı, daha Cəmil müəllimin bu böyüklükdə ürək sahibi olduğunu bilmirdi...

Böyükxan xudahafizləşib gedəndə Cəmil müəllim soruşdu:

- Səni kim əvəz edəcək, yerinə adam hazırlamısanmı?

Cəmil müəllimin bu sualından Böyükxan tutuldu, çaşıb qaldı. Düşündü ki, bu böyüklükdə insan hələ ağzının sarısı getməmiş, qələmi bərkiməmiş cavan bir oğlanla məsləhətləşir. Bu harada görünüb belə?!

Amma Böyükxan tez özünü ələ alıb Cəmil müəllimin sualına rəğmən gözünün qabağına jurnalistika fakültəsində oxuyan, redaksiyayla sıx əlaqə saxlayan, radio jurnalistikasına müəyyən qədər bələd olan, bir neçə səsli verlişin müəllifi Zərxanım Əhmədli gəldi. Və Böyükxan onun yerinə olacaq namizəd Zərxanımın adını çəkdi.

Cəmil müəllim əlini stolun üstünə qoyub bircə kəlmə ilə “Yaxşı” dedi.

Bu söhbət iyul ayının ilk günlərinə təsadüf edirdi. Həmin gün günortaya yaxın Yerli Verilişlər baş redaksiyasına gələn Böyükxan dostlarıyla - məşhur Fransız Müqavimət Hərəkatının qəhrəmanlarından biri olan şəkili Əhmədiyyə Cəbrayılov haqqında sənədli “Xarqo” romanının müəllifi, yazıçı Zaman Qarayevlə, şair Şəmşad Rzayla, yazıçı Mehdi Hüseynin qardaşı qızı, tələbə yoldaşı Gülbəniz Hüseynovla, uzun illər Ağdam şəhərində rəhbər vəzifələrdə işləmiş, haqqında əfsanələr gəzən köhnə kommunist Məşədi Abbas Rzayevin qızı radiojurnalist

Rəna Rzayeva və baş redaktor Əbil Yusifovla xudahafizləşdi, halallaşdı.

Böyükxan birinci mərtəbəyə enəndə musiqi sədasının ağuşuna düşdü. Radionun günorta konsertində xalq artisti Habil Əliyevin lentləri səsləndirilirdi. O, istər-istəməz ayaq saxladı. Habil kamanıyla yeri-göyü yandırıb yaxırdı. Bu dəfə o, Səid Rüstəmovun "Həkim qız" mahnısını dilləndirirdi. İlahi, o, nə oyun çıxarırdı, kaman necə ağlayırdı...

**Gülər üzlü həkim qız,**
**ey gözləri bənövşə,**
**qapımızdan keçəndə,**
**sarsılıram həmişə...**

"Həkim qız" mahnısını Böyükxan hələ uşaqkən radioda Gülağa Məmmədovun ifasında çox dinləmişdi. Bu şeirin müəllifi nəğməkar şair İslam Səfərli idi. Böyükxan bu mahnının təsirindən heç cür çıxa bilmirdi. O, həmişə öz-özünə düşünürdü ki, görəsən o, həkim qız kimdir belə?..

İllər keçdi. Böyükxan bir gün eşitdi ki, şair İslam Səfərli Cəlilabada gəlib, raykomun "Qonaq evi"ndə dincəlir. O, nəğməkar şairə baş çəkməyi qərara alır. "Qonaq evi"ndə o, keçmiş iş yoldaşı radiojurnalist Hidayət Səfərliylə qaşılaşır. Məlum olur ki, o, şairlə birlikdə gəlib. Böyükxan Hidayətə deyir ki, uzun illərdir məni narahat edən bir sual var, onu İslam müəllimə vermək istəyirəm. Hidayət deyir ki, Böyükxan, indi şairin halı yaxşı deyil, xəstəhaldır, onu

çox üzmə.  Nəsə... Böyükxan uzun illərdən bəri onu qəlbən narahat edən “həkim qız”ın kim olduğunu şair İslam Səfərlidən soruşur. Böyükxanın verdiyi sual xəstə şairi xəyalən çox-çox uzaqlara apardı, gözləri yaşla doldu və astadan dedi:

- Bu ayrı bir söhbətdi, oğlum. Mənim durğun gölümə daş atdın, ötən gəncliyimi təlatümə gətirdin...

Bu zaman oğlu İlhamın narazı baxışları Böyükxanın üzünə dikildi, qardaşı Hidayət ehmalca onun qolundan tutub kənara çəkərək dedi: “Böyükxan, bəlkə başqa bir vaxt müsahibə götürəsən? İndi qardaşımın halını görürsən, danışmağa belə taqəti yoxdu. Sən allah incimə. Söhbətini başqa vaxta saxla...”

...Böyükxan mühasibatlıqdan son haqq-hesabını alıb, kadrlardan da əmək kitabçasını götürüb birbaş kirayə qaldığı evə gəldi və yır-yığış etməyə başladı. O, sabah avtobusla rayona yola düşəcəkdi. Avtovağzaldan onu tələbə yoldaşı, unudulmaz dostu telejurnalist, şair Malik Fərrux və şair Məmməd Aslan Cəlilabada yola saldılar.

İlk günlər rayonda Böyükxan üçün sıxıntılı keçdi. O, tələbə və iş yoldaşlarından ayrı düşdüyü üçün çox darıxırdı. Sonralar hər şey məcrasına düşdü, rayon da öz rayonuydu. Cəlilabadda çıxan “Yeni gün” qəzetində onun işləri yaxşı gedirdi. Redaktor Əlövsət Bəşirov verdiyi sözə əməl edərək Böyükxanı şöbə müdiri vəzifəsinə qəbul etdi. Əlövsət müəllim bir neçə ildən sonra Böyükxana partiya

sıralarına keçmək üçün zəmanət verdi. 1978-ci ilin mart ayında Böyükxan redaktor müavini vəzifəsinə irəli çəkildi. Həmin il SSRİ Jurnalistlər İttifaqına qəbul oldu. Böyükxanın dediyinə görə, o, işlədiyi müddətdə Əlövsət müəllimin qayğısını öz üzərində hiss edib. Əlövsət müəllim istedadlı jurnalist olmaqla yanaşı, yüksək təşkilatçılıq qabiliyyəti olan rəhbər işçiydi. O, heç kimə əyilən adam deyildi, sözübütövdü. Gözü, könlü tox adamdı. Atası müharibədə həlak olmuşdu. Anası Ziynət xanımın himayəsində böyümüşdü. Atasızlıq, həyatın sərt üzü, ehtiyac, ağır güzaran onu sındıra bilməmişdi. Əlövsət müəllim nəinki işçilərin redaktoru, idarə müdiri, eyni zamanda qayğıkeş qardaşı və mənəvi ataları idi. O, həyat yoldaşı, təcrübəli qəzetçi Dilarə xanım Vəkilova ilə birlikdə rayonda bir jurnalistika məktəbinin bünövrəsini qoydular, onu tikib ərsəyə çatdırdılar. Böyükxan jurnalistika fakültəsində sadəcə nəzəriyyə məsələlərini öyrənmişdi. Praktiki məsələləri isə sözün əsil mənasında Əlövsət müəllim və Dilarə xanımdan öyrəndi. Xüsusən ədəbi redaktə sahəsində o, Dilarə xanımın zəngin təcrübəsindən çox bəhrələndi. Əlövsət müəllim redaksiyaya çoxlu gənc jurnalist toplamışdı. Aydın Hüseynov, Təyyar Əliyev, Qasid Nağıoğlu, Solmaz Məmmədova, Əlgüşad Mirzəyev, Sabir Məmmədov Əlövsət müəllimin etibar edib işə götürdüyü gənclərdi. O, istedadlı gənclərə həmişə yol

göstərər, onların yaradıcılığını düzgün qiymətləndirər, onları daha yaxşı yazmağa ruhlandırardı.

1980-ci ilin payızında rayon partiya təşkilatının növbəti konfransında Əlövsət Bəşirov rayon partiya komitəsinin ikinci katibi seçildi. Raykomun bürosunun qərarı ilə B.Bağırlı redaktor müavini kimi onu əvəz etdi. Bundan sonra "Yeni gün" qəzeti Böyükxanın imzası ilə çıxmağa başladı. Amma bəzi vəzifəpərəst şəxslər özünü qəzetin redaktoru kimi görmək həvəsilə "day-dayı" ovuna çıxmışdılar. O zaman rayon partiya komitəsinin birinci katibi İbrahim Qurbanov idi. Onun tabeliyində işləmək, sözün əsil mənasında məşəqqətdi. Bu adamın yatdısı yoxuydu, əsil iş adamıydı, qurucu, yaradıcı rəhbər idi. Amma Böyükxan hiss edirdi ki, Qurbanovun ondan xoşu gəlmir. Bir dəfə də Böyükxan onun qəbulunda olarkən o, dedi ki, bilmirəm səni bura kim gətirib, sən hardan gəlmisən?! Böyükxan cavabında dedi: "Yoldaş Qurbanov, mən elə buralıyam. Heç hardan gəlməmişəm. Mən ali təhsilli jurnalistəm. Ali məktəbi başqaları kimi qiyabi deyil, əyani bitirmişəm, beş il oxumuşam. Məni partiya, dövlət buraya gətirib".

Böyükxan sözlərini deyib katibin kabinetindən çıxdı. O, düşündü ki, bu söhbətdən sonra daha katib etimad göstərib onu redaktor vəzifəsinə irəli çəkməz. Amma redaktor məsələsi də çox uzandı. Əli çamadanlı gəlib gedənlərin sayı bitib tükənmirdi. Bunlara baxmayaraq

Böyükxan öz işini möhkəm tuturdu, çalışırdı işində heç bir səhvə, nöqsana yol verməsin. O, qəzetə gedəcək materialları çox diqqətlə yoxlayır, qəzetin oxunaqlığını və keyfiyyətini yüksəltmək üçün var qüvvəsi ilə işləyirdi. Qəzetin kollektivi də redaktorlarına yaxından kömək göstərirdilər və Böyükxanın burada tək olmadığını bəzilərinə sübut edirdilər. Böyükxana kollektivdə hamı hörmət edirdi, çünki redaktor qəzetdə onlar üçün tam demokratik ab-hava yaratmışdı. Bu arada "Yeni gün" qəzeti Mərkəzi Komitənin ideoloji şöbəsinin yanında fəaliyyət göstərən Mətbuat mərkəzinin diplomu və pul mükafatı ilə təltif olundu. Digər bir mükafatı isə qəzetə Azərbaycan Jurnalistlər İttifaqı təqdim etdi. Bütün bunlardan sonra Böyükxanın redaktor olmağına yaşıl işıq yandırıldı. 1981-ci il dekabrın 20-də Mərkəzi Komitənin Heydər Əliyevin sədrliyi ilə keçirilən katibliyin iclasında Böyükxan Bağırlı Cəlilabadda çıxan "Yeni gün" qəzetinə redaktor vəzifəsinə təsdiq olundu. 1989-cu ilin 5 may Mətbuat günündə Böyükxan dövri mətbuatdakı yazılarına görə Azərbaycan Jurnalistlər İttifaqının "Qızıl Qələm" mükafatını aldı.

***

Qəzetçilik bəzən insanın bədii yaradıcılığına mane olur. Amma bu Böyükxanda belə olmayıb, əksinə o, ən yaxşı yazılarını - povest və hekayələrini elə qəzetdə

işləyərkən yazmışdı. O, həmişə yazmaq haqqında düşünüb. Bu düşüncə onu heç vaxt tərk etməyib. O, bacardıqca daha çox mütaliə eləyirdi, elə indinin özündə də kitablardan əl çəkmir, yolu Bakıya düşən kimi, özünü Axundov kitabxanasına verir. Eyni ilə tələbəlik illərində olduğu tək.

O, hələ tələbəlik illərində anlamışdı ki, yazmaq istəyən adam çox oxumalıdır. Yazıçılıq texnologiyasının sirlərinə, bədiiliyin fəndlərinə və imkanlarına, əlinin altındakı kələ-kötür həyat materiallarını cilalayaraq, yoğurub, yonub yontalayaraq səliqə-sahmanla, tam dürüst biçimdə nəsrin divarına hörə bilmək ustalığını söz cadugarları olan xəsis bənnalardan öyrənmədən və yaxud eqoistcəsinə öyrənmək istəmədən necə yazmaq olar fəlsəfəsini başa düşə bilmirdi. Gənclik illərində Böyükxan həmişə düşünürdü ki, kaş Ənvər Məmmədxanlı, İsa Hüseynov, Əli Kərim kimi söz bənnalarının əllərinin altında palçıq-məhlul verən, su daşıyan, kərpic çinləyən olaydı, onların tökdüklərindən barına biləydi. Elə indinin özündə də, Anarın ön sözü ilə böyük ustad Ə.Məmmədxanlının "Babək" romanını "Azərbaycan" jurnalında illər öncə oxuyanda, nəfəsini içinə çəkib, ustadın sözlə necə oturub-durmağına, mahir bir xalça ustası kimi ilməni harada və necə vurmasına, yığcam, xəsis ifadələrlə heyrətamiz təsvirlər cızmasına, forma və üslubu, bədii ifadə vasitələrini, hər bir detalı və ştrixi, çəkilən, qabaran

təhkiyəni, dolanbaclardan keçən süjeti – büsbütün bunların hamısını romanın qayəsinin, - yazıçı fikrinin çözülməsinə səfərbər etməsinə heyran olmuşdu...

***

Ədəbiyyat, sənət deyirlər heyrətdən yaranır. İlahi bir heyrətdən. Böyük söz ustası Məhəmməd Füzuli bica yerə demirdi ki, heyrət ey büt, surətin gördükdə lal eylər məni. Gözəli surət, büt insanı lal eləyir. Belə olmasaydı, “Leyli və Məcnun”, “Əsli və Kərəm”, “Abbas və Gülgəz”, “Novruz və Qəndaf”, “Tahir və Zöhrə” ... aşiqanə dastanları yaranmazdı. Heyrət, məhəbbət insanın çöhrəsindədir. Eşq, məhəbbət, cazibə olmasaydı yer-göy, kürreyi-aləm pərvəriş tapmazdı. Bu mənim yox, klassiklərin sözüdür. Yazıçının, şairin mayası məhəbbətdən yoğrulmasaydı, onlar cəmiyyəti duyğulandıran sözlər yaza bilməzdilər.

Bunları deməkdə sözümün canı var. Bir dəfə mən Böyükxan müəllimdən ilk məhəbbəti barədə soruşdum. Ancaq  mən onun bu suala cavab verməkdən nədənsə çəkindiyini hiss etdim. O, sadəcə dedi: “İlk məhəbbət olub, ancaq reallıqda deyil, ideallaşdırdığım obrazda, yəni xəyalımda, utopiyamda. Amma, nə dəxli var, olub. Əsas odur ki, olub. Mənim sevgim, məhəbbətim ədəbi yaradıcılığım olub. Qızları aldatmaqdan heç xoşum gəlməyib, onlara yazığım gəlib. İstəməmişəm ki, kimsə, nə

vaxtsa məni pis fikirlə xatırlamasın. Bu mənim aldığım ailə tərbiyəmdən, əxlaqımdan irəli gəlirdi. Qızları aldadan tələbə yoldaşlarımı həmişə qınamışam, onlara yaxşı baxmamışam. İnsanların qəlbi ilə oynamaq olmaz. Çünki bu onlara əzab, iztirab verir. Buna görə də indi mən vicdanım qarşısında təmizəm, pakam, rahatam. Bütün yeniyetmələr kimi mən də ilk gəncliyimdə sevmişəm. Amma bu içimdə, qəlbimdə. Bu sevgidən heç kimin xəbəri olmayıb ki, dilə-dişə düşə bilərəm. Sonra isə...”

1960-cı ilin yayı Böyükxanın həyatında özünün dediyi kimi əlamətdar olub. Onun ilk gənclik çağlarının ən yaxşı xatirələri həmin yayla bağlıdır. Kolxozda sürücü işləyən rəhmətlik Məzahim dayısı onu rəhmətlik nənəsi Sarıgüllə birlikdə “QAZ-51” maşınıyla Mahmudçala deyilən qışlağa gətirmişdi. Onlar özləriylə sağmal mal-qaralarını da gətirmişdilər. Böyükxan mal-qaranı otlaqda otaracaq, nənəsi isə sağın-ağaran işləriylə məşğul olacaq, motal tutacaq, kəndə pay-püş göndərəcəkdi. Kolxozun sağmal mal-qarası da elə həmin qışlaqda saxlandığına görə süd maşınını sürən Məzahim dayı demək olar ki, hər gün obaya gəlib Böyükxangili yoxlayırdı, onlara lazım olan şeyləri gətirib verirdi. Böyükxangil uzaq qohumu olan Abicə dayının evində qalırdılar. Onun çox mehriban ailəsi vardı. Xançı adlı oğlu od parçasıydı. O, evli idi. Abicə dayının evi gölün qırağındaydı. Xançının axşamlar göldə

qurduğu tora xeyli balıq düşürdü. O, səhər tezdən durub tora düşən balıqları yığıb gətirirdi. Demək olar ki, Böyükxangil hər gün balıq şorbası, balıq qızartması yeyirdilər. Tora balıq düşməyən günlərdə isə onlar Böyükxangili nehrəyə qoyulmuş şor balığa qonaq edirdilər. Yay tətilində "Çala" deyilən məkanda onun günləri xoş keçirdi. Balıq ovu, kolazla göldə gəzinti, xam atların əhliləşdirilməsi mərasiminə tamaşa, qamışlıqda, yulğun kollarının arasında ördək, qaşqaldaq yuvaları axtarmaq... Bütün bunlar Böyükxana çox maraqlı gəlirdi, darıxmırdı. "Çala" qışlağında o, özünə çoxlu dostlar tapmışdı. Onlar Mahmud çalanın bütün dəlmə-deşiklərini tanıyırdılar. Amma buradakı uşaqların heç birisi məktəbə getmirdilər. Qışlaqda məktəb olmadığından onlar təhsildən kənarda qalmışdılar. Böyükxan özüylə apardığı kitabları onlar üçün oxuyanda təzə dostlarının ağızları açıq qalırdı. Bundan sonra onlar gedib valideynlərinə deyirdilər ki, biz də oxumaq istəyirik. Bu məsələ qışlaqda böyümüşdü. Kolxoz rəhbərliyi isə öz növbəsində payızda fermada çalışan maldar işçilərin uşaqları üçün müəllim göndərəcəyinə və həmin müəllimə qışlaqda yaxşı şərait yaradacağına söz vermişdi...

Bir gün Böyükxan qışlaqdakı dostlarıyla birlikdə Mahmudçalanın yanından keçən dəmiryoluna tərəf getdilər. Orada, Qırmızıkəndin yaxınlığında yarımstansiya vardı. Qatarlar bu stansiyada azacıq dayanırdı. Salyan

bazarına ağartı satmağa gedən qışlaq qadınları ağır zənbillərlə tez-tələsik özlərini “tavarni” qatarın vaqonlarına atırdılar və axşamlar həmin qatarların biriylə evə aldıqları ehtiyaclarla geri qayıdırdılar.

... Böyükxan Hüsü adlı dostuyla vaqonlara baxırdı. Birdən qatar tərpəndi. Vaqonların birində pəncərənin önündə iki yeniyetmə qız uşağı dayanmışdı. Onlardan biri əlindəki ağ yaylığı onlara tərəf yellədi, Böyükxangil qatarın dalınca xeyli qaçdılar. O, dəcəl qız hələ də yaylığını qatarın dalısıyca qaçan oğlanlara yellədirdi. Qatar ləngər vurub yavaşıyarkən Böyükxan o qızın alışıb yanan zil qara gözlərini, saçına sancdığı çöl bənövşəsini aydın, apaydın gördü. Qatar gözdən itənə qədər o ağ yaylıq görünürdü...

Qatar çoxdan çıxıb getmişdi. Böyükxan isə dizlərini qucaqlayıb oturmuşdu. Qatar gedən səmtdən gözlərini çəkə bilmirdi. Yerindəcə quruyub qalmışdı.

- Dur gedək. - Hüsü dostunun əlindən tutub ayağa qaldırdı. - Allah bilir o kimdir, - dedi. - getdi...

Ertəsi gün Böyükxan yenidən dostu ilə birlikdə dəmiryolu stansiyasına getdilər. Onlar gəlib gedən qatarlara xeyli tamaşa elədilər. Bu dəfə vaqonların pəncərələrindən yaşlı, bir az da acıqlı adamlar boylanırdılar. Gözlədilər, təzə qatarlar gəldi. Yaşlı bir qadın uşaqların üst-başını tökülmüş görüb onların hərəsinə içiballı bir bulka, bir ovuc barbaris konfeti atdı.

Amma uşaqlar onları götürmədilər. Qadın bunu görüb dodaqlarını büzərək pəncərənin önündən çəkildi...

...Yenə də bir yük qatarı gəlib keçdi. Ağ yaylıqlı qız görünmürdü. Böyükxan yenidən aşağı oturub dizlərini qucaqlayıb düşünürdü: “Axı o qız yaylğını mənimçün yellədirdi. Əlini saçında gəzdirə-gəzdirə mənimçün gülümsəyirdi...”

Böyükxan yay boyu hər dəfə bir şeyi bəhanə edib dostlarıyla yarımstansiyaya gedir və kor-peşman da geri qayıdırdı. Ağ yaylıqlı qız yox idi.

Bir dəfə o, axşamüstü stansiyadan qayıdarkən “Çala” gölünün qırağında, köhnə sırıqlığının üstündə bardaş qurub getdikcə qaralan sulara baxa-baxa yanıqlı səslə oxuyan bir kişi gördü. Saçlarına dən düşmüş bu adam sanki dərdini yay mehinin təsiriylə yüngülcə dalğalanan sulara danışırdı:

**Gözüm kor oldu, gəlmədin,**
**Yerim qor oldu, gəlmədin**
**Qəbrim dar oldu, gəlmədin.**
**Gəlmədin, gəlmədin, quzum.**
**Yaram dərin, gecəm uzun...**
**Bağrım qan olan gəlmədin.**
**Sübhüm dan oldu, gəlmədin...**
**Gəlmədin, gəlmədin, quzum...**

Bu sözləri deyib o ağlayırdı. Nəydi onun dərdi? Bu suala Hüsü cavab verib dedi ki, o Balaqardaş əmidi. İllər öncə bir yaz günü onun nişanlısı o gölün kənarında xalça-palaz yuyarkən ayağı sürüşüb suya düşüb, boğulub ölüb. Sonra da o kişinin başına hava gəlib...

... "Gözüm kor oldu, gəlmədin..." Balaqardaş əminin ürək yandıran bu sözlərini Böyükxan ürəyindən keçirə-keçirə ağ yaylıqlı qız haqqında düşünürdü.

... Aylar, illər ötür, Böyükxan o ağ yaylıqlı qızı hər yerdə - oxuduğu Nizami adına şəhər bir nömrəli orta məktəbin sinif otaqlarında, Bakı Dövlət Universitetinin auditoriyalarında, küçələrdə, xiyabanlarda... axtarırdı. Ümidini üzməmişdi, hər yerdə, hər zaman axtarırdı. O qızın qapqara gözləri, aypara qaşları vardı. Böyükxan hər yerdə gözləriylə onu axtarırdı. Bəzən ona bənzər birisini görəndə diksinirdi. Bu dünyada - fakültələrində, doğulduğu kəndində, iş yerində bir-birindən gözəl-göyçək qızlar vardı. Böyükxan onların yanından laqeyd ötüb keçirdi. Onunçün dünyada biri vardısa, o da yarımstansiyada gördüyü həmin o ağ yaylıqlı qız idi. Böyükxan o qızı xəyalında bütləşdirmişdi, bir məhəbbət obrazına çevirmişdi. Bu obraz Böyükxanın ilk məhəbbəti idi. Sonradan B.Bağırlı **"Ağ yaylıqlar"** adlı hekayəsində bu barədə söhbət açır. Həmin hekayəni Sabir Əhməd böyük həvəslə "Ədəbiyyat qəzeti"ndə dərc etmişdi. Bu hekayə ilə bağlı "Ədəbiyyat qəzeti" redaksiyasına xeyli oxucu məktubu gəlmişdi...

***

Macəralarla dolu yay tükənirdi. Böyükxan müəllimləri və məktəb yoldaşları üçün darıxırdı. Son günlər Abicə dayısıgildə tünlükdü. Ətrafda iş görən kolxozun traktorçuları günortalar sərinlənmək bəhanəsilə bu kişinin evinə gəlib külfətin çay-çörəyinə ortaq olurdular. Elə yoldan ötüb keçənlər, dəmiryolu stansiyasına getmək istəyənlər, balıq ovuna gələnlər də bu evə başçəkib bir qismət çörək kəsir, ayranından, süzməsindən, qaymaq-qatığından dadırdılar. Bu evə üz tutanlar heç vaxt soyuq sifətlə qarşılaşmazdılar. Bu evdə Böyükxanın diqqətini çəkən cəhətlərdən biri o idi ki, buraya gələn qonaqlar bəzən özləriylə birlikdə maraqlı söhbətlər, hekayətlər gətirirdilər. Kolazla Salyan tərəfə üzüb keçmək istəyən yaşlı bir qadın keçən qış Bənövşə adlı gəlin qızının gecə gözü "Təklə xarabası" deyilən ərazidə, "Çala" gölünün kənarında çovğuna-borana düşüb ölməsi barədə dizinə döyə-döyə danışırdı. Bu qəmli bir hekayətdi. Böyükxan Sarıgül nənəsinə qısılıb bədbəxt Bənövşənin hekayətini diqqətlə dinləyirdi. Yaşlı qadın için-için ağlayırdı, Sarıgül nənə kövrələrək gözlərinin yaşını silirdi, ortalıqdakı iri "Tula" samovarı isə öz cızıltısındaydı. Ətrafda mığmığalar uçuşurdu. Yaşlı qadın isə hələ də dil-boğaza qoymurdu:

- Yanıram, oddanıram. Mənim balam məsumdu, əhlinamazdı, Fatimeyi-Zəhra kəniziydi, o naşar iş tutmazdı. Balama qara yaxanlar siratda "iman-iman" desinlər, odda gürzələrə yem olsunlar...

Bu qəmli hekayət Böyükxana bərk təsir etmişdi, ürəyinə od salmışdı. Ertəsi gün mal-qaranı örüşə ötürəndən sonra Böyükxan dostu Hüsüylə birlikdə "Təklə xarabası" deyilən yerə baxdılar. Bədbəxt Bənövşənin donub qaxaca döndüyü səmtdə ayaq saxlayıb onun necə keçindiyi barədə düşündü. Bu kasıb, şoran ərazinin nam-nişanını, kol-kosunu yaddaşında saxladı...

... Ətrafa nəzər yetirdikcə, acıq edib idbar ərindən qaçan məsum Bənövşənin qar üstündə ayaqları bir-birinə dolaşa-dolaşa necə yeridiyini, quruyub qaxaca dönən əllərini artıq ovuşdura bilmədiyini, taqətdən düşüb amansız çovğuna nə sayaq can verdiyini... aydın görürdü...

İllər ötdü, bu hekayə istedadlı qələm sahibi B.Bağırlıya rahatlıq vermirdi. O, nəyin bahasına olursa-olsun bu hekayəni qələmə almağı özünə söz vermişdi. Və sonradan onun **"Çovğun"** hekayəsi də belə yarandı. Bu hekayə də istedadlı yazıçı və redaktor Sabir Əhmədin xoşuna gəldi, "Ədəbiyyat qəzeti"ndə onu dərc etdi.

***

1960-cı ilin yayın son günlərinin birində Böyükxanın dayısı Məzahim qışlağa gəldi, ətrafı gəzib dolaşandan

sonra Rəşid kişigilin həyətindəki süd bidonlarını "QAZ-51" maşınının kuzasına yığdı, Sarıgül nənə ilə Böyükxanı da götürüb kəndə qayıtdı. O zaman Böyükxan qışlaqdakı dostlarıyla bir-bir görüşüb xudahafizləşdi. Onlar görüşüb ayrılanda bir-birlərinə söz verdilər ki, gələn yay yenə də görüşsünlər. Amma növbəti yay Böyükxan "Çala" qışlağına gedə bilmədi. Həm nənəsi Sarıgül daha iş görmək imkanında deyildi, həm də onların mal-qaraları seyrəlmişdi, azalmışdı.

İndi o günlər çox-çox uzaqlarda qalıb, Böyükxanın gördüyü o insanlar da "Çala"nın daşqın suları kimi çoxdan axıb gediblər...

Sonra B.Bağırlının Qarabağ mövzusunda yazdığı **"Döyüşçülər daş karxanasında", "Göyərçinlər", "Cəhənnəmi görənlər"** adlı hekayələri oxuculara təqdim olundu. Bu hekayələr 1989-1992-ci illərdə Qarabağ Yardım Komitəsi Cəlilabad rayon şöbəsinə ictimai əsaslarla rəhbərlik edən B.Bağırlı dəfələrlə Qarabağa maşın karvanlarıyla ictimaiyyətin nümayəndələriylə birlikdə yardım - ərzaq məhsulları, tikinti materialları, məişət əşyaları, pal-paltar, uşaq geyimləri... apardığı günlərdəki müşahidələrinin, görüb götürdüklərinin məhsuluydu. Cəlilabad rayonu o zaman keçmiş Mardakert rayonunun Azərbaycanlılar yaşayan, çətin və sərt bir ərazidə, özü də ermənilərin əhatəsində yerləşən Narışlar kəndini hamiliyə götürmüşdü...

B.Bağırlı atası Yadullanı həmişə xoş xatirələrlə yada salır. Atasının bir dəfə ona "Elə etmə..." dediyi sözü heç vaxt unutmur.

... Böyükxan ikinci sinifdə oxuyarkən tutun təzə-təzə yetişən, dəyən vaxtıydı. Balaca Böyükxan həyətlərindəki ağ tut ağacının ən uca budağına dırmaşıb ağzını şirinlədirdi. Bu zaman atası Yadulla ondan bir az kənarda, iri qol-budaqlı qaratikan ağacının kölgəsində oturub çay içirdi. O, Böyükxanı səsləyib dedi:

- Bala, çox yuxarı çıxma. O tutdan elə aşağıdakı xollarda da var.

Böykxan gözünü saytal, iri tut gilələrindən çəkmədən uşaqcasına soruşdu:

- Dədə, burdan dərəndə nolar ki?!
- Bala, o olar ki, ordan yıxılsan şil-küt olarsan, amma aşağıdakı budaqlardan yıxılsan, heç nə olmaz, balaca əzilərsən. Yuxarıda yediyin tut elə aşağıdakındandı da...

Bu sözlər Böyükxanın qulaqlarında sırğa olub qaldı. O, atasının sözünü həmişə yadına salıb, yuxarılara can atmadı. Onu da deyim ki, Yadulla əmi geniş məlumatlı, ensiklopedik yaddaşa malik olan insandı. O, tarixi hadisələri dəqiqliyi ilə elə danışırdı ki, sanki o hadisələrin iştirakçısıydı. Yadulla əmi Alar kəndinin tarixini, kənddə yaşayan bütün tayfaların, tirələrin üzvlərini əzbər bilirdi, yaxından tanıyırdı. Ata-babalarımız haqqında geniş

məlumata malik idi. O, ata-babalarımızın çar Rusiyası zamanı öz doğma torpaqlarını ruslardan necə qoruduqları, onların igidlikləri, şücaətləri barədə maraqlı söhbətlər edirdi. Onun hafizəsi, yaddaşı möhkəm idi. Kəndimizin tarixi haqqında, tayfalarımzın keçmişi - ata-babalarımız barədə kimsə nəsə yazmaq istəsəydi, hökmən mənbə kimi Yadulla əmiyə müraciət edirdi. Hər şeydən öncə, onu qeyd edim ki, kəndimiz Alar çox zəngin bir tarixə malik olan yurddur. Eyni zamanda zəngin tarixi və mədəniyyəti olan kənddən çoxsaylı yaradıcı ziyalılarımız, mədəniyyət və incəsənət xadimlərimiz, alimlərimiz, qəhrəmanlarımız çıxmışdır. Bu qəhrəmanlıq irsini alarlılar ta Çar Rusiyası, inqilab dövründən, Böyük Vətən müharibəsi dövründən tutmuş bugünkü Qarabağ savaşına qədər qoruyub saxlamışlar. Alarlılar qorxmaz, cəsur və öz haqlarını kimsəyə yedirtməyən çox böyük bir tayfa olmuşlar. Bu bir tarixi həqiqətdir. Bu barədə tanınmış yazıçı-şair, tədqiqatçı, folklorşünas Bilal Alarlının **“Alar və Alarlılar”** kitabında da söz açılır: *“Çarizmin Azərbaycanda müstəmləkə siyasətinin ən qaba nümunəsi köçürmə siyasəti ilə bağlıdır. Hökumət Rusiyanın mərkəzi quberniyalarından Azərbaycana köçürdüyü kəndlilərin bir qismini alarların yaşadığı ərazidə məskunlaşdırmaq istəyirdi. Sabir Nəsiroğlu yazır ki, uzun müddət Pirişibdə yaşamış məşhur əczaçı-həkim A.Qranerski hələ 1897-ci ildə Sankt Peterburqda nəşr etdirdiyi elmi*

*monoqrafiyasında alarların Muğanda kompakt halda yaşadıqlarını qeyd edir. A.Qranerski yazırdı ki, alarlar əsasən Muğanın cənub-şərq hissəsində yerləşən bütün otlaq sahələrini, o cümlədən rusların saldıqları kəndlərə və su mənbəyinə yaxın olan obaları və qışlaqları öz əllərində cəmləşdiriblər. Bəzən onlar əllərində olan çəmənlikləri qışlamaq üçün Savalandan və Talış əyalətindən Muğana gəlmiş tayfalara icarəyə verirdilər. Onların torpaqları rus kəndlərinə bitişik olduğu üçün tez-tez tayfalararası münaqişələr baş verirdi. Bu münaqişələr zamanı hətta ölüm halları da olurdu. Alarlar yadelli tayfaların göstərdikləri təzyiqlərə və haqsızlığa qarşı güc toplamaq üçün Orand, Zuvand və digər tayfaların nümayəndələri ilə qohumluq əlaqəsi yaratmışlar. A.Qranerski bildirir ki, Balharı çayı ilə Göytəpə çayının arasındakı ərazi tamamilə alarlarla rus kəndlilərinin "mübahisə və münaqişə zonasına" çevrilib.*

Sənədlərdə qeyd olunur ki, 1905-ci il yanvarın 2-də yerli pristav Alar kəndlilərinə göstəriş vermişdi ki, 5 gün müddətinə öz torpaqlarını boşaldıb, Rusiyadan köçürülmüş kəndlilərə versinlər. Alarlara kənd təsərrüfatı üçün yararlı olmayan torpaqlara köçmək təklif olunurdu. Kəndlilər bu "təklifi" rədd etdilər və silaha əl atdılar. Belə vəziyyəti görən hakimiyyət orqanları onların torpaqlarını

özlərinə qaytarmağa məcbur oldu.

Alarlara qarşı göstərilən bu vəhşi siyasəti, haqsızlığı rus inqilabçısı, “dünya proletariatının rəhbəri” kimi tanınan V.İ.Lenin belə şərh etmişdir: “*Bu camaaatın torpaqlarını qəsb edən gəlmələr xəzinə hesabına silahlandırılmışlar. Yerli qəza rəislərinə əmr verilmişdi ki, Muğanda salınan yeni kəndlərdəki kəndlilərin və o cümlədən Pakrovkalıların silahla təchiz edilməsi qayğısına qalsınlar. Hər 100 həyətə 10 berdanka tüfəngi versinlər. Bu da indiki siyasətin “millətçi” istiqamətini göstərmək üçün çox maraqlı misaldır”* (Bax: V.İ.Lenin. Köçürmə məsələsi. Əsərləri, IV nəşr, XVIII cild, s. 85).

Alarların inadlı mübarizəsini görən çar müstəmləkəçiləri güzəştə getdilər. Lakin buna baxmayaraq, Pokrovka kəndi Alar qışlaqlarında salındı. Tədqiqatçı İ.M.Həsənov Alar çıxışı ilə bağlı iki böyük məqalə çap etdirmişdir. **“İz istorii krestyanskoqo dvijeniya v Azerbaydjane”** adlanan birinci yazı “Azərbaycan SSR arxivlərinin xəbərləri” məcmuəsinin 1963-cü il tarixli birinci sayında dərc olunub. Digər yazı isə “**Ob etom upuminal Lenin”** adlanır və “İstoriya SSSR” jurnalının 1967-ci il tarixli ikinci sayında işıq üzü görüb...”

Mən deyərdim ki, Böyükxanın da erudisiyalı, məlumatlı və yaradıcı bir insan kimi formalaşmasında atası Yadullanın böyük təsiri olmuşdu. Çünki o uşaq vaxtı

atasının bütün söhbətlərinə maraqla qulaq asardı. Ona görə də mənim fikrimcə, Böyükxan ilk Universitet təhsilini elə atasının yanında olarkən almışdı. İkinci ali təhsili isə hamımıza məlumdur. Yadulla əmi Böyükxan üçün təkcə valideyn yox, həm də onun üçün həyat məktəbi olmuşdu. O, atası Yadullanı həmişə ilk müəllimi hesab edir...

Bir dəfə rəhmətlik İbrahim Qurbanov Böyükxanı təhkim olunduğu ərazidən rayon Sovetinin deputatı seçildiyi Xanlar adına sovxoza direktor göndərmək istəyirdi. O, Böyükxanı dilə tutub özünəməxsus ifadələrlə deyirdi: “Bala, sovxoz direktoru həyatdı, kişilikdi, addı, hörmətdi. Lap belə desən, puldu, imkanatdı. Bunun basmaqçün qnopkası var, katibəsi var, qonaq-qarası var... Hə, nə deyirsən, get fikirləş, tez qayıt gəl...”

Böyükxan gedib fikirləşdi. Atası Yadullanın dediyi sözlər yadına düşdü: “Bala, çox yuxarı çıxma, yıxılarsan...” Sonra onun katibə verdiyi cavab İ.Qurbanovu əsəbiləşdirdi. Birinci katib əlini stola çırpıb: “Çıx get burdan, - dedi, - buna bax, pah, qudurasan...”

Buna bənzər bir əhvalatla Ramiz Zeynalovun - bu abırlı-ismətli, ağır-zəngin kişinin birinci katibliyi dövründə rastlaşmışdı Böyükxan. O, B.Bağırlıya ikinci katib vəzifəsini təklif etmişdi. Birinci katib Böyükxana dedi ki, bu barədə hələ iş həll olunmamış heç kimə, hətta ailə üzvlərinə də bir söz demə...

Böyükxanı fikir götürmüşdü: Bu iş hardan çıxdı... Sən demə, yerlərdə keçirdiyi səyyar qəbullar zamanı adamların Böyükxana necə isti münasibət bəslədiyini, hörmət etdiyini, keçirdiyi görüşlərin rayon qəzetində operativ şəkildə təbliğ olunduğunu, qəzet işçilərinə verdiyi tapşırıqların səliqə-sahmanla yerinə yetirildiyini görən birinci katibin gözü B.Bağırlını tutmuş və əl atdan onu yoxlayırmış. Birinci katib Böyükxan haqqında daha bir neçə mötəbər rayon rəhbərlərindən müsbət rəy eşidəndə, o, qərarını qətiləşdirmişdi.

Birinci katib Ramiz Zeynalovun bu fikrə gəldiyi günlərdə ölkədə siyasi ab-hava heç də ürəkaçan deyildi. Azərbaycanın başı üzərində qara buludlar oynaşırdı. Sanki partiya üsul-idarəsi can üstündəydi. Qarabağ bölgəsindən ağır xəbərlər gəlirdi. Oradakı qan-qadalar, itkilər xalqdan gizlədilirdi. Belə bir vaxtda birinci katib Böyükxanı yanına çağırıb həmin söhbətə qayıtdı, zəndlə onun üzünə baxıb: "Nəsə, tərəddüd eliyən adama oxşayırsan?" dedi: Böyükxan dinmədi. O, gördü ki, katibin acığı tutub. Ona görə də katibi özündən narazı salmamaq üçün: "Ramiz müəllim, - dedi. - axı mən kənd təsərrüfatı mütəxəssisi deyiləm, qorxuram ki, sizin etimadınızı doğrulda bilməyim..."

- Təsərrüfata mən cavab verirəm. Səni ideoloji iş üçün nəzərdə tutmuşam. İki gün vaxtın var, fikrini qətiləşdir. Yuxarıya tez təqdimat verməliyəm.

Söz var, deyir. Sən saydığını say, gör fələk nə sayır. Birinci katibin dediyi bu iki gün ərzində aləm bir-birinə dəydi, "əzəmətli Lenin partiyası" atdan düşdü. Birincili, ikincili bütün katiblər həmin o tut ağacının uca budağından yıxılıb, Yadulla əminin dediyi kimi, şil-küt oldular, ölkədə icra hakimiyyəti deyilən yeni ali idarəetmə institutu hökm-fərman oldu.

Bütün bu olaylar - müvəffəqiyyətlər, uğursuzluqlar, aldığı mənəvi zədələr, sevgi duyğuları, axıdılan göz yaşları, məhəbbət və xəyanət, əvəzsiz itkilər, iztirab və üzüntülər; həzz və sarsıntılar... onun həyatının - "tərcümeyi - halının" tərkib hissələridir. Çəpəki yağan payız yağışı, tər bənövşə qoxusu verən şehli çəmənlik, küləkli gündə havada nizamsız uçuşan gül toxumları, bahar yağışından sonra göy üzündə qurulan, yeddi ilahi rənglə süslənən Fatmanənə hanası... – bütün bunların hamısı insan ruhunu oxşayan, könlünə, duyğularına hopan, yaddaşına əbədi həkk olunan ilahi töhfələrdir. Onları həyatımızdan, ruhumuzdan necə silib ata bilərik?!

Ədəbi yaradıcılıq da belədir. Bəlkə də, yanılıram, hər halda, belə düşünürəm. Və belə fikirləşirəm ki, hər bir yazıçının - bunu etiraf etsələr də, etməsələr də - əsərlərində müəyyən qədər onların həyatlarının ştrixləri, ayrı-ayrı nüans və detalları qərar tutur, həyatlarından nəsə bir şey ilişib qalır. Yazıçı fəndi, peşəkar söz sehrkarlığıyla süslənib ədəbi mətnlərdə qərar tutan bu detalları sadəcə

huşyar oxucu kimi tanıyıb anmaq, görə bilmək və qiymətləndirmək lazımdır. Eyni ilə B.Bağırlının həyatında və ədəbi yaradıcılığında olduğu kimi.

Qələmə aldığım bu yazı istedadlı jurnalist, yazıçı, şair, gözəl insan, etibarlı dost, sədaqətli yoldaş, yorulmadan daim öz üzərində çalışan, mütaliə edən, ziyalılığı, alicənablığı ilə başqalarına örnək olan, zəhmətkeş insan, gözəl ailə başçısı Böyükxan Bağırlının həyatı idi.

B.Bağırlı həm də gözəl ailə başçısıdır. Onun altı övladı var. Öladları atalarıyla həmişə fəxr edir, onunla qürur duyurlar.

İstedadlı jurnalist - yazıçının, gözəl insanın həyatının digər tərəflərini, qələmə almadığım bəzi xarakterik xüsusiyyətlərini və ədəbi yaradıcılığını isə qoy onun yazıçı, şair, jurnalist dostları, sinif və tələbə yoldaşları yazaraq tamamlasınlar...

# Böyükxan Bağırlının

# Ədəbi yaradıcılığı haqqında

# BÖYÜKXAN BAĞIRLI

**("Bölgələrdə ədəbiyyat" silsiləsindən)**



Onun yazıçı tərcümeyi-halı çox sadə və yığcamdır, hətta bir-iki cümləyə də sığışar. ADU-nun jurnalistika fakültəsini bitirib (1971), iki il Teleradio şirkətində kiçik redaktor işləyəndən sonra qayıdıb doğma rayonu Cəlilabada və bu vaxtacan ordakı rayon qəzetində çalışır: şöbə müdiri, redaktor müavini, 1981-ci ildən də redaktor. İlk hekayəsi-**"Çöllərdə səhər"** 1972-ci ildə "Ədəbiyyat qəzeti"ndə dərc edilib. Cəmi iki kitabı nəşr olunub: biri hekayələr kitabı - "**Aynalı gölün payızı"**dır ki, 1985-ci ildə işıq üzü görüb, biri də **"Yaşayın, insanlar"** publisistika kitabıdır. Ara-sıra "Azərbaycan", "Ulduz" jurnallarında, "525-ci qəzet"də, "Ədəbiyyat qəzeti"ndə yazıları çıxır. Vəssalam.

"Zəngin" tərcümeyi-halı olmasa da, ömür yolu çox sadə təsir bağışlasa da, Böyükxan Bağırlı istedadlı bir nasir və publisistdir. O, yurdumuzun Cənub bölgəsində ədəbi həyatın qurucularından və indi sözüötən

ağsaqqallarından biridir. Xüsusilə, Cəlilabadda yetişən, ilk qələm təcrübələri ilə onun redaktor olduğu rayon qəzetində çıxış edən yazarların ilkin yol göstərəni, xeyir-dua verəni rəhmətlik Abbasağa və Böyükxan Bağırlı olubdur. O, indi də bu missiyanı yerinə yetirir.

İlk kitabı - **"Aynalı gölün payızı**"nda Böyükxanın səkkiz hekayəsi çap olunmuşdu. Üstündən otuz ilə yaxın bir vaxt keçir, indi də o hekayələr öz bədii dəyərini, təravətini itirməyib. Doğrudur, o hekayələrə bu gün çox asanlıqlı "sovet dövrünün hekayələri" demək olar. Ancaq o hekayələrdə heç bir sovetizm əlaməti yoxdur. Əsasən qəhrəmanları gənclərdir. Onlar kənddə yaşayırlar, zəhmətlə, əməklə gün keçirirlər. Ancaq müəllif onların əməyini, qazandığı nailiyyətləri deyil, könül dünyalarını vəsf edir. Bu səkkiz hekayə cavanların sevgi macəralarından, bir-birinə qarşılıqlı etimadlarından, ya da ayrılıqlarından söz açır. Onlar həyatda əsl məhəbbətin sorağına düşüblər. Amma müəllif bu hekayələrdə heç də sentimentalizmə uymur, süni, gözyaşardıcı səhnələrin təsvirinə meyl etmirdi. Böyükxanın təsvir və təqdir etdiyi qəhrəmanlar torpağa, kəndə, əməyə bağlı insanlar idi.

Böyükxan Bağırlının **"Aynalı gölün payızı"**ndakı hekayələrin iki məziyyəti xüsusilə diqqəti cəlb edirdi. Birincisi; müəllifin kənd həyatını, məişətini, etnoqrafiyasını, folklorunu yaxşı bilməsi, bunları öz hekayələrində canlandırması ...İkincisi; müəllifin dili sadə və səlis idi,

nahamkar cümlələrə, ifadələrə rast gəlmək mümkün deyildi. Böyükxan Muğan gecələrini, onun özünəməxsus cazibəsini, təbiətin, torpağın şeiriyyətini nəsrə gətirir.

**"Aynalı gölün payızı"** hekayəsindən bu parçaya diqqət yetirək: "Kəndə axşam düşmüşdü. O kəndə ki, gecələr tez-tez Rəhim müəllimin yuxusuna girirdi. Adamlarıyla, qızıl dalğalı zəmiləriylə, qoyunlu-quzulu örüşləriylə və bir də anasının şirin-şirin nağıllarıyla. Hava qaralmışdı. Küçədə gözə dəyən yox idi, yəqin ki, hamı çəkilib evə, televizora baxır, şam eləyir. Daş hasarlar da ayırıb onları bir-birindən. Amma dava vaxtı, ondan sonrakı illərdə belə deyildi. Qonşular gecələr bir yerə yığışar, dərdləşər, olandan, olmazdan yeyib içərdilər. Rəhimgilin evi həmişə düşərgəli olardı. Qara kağız alanlar da, intizarla xəbər gözləyənlər də bu evdən ayaqlarını çəkməzdilər. Rəhimin anası rəhmətlik Gülüstan xala elə davanın birinci ilində ərindən qara kağız almışdı. Bir üzü qız, bir üzü gəlin oturmuşdu evdə". Kənd həyatını, orada yaşayan insanların psixologiyasını təsvir edən belə səhnələr B.Bağırlının digər hekayələrində də rast gəlinir və deyim ki, Böyükxan, bəlkə də yeganə yazıçıdır ki, onun bütün yazdıqları hamısı kənd həyatındandır.

Budur**, "Çovğun"** hekayəsi (8 avqust 2013, **"525-ci qəzet").** Bu hekayədə bir kənd qadınının obrazı yaradılıb. Bənövşə adlı bu qadın sevmədiyi bir kişiyə ərə gedib. Əri Nuğay yeri gəldi-gəlmədi onu təhqir edir, arvadının başqa

kişiyə meyl etməsi haqda yalanla dolu hay-haray salır, nəticədə Bənövşə evdən baş götürüb qaçır. Hara getdiyini özü də bilmir və bu zaman çovğun başlayır. "Çovğun lap iki addımlığında qarı eşib göyə sovurdu, yalquzaq kimi dişlərini ona qıcıtdı. Bənövşə qışqırmaq, anasını köməyə çağırmaq istədi, amma buna heyi-hərəkəti çatmadı. Ağ kəfənə bürünmüş səhrada onun köməyinə kim gələcəkdi?" Beləcə, Bənövşə çovğun zamanı həlak olur. Ölüm ərəfəsi onun öz keçmişi, Qənbərlə bağlı sevgi duyğuları yada düşür. Hekayənin adının oradakı hadisələrlə məntiqi bağlılığı var. Təbiətin bu çovğunundan öncə Bənövşənin həyatında çovğun başlamışdı və xilas yolu yox idi...

Böyükxan Bağırlının həyatı, gerçəkliyi müşahidə qabiliyyəti xüsusilə dəyərləndirilməlidir. Belə ki, onun hər hansı bir hekayəsini oxuyandan sonra burada təsvir edilən həyat, məişət, ailə ilə bağlı təsvirlərin reallığına qətiyyən şübhə eləmirsən. Digər tərəfdən, müəllifin təsvir etdiyi obrazlar da həyatın özündən gəlir, onun dönə-dönə rastlaşdığı, müşahidə etdiyi insanlardır. **"Tələ"** hekayəsində (**"Ulduz"** jurnalı, 2010, № 10) müəllif bir kəndin adamlarına qorxu gətirən ilanlara tələ qurulmasından söz açılır. "Kəndə xəbər yayılmışdı ki, bəs İranın Germi yaşayış məntəqəsi tərəfindən gecə gözü "Gülbaydağ"a bir sürü ilan gəlib. Düzdür, bu ilanlardan bircəciyini belə kənd camaatından gözlə görən olmayıb. Məsələtün, kəndin o başındakılar deyirlər ki, bu şoğəribləri

kəndin aşağı covğasında olanlar görüblər. Aşağı məhəllədəkilər də eyni minvalla orta tirədəkilərinə istinad edirdilər. Bir məhəllədə deyirdilər ki, kəndə soxulan bu məssəbsizlərin rəngi qaradır. O biri məhəllədə isə söz gəzirdi ki, yox əşi, gözlə görən olub, qırmızıdır".

Beləliklə, kənd bir-birinə dəyir. Amma burada əsas motiv heç də ilanlara qarşı mübarizə deyil. Əsas məqsəd kəndin adamlarının bu məsələyə münasibətini açıqlamaqdır. Burada müəllif Sövdalı kişini önə çəkir, onun simasında bir kəndli tipini gözlərimiz qarşısında canlandırır. Kimdir o? "O, əlli beş yaşında, gödərək, şişman qarınlı, az danışan, çox düşünən, həlim, xoş xasiyyət, əl tutan, kara gələn, ailəcanlı bir kişidir, ona dəyib dolaşmayasan, səninlə işi olmaz, əgər mərci boyda yaxşılığın keçsə ondan, yalan olmasın, öküz ağırlığında əvəzini görərsən. Bu kişi tələsib təndirə düşməyi heç vaxt özünə rəva bilməyib. Səliqə-səhmanı sevən, meyvəsi yetişəndə yeyən, görəcəyi işi qabaqcadan dilinə gətirib rəqiblərini duyuq salan adamlardan deyil. Onun sancmaqla arası yoxdur. Amma sancdığı adam da hələm-hələm sağalmır və bu zərbənin kim tərəfindən endirildiyini öyrənmək üçün qəbir evinə qədər baş sındırır, zeh yerə qoyur, amma di gəl bir şey hasil olmur".

Diqqət yetirdinizmi, **"Tələ"** hekayəsindən gətirdiyim misalda Sövdalı kişinin - kəndin bələdiyyə sədrinin həm zahiri, həm də daxili portreti təqdim edilir. O, kənd

camaatının rəğbətini qazanmaq üçün dəridən-qabıqdan çıxır. Çoxlarının fikrincə, ilan əhvalatını da yalandan uydurub ki, kəndə ilantutanlar gətirsin. O, yenidən bələdiyyə sədri seçilmək üçün kəndin ən hörmətli, sözü keçən adamlarıyla ünsiyyət qürur, onların etimadını qazanır. Xüsusilə Molla Qurbanla.

Bu da bir kəndli tipidir və Azərbaycan kəndlərində Sövdalı kişi kimi yüzlərlə oxşar xasiyyətlilər var.

Böyükxan Bağırlının **"Zəhərlənmiş tale"** povestində də **("Azərbaycan"** jurnalı, 2012, № 2) maraqlı bir obraz təqdim olunur. Povestin qəhrəmanı Mətləb kişi doğrudan da, talesiz, bəxtsiz bir insandır. Amma bu talesiz insan son dərəcə təmiz, saf mənəviyyata malik bir insandır. Onu zorla, heç bir günahı olmadan ilişdirmək, tora salmaq istəyirlər, amma o, təmkinini itirmir. Cavanlıqda da belə olub. Orduda xidmət edərkən yeddi qızı ölümdən xilas edib. Amma bu adam həyatda öz yerini tuta bilməyib, həmişə uğursuzluğa düçar olub. Ən böyük uğursuzluğu isə sevdiyi-söz verdiyi Zəhraya yetə bilməməsidir. Bu, onun həyatda bütün uğursuzluqlarının təməlinə çevrilir.

Ümumiyyətlə, Böyükxan Bağırlının kənd adamları ilə bağlı müşahidələri, öncə qeyd etdiyimiz kimi real mənzərəni əks etdirir, yəni burada süni, qurama cizgilər axtarmaq əbəsdir. Onun **"Göyərçinlər uçub getdi"** hekayəsi də **("Yada düşdü"** jurnalı, 2012, № 2) yazıçının kəndə, kənd adamına bələdliyini bir daha sübut edir. Bu

hekayədə Böyükxan kənd müəllimlərinin gün-güzəranına diqqət yetirməsi, onların kasıbçılıq içində yaşamasını, mənəvi böhranla üzləşmələrini əks etdirir.

Böyükxanın **"Döyüşçülər daş karxanasında" ("Ulduz"** jurnalı, 2011, № 8) hekayəsi isə daha ciddi bir mətləbdən söz açır. Karxanada işləyən iki keçmiş döyüşçü - Sübhan və Qara Hüseyn ötən günləri yada salıb dərdləşirlər. Müharibə və döyüş dostları barədə fikirlərində ayrılıqlar olur. Görün Sübhan nə deyir: "Beş-altı nəfər döyüş görməmiş ağciyər ana uşağıyla mən neyləyə bilərdim? Döyüş sursatı deyirsən, bəxtəvərlikdən danışırsan, sursat hardaydı? O döyüşdə mən yüngül yara aldım. Amma deyirsən gərək öləydim, hə? Nəyə görə?! Ona görə ki, naçalniklərimiz günnən-günə yağlanıb bahalı maşınlarda gəzsinlər? Biz burda toz-torpağın içində bir qarnı ac, bir qarnı tox vərəmə tutulaq, amma onnarsa naz balışlı, pərqu yorğan-döşəkli yataqda məşuqələriylə mazaqlaşsınnar, kef eləsinnər, hə?! Vətəni qorumaq elə kasıb-kusubun püşgünə düşüb (Topdağıtmaz villaları buludlarla oynaşannarın balaları bəyəm, yuxarı dəyir-mandan gəliblər? Niyə onnar ordu sıralarında gözə dəymirlər? Ərə gedəndə böyük bacı, iş-gücə gələndə kiçik bacı?!"

Sübhanın müharibə ilə bağlı fikirləri Qara Hüseynin xoşuna gəlmir. Onun fikrincə, müharibədə belə neqativ hallar olsa da, torpaqlar əldən getsə də, nə qədər igidimiz

həlak olsa da, inamı itirmək olmaz. Deyir ki: "Sənin sözlərindən fərarilik iyi gəlir. Vətən, torpaq müdafiəsi anlayışı sənin çərçi, sövdəgər arşınınla ölçülə bilməz. Müharibə hələ qurtarmayıb, uduzmaq barədə söhbət ola bilməz. Biz müvəqqəti olaraq geri çəkilmişik".

Fikirlərinin müxtəlifliyinə baxmayaraq onları birləşdirən, duyğularını bir araya gətirən məqamlar da var. Belə ki, Sübhanın qardaşı Şükran da döyüşlərdə həlak olub və o, son anında ana əmanəti medalyonu Qara Hüseynə verir ki, bunu qoru. Qara Hüseyn də o əmanəti Sübhana verir. "Üstündə anasının əllərinin izi qalan bu əntiq pulqabını gözünə sürtəndə, dodağında gəzdirəndə burnuna dəm-dəsgahla keçirilən həmin doğum gününün ab-havası gəldi. O bəxtəvər anların hənirtisini hiss etdi. Göllənmiş gözlərini dolandırıb medalyona baxdı".

Sübhanın həyata, insanlara inamı, etibarı itib. Müharibədə gördükləri onu sarsıdıb. Amma Qara Hüseynin bu hərəkəti onun qəlbinin dərinliklərində bir xoş duyğu oyadır. "Bu duyğu onu həyata tamam yeni bir gözlə baxmağa çağırırdı və ona anladırdı ki, bu dünyada vəfa, sədaqət, etibar, dəyanət deyilən şeylər heç də nağıl, əfsanə, xülya deyil, əksinə, həqiqətdir. İndicə ona ömrünün analı, qardaşlı-bacılı bəxtəvər anlarını balaca bir əşya ilə geri qaytaran Milli Ordunun bu xəstə, nasaz veteranı, bəlkə elə bu həqiqəti demək, hiss etdirmək üçün yanına gəlibmiş və bu gəlişin özü də, elə Allah

vadarıymış".

Beləliklə, bu yazıda biz Cəlilabadda yaşayan, amma "əyalət yazıçısı" deyil, müasir nəsrimizin bir nəfəri kimi diqqəti cəlb edən Böyükxan Bağırlının hekayələrindən söz açdıq. Çox təbii, janr baxımından da normal olan bu hekayələrdə dünənki və bugünkü Azərbaycan kəndinin bəzi tipik lövhələrini gördük. Böyükxan Bağırlıya ona arzulayaq ki, yetmiş yaşına ikicə il qalır, amma cəmi ikicə kitabı çıxıb. Həm yazılarının, həm də kitablarının sayını artırsın...

**Vaqif YUSİFLİ,**

**"Ədalət"** qəzeti, 08 fevral 2014 - cü il.

# Həyatdan həqiqətə



Ədəbiyyat haqqında yazmağa başladığım gündən yaradıcı gəncliyin-yaşıdlarımın ədəbi taleyi məni həmişə narahat edib. Çünki gənclik üçün narahatlıq, gələcək üçün narahatlıq, istedadlı gəncliyə qayğı gələcəyə qayğıdır. Amma çox vaxt belə olmur. Gənc müəllifin axtarışları maneələrdən başlayır. Burada bəlkə də bir həyati məntiq var: həmin maneələr istedadı qrafomandan ayıran təbii sınaq lövhələridir, özünü dəf edə bilən, başqalarını da yenəcək, bununla da istedad təsdiq olunacaq. Əlbəttə, istedad sabit ştamp deyil, cəmiyyət və şəxsiyyətlə birlikdə dəyişən estetik kateqoriyadır... Böyükxan Bağırovun **"Aynalı gölün payızı"** kitabında onun bədii axtarışlarının istiqaməti aydındır... Həyatdan həqiqətə! O, bu yolu narahat və təmkinli istedadına güvənərək keçmək niyyətindədir. Bu niyyətlə atılan ilk addım - ilk kitab müvəffəqiyyətlidir. B.Bağırovun bədii uğurları, bir yazıçı kimi dəst-xəttini müəyyən edən amillər

ilk növbədə onun həyata münasibətilə bağlıdır. Böyükxana hekayə yazdıran vahid hiss var: narahatlıq! Təsadüfi deyil ki, onun bütün hekayələri bu duyğunun təsviri ilə başlayır, məhz o, qəhrəmanların xarakterini səciyyələndirən cəhətlərin çıxış nöqtəsi olur. Narahat, tutqun göyün altından hiss olunmadan ötüb keçən payız kombaynçı Əkbərin **("Qu nəğməsi"),** arvadının narahat baxışları səfərə çıxan Kərim müəllimin **("Kərim, Narınc və başqaları"),** avtobus kəndə yaxınlaşdıqca artan daxili, anlaşılmaz bir həyəcan yeganə mənəvi və maddi ümidi olan ata yurdunu satmağa gələn kirayənişin alim Rəhim müəllimin **("Aynalı gölün payızı")** mənəvi təmizliyini və dəyanətini aşkara çıxaran vasitəyə çevrilir.

İnsanlara inamı sınanda təmizliyə və düzlüyə güvənən kombaynçı Əkbərin həyatında faciəli anlar başlayır. Yazıçı Əkbəri ata yurdunun taleyi ilə sınağa çəkir. Onu torpağa bağlayan ev-eşik yananda Əkbəri evdən çox ətrafındakı adamların mənəviyyatsızlığı sındırır. Bu hekayədə ümumən Böyükxanın yazılarına təbii maraq gətirən bir keyfiyyət əsaslandırılır. Onun qəhrəmanlarında təkliyin faciəsi ilə insan ünsiyyətinin cazibəsi daxili bir mübarizə aparır, bu qəhrəmanların xarakteri həmin mübarizədə formalaşır, insan ünsiyyətinin ülviyyətini təsdiq edir.

Bu ünsiyyət sadəcə salam-kəlam, zahiri davranış normasına riayət deyil. Müəllif insanlar arasındakı ünsiyyətin tarixən onları birləşdirmiş bəşəri hisslər

əsasında yarandığı qənaətinə gəlir. Məsələn, Əkbər hamıdan, hətta öz külə dönmüş ocağından belə üz döndərəndə torpaqsız qala bilmir. Onun üçün torpaq ətri insan hənirini, ünsiyyətini əvəz edir. O, “dodaqlarının küncündə adamı hər an içində xoşbəxt eləməyə qadir olan şirin təbəssüm gizlənmiş” Sevincin xətrinə cinayətkar Arifi də bağışlaya bilir. “Qısa ömrü tənhalıqda keçirməyə dəyməz” – Əkbərin incidilmiş tənha Qu quşuna etiraf etdiyi bu həqiqət Böyükxanın hekayələrinin leytmotivi kimi səslənir.

Torpaq kimi, vətən kimi elə bəşəri anlayışlar var ki, təkcə fərdlərin yox, tarixin və cəmiyyətin əxlaqı həmin anlayışlarla münasibətdə meydana çıxa bilir. Torpaqdan sonra belə anlayışlardan ikisi ilə də bizi tanış edir: Çörək və məhəbbət! Yolun kənarına düşmüş bütöv bir quru çörək Bayram kişinin xatirələrini dilə gətirir. Təkcə insanın yox, vətənin və xalqın taleyinin bir tikə çörəkdən asılı olduğu müharibə illəri nəsillər üçün ibrət dərsi olmalıdır. “Çörək bol olarsa, basılmaz Vətən” deyiblər. Bəs elin sərvətinə belə laqeyd münasibət haqqını onu lazımsız yük kimi arabada daşıyanlara kim verib? Yazıçı bu suala cavab olaraq Bayram kişinin yaddaşını dinləndirir. Bu yaddaşda isə çörək həyata bərabərdir. Bayram aclıq və ölüm arasında çarpışan komandir üçün sərxoş faşistin çantasından çörək çıxarır və düşünür. Bu yerdə yazıçının ideyası aydın və gözəldir: “Nəhayət, bu da çörək! Onun

necə də gözəl qoxusu vardı. Faşist çantasından çıxmasına baxmayaraq çörək yenə çörəkdir. O, Bethovenin musiqisi kimi bəşəridir. O, hamı üçün eynidir”.

Yaddaşa hörmət və qayğı, insan yaddaşının milli sərvət olması ideyası müəllifi düşündürən, onun hekayələrinə humanizm aşılayan aparıcı ideyadır. **“Nar kolları”** hekayəsində insan münasibətlərinə yaddaşın prizmasından nəzər salınır, yaddaş müasirlərimizin vətəndaşlıq tutumunu aşkar edən məhək daşına, əxlaqi meyara çevrilir. Ekskavatorçu Əsəd onu cəmiyyətə bağlayan peşə borcunu yerinə yetirsə də, mənəvi borcunu icra edə bilmir. Qoruqçu Müseyibin qurduğu şübhə torunu yırtmağa özündə qüvvə tapmır. Gözəl Mərcanın müharibədə həlak olmuş əsgər atasının yeganə yadigarı, ata ömrünün davamı olan nar kolları ekskavatorun çalovunda oynayanda Əsəd səhvini anlayır. Anlayır ki, o, ata haqqında yaddaşın yeganə saxlancı olan nar kolları ilə bir ailənin ümidini qoparıb atıb. Ekskavatorun çalovunu təkcə nar bağına yox, Mərcanın onun məhəbbəti ilə təzə puçurlayan qəlbinə uzadıb, öz səadətinin də kökünü kəsib...

Böyükxan həyat müşahidələri əsasında belə bir bədii məntiqə gəlib çıxır ki, vətən, torpaq, çörək kimi yaddaş, məhəbbət və sədaqət uğrunda da mübarizə aparmaq lazımdır. Yazıçı sədaqət uğrunda mübarizənin çətinliyini, şübhələr dənizindən keçdiyini **“Şənbə günü”** hekayəsində

qələmə alır. **“Çöllərdə səhər”** hekayəsində isə biz məhəbbətin anlaşılmaz, sehrlə dolu aləm olduğuna bir daha yəqinlik hasil edirik. Mirvari sübut edir ki, sadə görünməsinə baxmayaraq, qəlbin hərarəti dərindədir, onu üzdə axtaranlar həmişə yanılırlar. Yazıçı Əkbər, Mirvari və Məcid arasındakı münasibətlər fonunda məhəbbətə yeni bir rakursdan nəzər salır, bu ali bəşəri hiss haqqında öz sözünü deməyə çalışır.

**“Kərim, Narınc və başqaları”** hekayəsində yazıçı milli ziyalıların mənəviyyatında baş verən ciddi psixoloji proseslərə nəzər salır. Kərim müəllimin xarakteri Narıncla, Vaqif müəllimin səciyyəsi imtahandan kəsilmiş qızla, Qarabağlı qardaşın kimliyi isə pozğun Qreta ilə bağlı xatirələrdə aşkara çıxır. Evdən ayrılandan sonra məlum olur ki, bu ziyalılar heç biri göründüyü kimi yaşamır. Hərənin içərisində ikinci faciəli bir həyat mövcuddur. Ümumiyyətlə, Böyükxanın qəhrəmanları öz keçmiş səhvlərinin faciəsini əxlaqi yaddaş kimi yaşayan adamlardır. Traktorçu Əkbər, ekskavatorçu Əsəd kimi Kərim müəllim və Vaqif müəllim də öz səhvlərinin yaddaşa çevrilmiş xatirəsində aydın görünürlər. Oxucu əmin olur ki, Kərim Narıncın məhəbbəti və uğursuz taleyi ilə yaşayır. Yazıçının Vaqif müəllimin xatirəsində yaratdığı obraz orjinaldır. İllər ötüb saçı ağarsa da, hər gün qəzetin dördüncü səhifəsində ali məktəbə qəbul elanı axtaran, öz həyata keçməyən nəcib arzusu yolunda ağlını itirsə də,

ümidini itirməyən qızın faciəsi unudulmazdır. Səhvin səmimi etirafı belə Vaqif müəllimi yüksəldə bilmir. Yazıçı onun simasında başqasının haqqını yaşayan adamın faciəsini qələmə almış, onu bir adamın yox, antiəxlaq hərəkəti kimi mənalandıra bilmişdir. Məhz bu baxımdan Rəhim müəllim **(“Aynalı gölün payızı”**) və Hüsü **(“Ağ yaylıqlar”)** elə bil ki, bir-birinin davamıdır. Ümumiyyətlə, Böyükxanın qəhrəmanları yaddaşda boy atırlar. Yazıçı qəhrəmanlarının romantik xatirələr aləminin cazibədar və məhdud çərçivəsindən çıxması qayğısına qalmalıdır. Əminik ki, Böyükxan Bağırovun həyat təcrübəsi də, istedadı da buna imkan verər.

**Nizaməddin ŞƏMSİZADƏ,**

**“Ədəbiyyat qəzeti”,** 10 oktyabr 1986 - cı il.

# Kiçik hekayələrdəki böyük həqiqətlər



1946-cı ildə anadan olmuş yazıçı Böyükxan Bağırlı (Bağırov Böyükxan Yadulla oğlu) orta təhsil aldıqdan sonra arzularının arxasınca Bakıya üz tutmuş, burada elm və təhsil məbədi olan BDU-də oxuyub jurnalist peşəsinə yiyələnmişdir. Sonra Respublika Teleradio şirkətində redaktor kimi əmək fəaliyyətinə başlamışdır. Səsi respublika radiosundan və müxtəlif mətbu orqanlardan gələn gənc jurnalist ilk yazılarından oxucularını ovsunlamış, onların qəlbinə yol tapa bilmişdir. İti və kəsərli qələmi olan, publisist kimi tanınan Böyükxan Bağırlı doğulub boya-başa çatdığı Cəlilabad rayonuna qayıdır və 1981-ci ildən burada rayonun “Yeni gün” qəzetinə redaktorluq edir. Onun baş redaktor olduğu müddətdə qəzetin tirajı on bir minə qalxmış, güclü müxbir və ştatdankənar müxbir korpusu yaradılmış, tarixə,

mədəniyyətə, folklora, idmana dair maraqlı daimi rubrikalar fəaliyyət göstərmişdir. AYB-nin və Yurnalistlər Birliyinin üzvü olan Böyükxan Bağırlı cəsarətli yazılarına görə “Qızıl Qələm” mükafatı almışdır.

Gənclik illərindən bədii yaradıcılıqla məşğul olan Böyükxan Bağırlı şeir və hekayələr yazmış, “Azərbaycan”, “Ulduz”, “Ədəbiyyat qəzeti” kimi ədəbi orqanlarda, müxtəlif ədəbi toplularda çap etdirmişdir. 1985-ci ildə “Yazıçı” nəşriyyatı “Müəllifin ilk kitabı” rubrikasından onun “Aynalı gölün payızı” adlı hekayələr kitabını çap etmişdir. Bundan başqa, Böyükxan Bağırlının 1982-ci ildə “Cəlilabad” şəkilli bukleti, 2001-ci ildə isə tibb elmləri namizədi Xazay Təhməzova həsr olunmuş “Yaşayın, insanlar” publisistik kitabı işıq üzü görmüşdür. Mətbuat səhifələrində özünə yer almış **“Qanlı düzlər”** povesti ötən yüzilliyin əvvəllərində Muğanda baş verən siyasi hadisələrdən bəhs edir. Böyükxan Bağırlı “**Alar köçü”** adlı tarixi-etnoqrafik roman yazmış, 1990-cı illərdə Cənub bölgəsində baş verən siyasi hadisələri dram əsəri kimi qələmə almışdır. Onun çoxlu radio hekayələri, ədəbi ssenariləri vardır.

Kiçik hekayələrdə böyük həqiqətləri ustalıqla verən Böyükxan Bağırlının bir yazıçı kimi yetişməsində onun jurnalistik fəaliyyəti mühüm rol oynamışdır. Publisistik yazılarını- oçerk və felyetonlarını canlı, diri, obrazlı şəkildə qələmə alan Böyükxan Bağırlı ekspressiv yazılaradək qaynar bir yaradıcılıq yolu keçmiş, həyatı obrazlı şəkildə

əks etdirmək üçün həyatın özündən dərs almışdır. B.Bağırlının hekayələrində gizli nəzm çalarları mövcuddur, bu hekayələrdə təhkiyə, əhvalatçılıq zahiri, lirizm, emosionallıq, mətndaxili poetika isə aparıcı xətti təşkil edir. Təsvir olunan həyat lövhəsi mənsur parçalarla verilir, qəhrəmanın iç dünyası, düşüncəsi mətnin alt qatındakı lirizmi qabardır. “Aynalı gölün payızı” hekayəsinin baş qəhrəmanı Rəhim kənddən Bakıya oxumağa gedir, kirayədə qaldığı ev sahibinin qızı ilə ailə həyatı qurur, anası rəhmətə gedəndən sonra isə kənddəki evlərində on il yaşamış ailənin mehribançılığını görüb həmin evi qonşusu İbiəliyə satmaq fikrindən daşınır. Halbuki, onun bu pula ehtiyacı vardı. Ev yiyəsi Nura, arvadı Mailə, onların evini Jiqulisinə qaraj etmək istəyən erməni Qarik Rəhimdən sanki bu evin satılmasını gözləyirdilər. Lakin Rəhim, İbiəlinin məktubunu cırır və bütün planları alt-üst edir: “Elə bu dəm Bakının köhnə məhəllələrinin birində Nura qışqırdı, Mailə xanımın gözü kəlləsinə çıxdı, həyətin ortasında dayanan Qarikin Jiqulisi öz-özünə yeriyib Rəhimgilin mənzilinə girdi”.

B.Bağırlının qəhrəmanları sanki real həyatla yaşamır, ideal bir aləmin insanlarıdır. Məsələn, “Aynalı gölün payızı” hekayəsində yazıçı qəhrəmanı ördəkləri üzən gölə gətirir, burada o, 20 il əvvəl yay günü çimdiyi anları o zaman sevdiyi Gülsənəmi xatırlayır. B.Bağırlının bir çox hekayələrində belə nostalji hisslər təsvir olunur. “Ağ

yaylıqlar” hekayəsində Hüsü qatarın pəncərəsindən ona ağ yaylıq yelləyən qızı görmək ümidiylə Bakıya işləməyə gəlir, burada Nərminə adlı iş yoldaşı “ağyaylıqlı” arzusu kimi onun qarşısına çıxır. Nərminə Hüsüyə qoşulub kəndə gələndə “birdən gördü ki, vaqonun pəncərəsindən bir qız qolunu çıxarıb balaca çobanı salamlayır”. Əvvəl Nərminə balaca çobana o nadinc qızın ağ yaylığına aldanmamağı tövsiyə etmək istəyir, sonra düşünür ki, həyatın qanunu belədir, ilk gənclik dövründə hər bir adamın başı üstündə ağ bir yaylıq dalğalanır və onu harasa səsləyir. Hekayədəki epizmi yazıçının lirik fikirləri belə güclü və obrazlı şəkildə tamamlayır.

B.Bağırlının nəsri ciddi araşdırmaya, təhlilə möhtacdır. Onun dili xalq danışıq dilinə yaxındır, yazıçı çoxlu dialekt sözlərini ədəbi dilə ustalıqla gətrimişdir.

B.Bağırlı əsərlərində hadisələrə obrazın daxilindən baxır, qəhrəmanın keçirdiyi hisslər, yaşadığı duyğular, xatirələr hadisənin mahiyyətini anlamaqda oxucuya kömək edir. “Çovğun” hekayəsində əri ilə arasındakı münaqişənin qurbanı olan Bənövşənin taleyi əslində onun yaşadığı mühitlə bağlıdır. Bəşər sivilizasiyasından kənarda ömrünü heyvandarlığa sərf etmiş bu ailə xoşbəxtliyin nə olduğunu bilmir. B.Bağırlı bu hekayəsində “bədbəxt mühitdə xoşbəxt həyat ola bilməz” ideyasını əsaslandırmağa çalışır və buna nail olur.

B.Bağırlı öz oxucusunu təsir altına almağı bacaran, psixoloji məqamları ustalıqla təsvir edən bir yazıçıdır. O, qəhrəmanına yaşatdığı nostalji hissləri oxucusuna aşılıya bilir, qəhrəman qəmlənəndə oxucu da qəmlənir, qəhrəman kövrələndə oxucu da kövrəlir. İlk qələm təcrübələrindən olan "Qu nəğməsi"ndə də, son vaxtlar qələmə aldığı "Çovğun"da da belə yazıçı ustalığının şahidi oluruq.

Mir Cəlal, Xalid Əlimirzəyev, Xalidə Hasilova, Əkrəm Əylisli, Vilayət Quliyev, Tehran Əlişanoğlu, Nizaməddin Şəmsizadə, Sabir Əhmədov, Sabir Rüstəmxanlı, Böyükxan Bağırlı haqqında tənqidi fikirlər söyləmişlər. Onun hekayələri YB-də müzakirə olunub, xalq artisti Rasim Balayevin ifasında səslənib və Respublika Radiosunun Qızıl Fonduna daxil edilib.

**Bilal ALARLI,**
filologiya üzrə fəlsəfə doktoru

# Arzularına çatan insan



Mən Böyükxan bəylə kənddə tez-tez rastlaşıram. Hər dəfə rastlaşanda da bir-birimizdən hal-əhval tuturuq. Bu dəfəki görüşümüz isə Günəşli kəndinə gedən yolun dayanacağından qardaşı oğlunun maşını ilə gedəndə oldu. Mən maşından düşəndə o da mənimlə endi. Onun sözlü adama oxşadığını hiss etdim. Fikrimdə yanılmamışdım. O dedi: “Müəllim, uşaqlar mənim haqqımda kitab çıxarmaq istəyirlər. Dedilər ki, sinif yoldaşlarından biri xatirə yazsa, daha yaxşı olar. Mən də onların içərisindən səni seçdim”.

Doğrusu, həm sevindim, həm də çox narahat oldum. Çünki iki il idi ki, əlimə qələm alıb, bir cümlə belə, yazmamışdım, ancaq qəzet, arada da kitab oxumaqla məşğul olmuşam. Həm də bu mənim üçün bir sınaq idi. Böyükxan bəy kimi bir adamın qarşısında oturub, bir şagird kimi imtahan vermək idi. Ona görə özümü ağır bir

“yükün” altına girmiş kimi hiss etdim. Ancaq söz ağızdan çıxmışdı, pis, yaxşı ona əməl olunmalı idi. Çünki mənim uşaqlıq, yeniyetməlik, az da olsa, gənclik illərim onunla keçmişdi.

1954-cü ildə biz Alar kənd 7- illik məktəbin 1-ci sinfinə qəbul olunduq. Onda iki 1-ci sinif var idi. Böyükxanla mən bir sinfə düşmüşdük.

Böyükxan bizim bəzilərimizdən bir yaş böyük idi. Həm də bədən cəhətdən bizdən seçilirdi. Ona görə uşaqlar arasında onun sözü daha çox keçərdi. O, sinif yoldaşlarını bir-biri ilə güləşdirməkdən həzz alardı, özü isə həmişə kənarda qalardı. Adətən, aşağı siniflərdə kimin yaxşı oxuyub, kimin pis oxumağı o qədər də bilinməzdi. Yuxarı siniflərə keçdikcə bu fərq özünü göstərərdi.

Ancaq Böyükxan aşağı siniflərdə oxuyarkən öz seçimini etmişdi: nəinki mən, demək olar ki, uşaqların əksəriyyəti hiss etmişdi ki, Böyükxan ictimai fənlərə, xüsusən ədəbiyyat və tarixə xüsusi maraq göstərir, onları sevə-sevə oxuyurdu. Məhz bunun nəticəsi idi ki, o, dərs məşğələlərində rəvan bir nitqlə mövzuları danışır, verilən sualları səlis və dürüst cavablandırırdı.

Biz səkkizinci sinfi qurtaranda (sonradan 7-illik məktəb 8-illik məktəbə çevrildi) SSRİ adlı bir ölkəni aclıq öz ağuşuna aldı. Yadımdadır, biz qarğıdalı unundan ötrü növbəyə dayanmışdıq. Bu azmış kimi qonşu Pakrovka (indiki Günəşli) kənd orta məktəbini 8-illik təhsil sisteminə

keçirtdilər. Bizim hər yerdən əlacımız kəsildi. Çünki bizdən əvvəlkilər də təhsillərini davam etdirmək üçün Pakrovka kəndinə gedirdilər. Bizlə qurtaran uşaqların hansılarının valideynləri imkanlı idi, uşaqlarını Astarxanbazar (indiki Cəlilabad) rayonuna göndərirdilər.

Uşaqların əksəriyyəti təhsilini davam etdirmək eşqi ilə alışıb-yanırdılar. O dövrdə kamal attestatı almaqda hamı maraqlı idi.

Bu zaman Xeyrulla müəllim (Allah onu rəhmət eləsin) bizi xoş xəbərlə müjdələdi. Dedi ki, məktəbimizdə orta təhsil verən axşam fəhlə (kəndli) gənclər məktəbi açılacaq.

Sevincimizin həddi-hüdudu yox idi. Demək olar ki, oğlanların əksəriyyəti sənədlərini ora verdi. Böyükxan da bizimlə idi. Həftənin beş gecəsini 4-5 dərs saatı olmaqla məşğələ keçirdik. Böyükxan yenə də ictimai fənlərdən hamıdan güclü idi. Nəinki müəllim, biz də onun danışıqlarına maraqla qulaq asardıq. Təbii ki, o, həmişə bu fənlərdən "beş" alardı.

Biz gündüzləri işləyir, gecələri dərslərimizə davam edir, səylə oxuyurduq. Beləcə illərin nə vaxt gəlib keçdiyini hiss etmədik. Bir də gördük ki, artıq 11-ci sinifdəyik.

Yadımdadır, biz 11-ci sinfi qurtarana yaxın rayon maarif şöbəsindən məktəbimizə müdir də daxil olmaqla böyük bir yoxlama dəstəsi gəldi. Müəllimlərdən kimsə şagirdlərdən pul almışdı. Onlar həmin müəllimi tapa bilməyib, şagirdlərdən qisas almağı qərara gəlmişdilər.

İmtahanlar başlamışdı. Birinci imtahanımız ədəbiyyatdan inşa yazı idi. Maarif şöbəsinin nümayəndələri də imtahanda iştirak edirdilər. Nəzarət güclü idi. Nə kitabdan, nə də şpabalkadan istifadə etmək qeyri-mümkün idi. Onlar elə bilirdilər ki, heç kim inşa yaza bilməyəcək. Ancaq gördülər ki, axşam məktəbində də inşa yazanlar var.

İnşanı hamıdan qabaq Böyükxan qurtardı. Sonradan öyrəndim ki, Böyükxan "beş", mən isə "dörd" almışam.

Elə həmin il Böyükxan bəy Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinə qəbul olundu. Tələbəlik illərində vaxt tapıb, onu yoxlamağa gedirdim. Bilirdim ki, o, gecə-gündüz mütaliə edir...

Böyükxan bəy istedadlı bir adamdır. O, ədəbiyyatı dərindən bilir. Hər üç janrda: şeir, nəsr və dramaturgiya sahəsində qələmini sınamağı bacarır. Zehni çox qüvvətlidir: saatlarla klassik və müasir şairlərimizdən şeir deməyi sevir.

Böyükxan bəyin ən qüvvətli cəhəti- tamahsızlığıdır. Məhz bunun nəticəsidir ki, bu günə kimi o, təmiz adını qoruyub-saxlaya bilmişdir.

İndi Böyükxan bəy həyatının altımış doqquzuncu ilini yaşayır. O, qızlarını köçürmüş, oğlanlarına gəlin gətirmişdir. Onun sevgisi, həyatının mənası nəvələridir.

Böyükxan bəydən yazdıqlarımdan çox yazmadıqlarım qaldı.

Mən Böyükxan bəyə uzun ömür, can sağlığı, ailə səadəti arzulayıram. Arzu edirəm ki, Böyükxan bəy həyatda "acı" çəkməsin, 100 yox, 150 il yaşasın.

**Qubad ƏLİYEV,**
təqaüdçü dil-ədəbiyyat müəllimi

# AĞ YAYLIQLAR...



İndiyə kimi oxuduğum bədii əsərlərin, baxdığım kinoların yaddaşımda qalanlarını vərəqlədikcə xatırladığım və xatırladıqca da ruhuma gənclik şövqü gətirən bir hekayəni heç vaxt unuda bilmirəm. Bu hekayənin müəllifi - istedadlı yazıçı-publisist, böyük ədəbiyyata 70-ci illərin əvvəlində şeirlə ("Qonşular" şeiri "Ulduz" jurnalı № 3, 1968-si il) gəlmiş Böyükxan Bağırlıdır.

Drayzerin "Dahi"-si, Çingiz Aytımatovun "Əsrə bərabər gün"-ü, Mirzə İbrahimovun "Pərvanə"-si yaddaşımda necə iz buraxıbsa, Onun "Ağ yaylıqlar" hekayəsi də ömrüm boyu məni tək qoymayıb. Harada insanları daşıyan qatarlar görmüşəmsə ayrılıqları düşünmüşəm. Ayrılıq haqqında düşünəndə də "Ağ yaylıqlar" hekayəsi düşüb yadıma. Indi də elə bilirəm qatarlar ancaq həsrətli insanları daşımaq üçündür.

Yazılı və şifahi həmişəyaşar ədəbiyyatı yüsək dünyagörüşlü, bilikli və istedadlı insanlar yaradıb. Qəhrəmanı zaman yetirir, deyirlər. Bu mənada

B.Bağırlının bəxti gətirib. O, kimlərdən dərs almayıb, kimlərlə tələbə yoldaşı olmayıb, kimlərlə dostluq etməyib? Azərbaycan Dövlət Univerisetinin filologiya fakültəsində oxuduğu illərdə hekayə və povestləri, publisistik yazıları ilə dövri mətbuatda müntəzəm çıxış edərək oxucuların və müəllimlərin sevimlisinə çevrilib.

Mircəlal Paşayev, Məmməd Araz, Sabir Əhmədli, Xalidə Hasilova, Nəsir İmanquliyev kimi şəxsiyyətlər vaxtında onun yaradıcılığının qiymətini verərək ("Ədəbiyyat və İncəsənət" qəzeti, noyabr, 1984-cü il) uğurlar arzulamış, ona düzgün yol göstərmişlər. Tələbə yoldaşları N.Kəsəmənli, M.Fərrux, Rüzgar Əfəndiyeva, E.Baxış, Sədayə Cəlilova, S.Səxavət, S.Rüstəmxanlı və S.Sarxanlı onun uğurlarına həmişə sevinmişlər. Azərbaycan Yazıçılar Birliyinin mətbu orqanları- "Azərbaycan", "Ulduz" jurnalları, "Ədəbiyyat və İncəsənət" qəzeti müntəzəm olaraq B.Bağırlının povest və hekayələrinə müraciət etmişlər.

B.Bağırlı ədəbi kökü olan yazıçıdır. O, ədəbi mühitin daxilində "bişərək" püxtələşmişdir. Əsərlərinin süjet xəttini insan taleləri təşkil edir. O, həm də əruzun gözəl bilicisi və təbliğatçısıdır. Məhəmməd Füzulinin qəzəllərinin gizli məqamlarını müəllimlərindən öyrəndiyi şəkildə bizlərə açır. Onunla həmsöhbət olmaq ədəbi aləmə səyahət, gözəl bir təəssüratdır. Uzun illər eyni yerdə yaşayıb tez-tez görüşdüyümüzə görə əminliklə deyə bilərəm ki, o səliqə-

səhmanı, davranışı, mükaliməsi ilə də özündən sonrakı nəsillərə bir nümunədir. Ömrünü mətbuata, yaradıcılığa həsr etmiş bu insan yorulmadan bu yolu davam etməkdədir.

Bu yol - min illərdir soyumuz, kökümüzdən süzülüb gələn şəffaf bulaq suyu qədər təmiz, şəriksiz ədəbiyyatımızdır ki, onu da qoruyub gələcək nəsillərə şərəflə miras qoyb getmək bugünkü söz, sənət fədailərinə məxsusdur.

B.Bağırlı, şükürlər olsun ki, bu gün də gənclik eşqi ilə yaşayıb yaradır. Əyalətdə yaşamağın bəzi çətinliklərinə, ədəbi mühitdən uzaq düşməyinə baxmayaraq sakit, suyu bol çaylar kimi öz axarındadır və yeni ədəbi nümunələr yaratmaqdadır. Bu gün də onun povest və hekayələri, publisistikası oxunaqlı ədəbi mətbu orqanların bəzəyidir desəm, səhv etmərəm. Bu, yaradıcı insanın ən böyük xoşbəxtliyidir.

**Gülbala TEYMUR,**
şair

# ALTMIŞINCILAR

## PUBLİSİST-YAZAR: BÖYÜKXAN BAĞIRLI



**-ÖNCƏ SİZİN ALTMIŞINCILAR HAQQINDA FİKİRLƏRİNİZİ BİLMƏK İSTƏRDİM.**

*“Altmışıncılar” dedikdə adətən yazıçıları nəzərdə tutular və bütün vurhəşir də bildiyimiz kimi hər zaman onların başında olur. Bunun nədən olduğunu mən araşdıran deyiləm, amma bunu bilirəm ki, ALTMIŞINCILAR təkcə ədəbiyyatda deyil, sənətin bütün sahələrində özlərini göstərməkdə idi. Və mənə elə gəlir ki, dünyamızın altmışıncı illəri təkcə bizim məmləkətdə deyil, başqa məmləkətlərdə də eyni anlamda intibah illəri kimi yaddaşlara həkk olunub. Məsələn, sevgili Türkiyə cümhuriyyətində ALTMIŞINCILAR adıyla bir dərnək də var. Həmişə könlüm keçib belə bir təşkilat və ya dərnək bizlərdə də olsun, amma bizlər ayrı Türkiyə ayrı. Hər zaman adları ortalıqda hallanan yazar və sənət adamları sonrakı nəsil tərəfindən heç də könül xoşluğu ilə qarşılanmayıb. Mən onların müdafiəsinə qalxmaq*

*məqamından uzağam. Mən sadəcə onlardan bəzilərini yenidən xatırlatmaq istərdim. Ən çox o yaradıcıları ki, onlar ədəbiyyatçı deyillər. Yazar-çizər deyillər. Amma bu sırada yazarlar da ola bilər.*

**- Daşlaşmış "ALTMIŞINCILAR" sırasına salınmayan ALTMIŞINCILAR da olub. Kimlərdir bunlar?**

- Tofiq bəy, Altmışıncılar bir vaxtlar ədəbiyyatımızın üfüqlərində parlayan dan ulduzları idilər. Aydın bir səhərin yaxınlaşmasından xəbər verən, milləti bu aydın səhəri qarşılamağa səsləyən, oyanmağa, yuxudan qalxmağa haraylayan dan ulduzu. Onlar - altmışıncılar bədnam sosializm-realizmi deyilən kiflənmiş yapma yaradıcılıq metodunun buxovları altında nəfəsi tıncıxan ədəbiyyatımıza yeni bir ab-hava, iqlim gətirdilər. Onların rübabı qırmızı aprel işğalından sonra yasaq edilmiş türkçülük, azərbaycançılıq ideyalarının, milli-mənəvi dəyərlərimizin təbliği, tərənnümü ruhunda köklənmişdi. Altmışıncılar ədəbiyyatımızda milli oyanış təbilini çalan, bolşevik konyukturasına deyil, milli təfəkkürün, milli mənlik şüurunun çiçəklənməsinə xidmət edən sənət fədailəridir. Bu cəhətdən onları zülm və istibdadın hökm sürdüyü qaranlıq mühitdə Rusiya torpağına azadlıq toxumu səpən narodvolçulara bənzətmək olar. Altmışıncıların yaradıcılığında xalqı narahat edən, düşündürən problemlər

cəsarətlə qabardılır, bədii söz xalqın arzu və istəklərini ifadə edirdi. Sovet ideologiyasının tüğyan etdiyi bir dövrdə sətiraltı mənaları acı həqiqətləri əks etdirən, oxucuların qəlbinə milli mənlik hissləri aşılayan əsərlər çap etdirmək heç də sadə və asan məsələ deyildi. Bu əsərləri yazan o zamankı gənclər – altmışıncılar rejimin qazdan ayıq məmurları tərəfindən izlənir, müxtəlıf xoşagəlməz təzyiqlərə məruz qalırdılar. Səhv etmirəmsə, Tofiq bəy, o dönəmdə siz özünüz də izlənilənlərdən biri olmuşsunuz. Bu barədə kitabınızda oxumuşam. Bütün bu təqiblərə, hədə-qorxulara rəğmən altmışıncılar ədəbiyyatımız qarşısında öz vəzifələrini vicdanla yerinə yetirmişlər. Əlbəttə, öz ədəbi-bədii imkanları, istedadları çərçivəsində. Diqqəti çəkən cəhətlərdən biri də odur ki, altmışıncılar o zaman ədəbi aləmə atılarkən özlərindən əvvəlki nəsillərin ədəbi irsinə hörmətlə yanaşmış, nihilistcəsinə onları təkzib etməmişlər. Təəssüf ki, indi bəziləri altmışıncılara qısqanc münasibət sərgiləyir, onların ədəbiyyatımız qarşısındakı xidmətlərini dəyərləndirmək əvəzinə, barələrində qeyri-obyektıv fikirlər söyləyirlər. Bu, əlbəttə, yaxşı iş deyil. Altmışıncılar azdan- çoxdan, bacardıqlarını ediblər və bu gün də qələm əllərindədir. Onlara qiymət verərkən ədəbiyyat aləminə atıldıqları dövrün sərt qadağalarını, amansız senzurasını yaddan çıxarmaq olmaz. İndi, müstəqillik dövründə cəsarətlı söz deməyə nə var ki. Senzura yox, qadağa yox. Odur ki, ədəbiyyatşünaslıq

elmi, ədəbi tənqid tərəfindən vaxtilə altmışıncıların ədəbiyyatımıza yeni bir iqlim, milli ruh gətirməsi məsələləri diqqətlə araşdırılıb tədqiq olunmalıdır.

- ***Bəlkə bir az geniş tanış olaq.Təbii ki, Böyükxan Bağırov (Bağırlı) imzasıyla indiki gənc yazarlar çox az tanışdı və çoxdan tanış olsaq da, mən də sənin bioqrafiyana çox-az bələdəm. Elə bir rayondansan ki, orada ədəbiyyat mən bilən bir o qədər də populyar deyil: məsələn, Qazax kimi, Tovuz kimi, lap elə Səlyan kimi… Bu rayonlardan ən azı bir neçə ədəbiyyatçı-yazar adı çəkmək mümkündü. Amma sənin doğulduğun yer bir az başqa səpkidə bir yerdir.***

**- NECƏ OLDU Kİ, JURNALİSTİKANI VƏ YAZARLIĞI SEÇDİNİZ? DOĞRUDUR, YAZARLIQ SEÇİLMİR. BUNU HAMIMIZ BİLİRİK.**

- Mənim yazı-pozuya meylim içində boya-başa çatdığım mühitlə bağlıdır. Gözümü açanda ətrafımda nağılçıları, avazla qəsidə oxuyan dərvişləri, el arasında "Lotu" adlandırılan xalq məzhəkəçilərini, növbə ilə uzun qış gecələri ayrı-ayrı məhəllələrdə haqq aşiqləri barədə dastanlar söyləyən telli saz ustalarını, ilaxır çərşənbə gecələrində çillə çıxaran, dilək tası quran sevdalı qızları, Kərbəla müsibətindən əhvalatlar söyləyən rövzəxanları,

bekarçılıqdan kəndin o baş, bu başında şayiələr yayan, hədəfə gələn, tilova düşən, “zır kəndçi” deyilən müəyyən avam, suyu şirin adamlar barədə söz çıxardıb belələrini bir günün ərzində dəli eləyib çöllərə salan baməzələri, yazda havalar qızanda ilan tutan ovsunçuları, düyün çalanları, tas quranları, divara arpa yeridən cadugərləri, hoqqabazları… görmüşəm. Bütün bunlar zəngin bir aləm idi. Mənim uşaq təsəvvürümdə bu tiplərin hər birinin öz rəngi, öz çaları, öz səsi, ritmi var. Aradan uzun illər keçməsinə baxmayaraq, uşaq vaxtı gördüyüm bu adamların səsləri, sözləri hələ də qulağımdadı. Onların görünüşü, jesti gözlərimin önündədir. İlan tutan ovsunçu Yarpaq nənənin ontaxda qanovuz tumanının xışıltısını indi də eşidirəm. Yaxud nağılçı Cullan dayının əvvəl-əvvəl “nağıl-mağıl bilmərəm, bilsəm də, söyləmənəm…” deyə özünü mazata qoyması, masqurada gətirilən sarı nehrə yağını yeyib bığını sığallayandan sonra “Hə…Şah Abbas cənnətməkan, tərəziyə vurdu təkan, bir qoz, bir girdəkan” deyə qızışar, sicilləmədən sonra keçərdi nağıla. Keçən əsrin əllinci illərinin əvvəllərində, kəndimizdə handa bir adamın evində radioqəbuledici olduğu bir dövrdə rəhmətlik Cullan dayının nağılları qaranlıq mühitə işıq saçır, xüsusən uşaqların xatirində silinməz izlər buraxırdı. Biz bu nağıllarla yaşayır, bu nağıllarla böyüyür, qol-qanad açırdıq. Yadımdadı, 1952-ci ildə qarlı-şaxtalı bir qış gecəsində, kəndimizi gəzib dolaşdıqdan, əzik-üzük

səhifələri yaman günə düşdükdən sonra bizim evə qara meşin cildli bir kitab gəlib düşmüşdü. “AŞIQLAR” kitabı. Latın qrafikalı bu kitabı bizə onun içindəki dastanları əzbər bilən Qaraxan adlı yaxın qohumumuz gətirmişdi. Həmin dövrdə gənclik illərini yaşayan Qaraxan bibioğlunun yaxşı səsi vardı. Bal kimi şirin, lirik tenor səsiylə “Kərəm gözəlləməsi” üstündə xırda-xırda gəzişər, yeddilik lampa ətrafına toplaşan qohum-əqrəbanı feyziyab eləyərdi.

**- Maraqlısı budur ki, nə yaxşı o dastanlar səni poeziyaya yox, məhz nəsrə dartıb?**

- Həqiqətən də elədi. 1954-cü ildə Alar kənd yeddiillik məktəbin birinci sinfinə gedəndə bu kitabdakı bütün dastanları, demək olar ki, əzbər bilirdim. Latın qrafikasını da öz-özümə öyrənmişdim. Məktəbimizin müəllimləri məni ayrı-ayrı siniflərə aparıb “Aşıqlar” kitabını, “Koroğlu” dastanını oxutdurardılar. Bir az sonralar əsgərlikdən qayıdan və Mingəçevirə gedib orada fəhlə işləyən böyük qardaşım Əliheydərin bir payız axşamı Ordubadinin “Qılınc və qələm” romanını özü ilə evimizə gətirməsi heç yadımdan çıxmaz. Həmin payız axşamının dadı, tami hələ də damağımdan çəkilməyib. O axşam qardaşım qaz kəsdi, anam boranıplov bişirdi, manqalda çay dəmlədi. Süfrə hələ hazır olmamış bir də gözümüzü açıb gördük ki, evimizə xeyli qonaq gəlib. Hamısı da öz yaxınlarımız idi.

Sən demə, kimsə Əliheydər qardaşımın qoltuğunda "Qılınc və qələm"i görübmüş və ilmə də ondan keçibmiş. Həmin dövürdə, ucqar bir kənddə "Qılınc və qələm" romanı böyük bir qənimət idi. Hamı bu əsərdən danışırdı. Bu kitabdan, deyirdilər ki, kənd kitabxanasına cəmi bir nüsxə göndəriblər, onu da müharibə veteranı olan kənd sovetinin sədri aparıb qoymuşdu evinə… Müxtəsər, həmin payız axşamı qardaşımla Məzahim dayım növbə ilə romanı oxuyurdular. Anam iki dəfə lampaya nöyüt tökdü. Beləliklə, kitabın oxunuşu bir həftədən çox çəkdi. Müharibədən baş leytenant rütbəsində orden-medalla qayıtmış Zöhrab əmim əlini əlinə vurub deyirdi: "Pah atonan sənin arvad yiyəsi, bu Qətibə (romandakı Qətibə surətini nəzərdə tuturdu) gör nə işlər gördü, nə oyunlar çıxartdı!.. Allah bizi məkri-zənənnən qorusun…" O zaman mən qonaqlar gedəndən sonra yorğanı çiynimə çəkib, yalan olmasın, ta sübhə kimi bu romanı ayrı bir gözlə, xüsusi bir ləzzətlə oxuyar, şagird dəftərimə özümçün qeydlər edərdim.

O ki, qaldı sualınızın "NECƏ OLDU JURNALİSTİKANI VƏ YAZARLIĞI SEÇDİNİZ" cavabına, doğrusu, durum deyim ki, mən nəsə düşünüb-daşınıb seçim eləmişəm, belə şey olmayıb, həyatın öz axarı məni gətirib yazı-pozu işinə çıxarıb. Yəni bu, sümüyümdə olub. Hacı Qaranın sözü olmasın, mən yazı-pozunu yox, onlar məni əyləyib.

1962-ci ildə 8-ci sinfi bitirəndən sonra yaşlı valideynlərimə kömək məqsədi ilə kəndimizdəki Əzizbəyov adına kolxozda işə düzəldim. Arıq, cılız, təcrübəsiz bir yeniyetmə olmağıma baxmayaraq, yaşca məndən böyük olan iş yoldaşlarımla ayaqlaşmalıydım ki, onlar məndən briqadirlərə, baş aqronoma şikayətlənməsinlər. Biz su arxlarını təmizləyir, tirə çəkir, dəmiryolu stansiyasından pambıq çiyidi, dərman preparatları, müxtəlif mal-material daşıyırdıq. Sonra məni taxıl xırmanına göndərdilər, burda elevatorla taxıl təmizləyirdik. Səhərdən axşamadək tozun-torpağın içindəydik. Payıza dönəndə məni elevatordan ayırıb kolxozun ağır işlərinə göndərdilər. Odur ki, işə çıxmadım. Kolxozda əkin texnikasının taxıl səpininə hazır olmaması barədə tənqidi məqalə yazıb, Biləsuvarda çıxan rayonlararası "Məhsul" qəzeti redaksiyasına göndərdim. Məqalə tez çap olundu. O, kənddə bərk səs-küy salmışdı, məni kolxoz sədrinin yanına çağırdılar. Getdim. Sədrin yanında ucaboy, orta yaşlı, saçları seyrəlmiş, səliqə-sahmanlı bir kişi əyləşmişdi. İti baxışları diqqəti cəlb edirdi. Öyrəndim ki, bu adam Astraxanbazar (indiki Cəlilabad) Rayon Partiya Komitəsinin məsul işçisidir. O, birdən yumruğunu stola vurub məni hədələdi: "Cavan oğlansan, - dedi, - indidən demaqoqluq edirsən".

Mən təmkinimi pozmadan sakit bir tonda cavab verib dedim:

- İndidən eləməyim, sonraya saxlayım, yəni deyirsiz hələ tezdir?!

Kişini gülmək tutdu. "Ə, sən yaxşı kişinin oğlusan, - dedi, - otur izahat yaz, məqalənə düzəliş ver. Yaz ki, cavan olmuşam, səhv eləmişəm..."

- Siz Lenin komsomolçusuna, - dedim, - belə tərbiyə verirsiniz, onu bu sayaq əyri yola çəkirsiniz?! Yaxşı olar ki, düzəlişi mən yox, kolxoz rəhbərliyi eləsin, texnikanı əkinə vaxtında hazırlatdırsın...

Əlbəttə, bu həngamədən sonra mən kolxozda işləyə bilməzdim, işdən çıxdım. Oturub "Anbardar" adlı bir pərdəli, iki şəkilli komediya yazdım. Kənd Mədəniyyət evinin direktoru, rəhmətlik Tarverdi Əliyevin xeyir-duasıyla bu komediyanı kənd cavanlarının - həvəskar aktyorların ifasında tamaşaya qoyduq. Özüm baş rolda oynayırdım. Tamaşa kənd klubunda göstərilərkən, yalan olmasın, iynə atsaydın yerə düşməzdi. Klub ağzınacan adamla doluydu. Tamaşa böyük uğur qazanmışdı. Kənddə hamı ondan danışırdı. Sorağı bütün rayona yayılmışdı. Həvəskar rejissor Əlifağa Həsrətovun verdiyi quruluşda bu tamaşa rayonun bir çox yaşayış məntəqələrində nümayiş etdirildi. Bundan sonra kolxoz sədri məni yanına çağırıb dedi: qayıt işinə. Razılaşmadım, əvvəla, kolxozda əməkhaqqını gec, bəzən ilin yekunlarına görə verirdilər, ikincisi, özümə yaxşı iş tapmışdım.

**- İLK QƏLƏM MƏHSULUNUZ?**

- Puşkin rayon (indiki Biləsuvar) Mexaniki Suvarma İdarəsində maşinist vəzifəsində çalışırdım. Həm də müəssisə rəhbərliyinin, ictimai təşkilatlarının orqanı olan "İrriqator" divar qəzetinin müəlliflərindən biri kimi tanınmışdım. Bir gün, səhv etmirəmsə, bu, 1964-cü ilin noyabr günlərindən biri idi, idarəmizin rəisi İmran Məmmədov məni kabinetinə çağırtdırıb dedi: "Oğlum," "İrriqator"da məqalələrinizi oxuyuram, sən bizə yaxşı kömək edirsən. Qorxma, heç kimdən çəkinmə. Gördüklərini yaz. Mexaniki yığma sexindən yazdığın tənqidi məqaləni yoxlatdırmışam, düz yazıbsan, onu müzakirə eləyəcəyik. İndi isə get "Məhsul" qəzetinin redaktoru Həmdulla Əzizovun yanına. Demişəm, o səni qəbul edəcək. Məqalələrinin çap olunmasına köməklik göstərəcək. Həmdulla Əzizov xeyirxah, qayğıkeş bir insandı. O, mənə yaxşı tövsiyələr verdi, əlindən gələn köməyi etdi. Sonralar isə bu kişinin, eləcə də istedadlı jurnalistlər Əlövsət Bəşirovun və Dilarə Vəkilovanın zəmanəti ilə SSR Jurnalistlər İttifaqına üzv qəbul olundum...

**- Keçənlərdə sənin "ulduz" jurnalında bir hekayən çıxmışdı və orada yekə-yekə yazmışdılar əyalət - Cəlilabad. Nə deməkdi bu? Boynuna bir minnətmi qoyurlar. Sən bilən nə deməkdi bu əyalət yazıçısı?**

- Dediyin o hekayə "Ulduz " jurnalının onuncu sayında dərc olunub. Soruşa bilərsən: Bəs niyə "Ulduz"da? Bu, qəlbimdəki nostalji bir hiss, duyğuyla bağlıdı. Mənim ilk ədəbi yazım - "Qonşular" sərlövhəli şeirim unudulmaz şairimiz Məmməd Arazın xeyir-duasıyla 1968-ci ildə "Ulduz" jurnalının üçüncü sayında dərc olunmuşdu. Gənclik illərimdə hər bir sayını oxuyub, yatandan sonra başımın altına qoyduğum "Ulduz" bu gün də mənimçün doğmadır, əzizdir. Jurnalın saylarını diqqətlə izləyirəm. Gənc həmkarlarımın uğurlu axtarışları, həqiqi, istedadın bəhrəsi olan yazıları məni sevindirir və mən bu yazılara istinadən ədəbiyyatımızın sabahına çox nikbin baxıram. "Ulduz"da dərc olunan "Tələ" adlı hekayəmə gəldikdə, bunu deyə bilərəm ki, müəllif kimi mənimçün əsas onun "Əyalət" və qeyri hər hansı bir rubrika altında verilməsindən asılı olmayaraq, çap edilməsidi, oxucuya çatdırılmasıdı. Bu işi də, sağ olsunlar, "Ulduz"un redaktoru və şöbə müdiri görüblər. Mən o hekayəni yazmaqla əslində azarımı öldürmüşəm. Yaxından tanıdığım, hər gün təmasda olduğum bu tipləri "Ulduz"un oxucularına göstərmək istəmişəm. Qaldı ki, yazıçının əyalətdə, yaxud mərkəzdə yaşamasına, məncə, bunun məsələyə nə dəxli var?! Harda və necə yaşamasından asılı olmayaraq yazar elə yazardı. Yox, söhbət onun ədəbi məhsulunun keyfiyyətindən gedirsə, bu ayrı məsələdi. Məsələn, indiyə kimi "Ədəbiyyat qəzeti" mənim xeyli hekayəmi dərc eləyib. Amma heç birinin üstündə "Əyalət" sözü yazılmayıb. Heç

"525-ci qəzet"in 8 dekabr tarixli (2010-cu il) sayında dərc olunmuş hekayəmin üstündə də "Əyalət" sözünü görmədim. Yazsaydılar da, yenə deyirəm, mən inciməzdim. Mənimçün əsas azarımın öldürülməsidir. Mənim elə bir iddiam yoxdu, redaksiyaları heç narahat etməyə də bilərəm. Mənimçün əsas məsələ yazı yazmaqdır, ürəyimi boşaltmaqdı. Olmasın bir parça kağız, yaxud qəzet, jurnal səhifəsi, yeri düşəndə arada bəzən ürəyimi, yaşıl yarpaqlara, səmada üzən aya, ulduzlara boşaldıram. Kağız-qələm tapmayanda ağzımı quyuya tutub: "İskəndərin buynuzu var-buynuzu..." deyir və cəmiyyət qarşısında öz mənəvi borcumu yerinə yetirdiyimə görə mənən özümü bir az rahat hiss edirəm.

**- Bir yazar olaraq sənin yazılarında çox gözəl bir kolorit duyulmaqdadı və bilirəm ki, sən bu şəhərlə də çox bağlısan. Ancaq bütün hekayələrində cənuba bağlılıq və cənub aksenti çox seçilir. Sizin tərəflərdən olan neçə-neçə yazarda bunu hiss etmək çox çətindi.**

- Yazılarımda dediyin o, koloriti ilk dəfə ustad yazıçımız Sabir Əhmədli duymuşdu. Hekayələrimi oxuduqca altdan-altdan qımışdığını görmüşəm, bir çox gənc yazarların yazılarını bəyənməyərək üstlərinə atan, ümumiyyətlə, rəhbərlik etdiyi nəsr şöbəsinnən yazı keçirmək çox müşkül məsələ olan Sabir Əhmədlinin "Ədəbiyyat qəzeti”ndə hekayələrimə səxavətlə yer ayırması, bəlkə də, o koloritlə bağlıdır.

**- Sizinlə razıyam, amma bu da var ki, şərti olaraq deyə bilərik ki, cənub ləhcəsi yazılarınızda açıq-aydın görünməkdədi...**

- Bildiyin kimi, mən Cənub bölgəsində, bir vaxtlar yaşadığın Pokrovka kəndi ilə qonşu olan Alar kəndində doğulub boya-başa çatmışam. Bizim alarlıların, yaşlı nəslin dediyinə görə, kökü Altaylara, Sibir çöllərinə, daha sonra Cənubi Azərbaycanın Urmiya gölü ətrafına, Şahdağı mahalına, Ərdəbil dövrəsinə gedib çıxır. Düzünü Allah bilir. Ana tərəfdən isə, Cənubi Azərbaycanın Ərşə mahalıyla bağlılığımız var. Bizim evdə, kəndimizdə, demək olar ki, bütün rayonumuzda, eləcə də, qonşu Yardımlı rayonunun kəndlərində də hamı Cənubun Ərdəbil dövrəsinin ləhcəsində danışır. Sərhədlər açılanda, bir neçə dəfə yolum İrana düşmüşdü. Gedib gördüm ki, Ərdəbildən tutmuş ta Təbrizəcən hamı bizim ləhcədə danışır. Odur ki, orda darıxmadım, özümü onlardan biri hesab etdim. Adamlara qaynayıb-qarışdım. Yadımdadı, bir dəfə mən, birinci kursda tarix dərsində çıxış edərkən qeyri-ixtiyari olaraq Cənub ləhcəsində ağzımdan sözlər çıxdı. "Ir", "ir", "r" xəbər şəkilçilərini "ey" sonluğuyla əvəzlədim. Bir də gördüm ki, hamı mənə baxır və qımışır.

**- "İNTELLEKTUALLIQ YAZARA HARACAN LAZIMDIR?"**

- “İntellektuallıq yazara haracan lazımdır” sualınıza gəldikdə isə, onu deyə bilərəm ki, bu barədə xalqın gözəl

bir ifadəsi var: "buynuz qoça ağırlıq eləməz". Nə olar, qoy yazıçının intellektual səviyyəsi şkalanı vurub keçsin. Lakin Puşkinin, Qoqolun, Tolstoyun, Çexovun, Folknerin, Hemenqueyin, Mirzə Cəlilin, Sabirin, İlyas Əfəndiyevin, Anarın, Elçinin, Əkrəm Əylislinin, Yusif Səmədoğlunun ədəbi irsinə nəzər yetirərkən, şəxsən bir oxucu kimi mən özlüyümdə bu qənaətə gəlirəm ki, yazıçılıq üçün əsas şərt Allah vergisi və istedaddır. Əgər belə olmasaydı, onda ədəbiyyat nəzəriyyəsini, ədəbi qayda-qanunların həçə-püçəsini hamıdan yaxşı bildiklərinə görə ədəbiyyat üzrə professorlar, akademiklər bu əziyyətli və şöhrətli peşədən ikiəlli yapışardılar. Yaxud yüksək intellektə malik olan M.Şahtaxtinski kimi alimnüma bir naşir "Şərqi-rus" qəzetində kömbəni Mirzə Cəlilin deyil, elə öz qabağına çəkərdi. Neyniyəsən ki, Allah-təala istedadı hər adama vermir. İntellekt gücünə yazılan bədii əsərlərə gəldikdə isə, onlar istiliyi, hərarəti olmayan ay işığına bənzəyirlər. Məncə intellektuallıq yazıçının içindən gəlməlidir. İntellektuallıq naminə intellektuallığı, vallah, şeytana papış tikən qazdan ayıq müasir oxucu həzm eləmir, intellekt ilə yüklənmiş soyuq, bumbuz, qəliz mətnləri bir tərəfə atıb: "Pah atonnan... yox əşşi..." deyir. Bu gün də aktuallığını itirməyən, sevilə-sevilə oxunan Mirzə Cəlil nəsrinin həmişəyaşarlılığının, müasirliyinin sirri onun bədii məziyyətləriylə yanaşı, sadəliyində, dilinin şirinliyində, aydınlığındadır. Ədəbi tənqid, ədəbiyyatşünaslıq

sahəsində də sadəliyi, elmi rəvanlığı, təhkiyə duruluğunu ədabaz akademizm əvəzləyəndə, "Mən Tarixi-Nadiri yarıya qədər oxumuşam..." deyən Məşədi İbadın məşhur qınağı yada düşür. Məsələn, mən bir oxucu kimi xalq yazıçısı Elçinin sadə dildə yazdığı nəsr əsərləri ilə bərabər, onun ədəbi-tənqidi məqalələrini, elmi araşdırmalarını da həvəslə oxuyuram və bundan böyük zövq alıram.

- **Yeri gəlmişkən, altmışıncı illərdən bizim ortaq tanışımız, dostumuz bir yazar vardı sizin tərəflərdən, QASİD NAĞIOĞLU. İndi nə ilə məşğuldur. Şair Abbasağanı xatırlayırmı sizin o gözəl məmləkətdə, yəni heç olmasa yas mərasimlərində o yada düşürmü?**
**- "...bir yazar vardı..."**

- Təsəvvür edin ki, mən sizin suallara cavab verdiyim zaman (yəni mart ayında) o sağ və salamat idi. İndi isə yoxdu. Onun qəfil itkisi bütün qələm dostlarını şoka saldı. Vaxtı ilə "Qobustan" toplusuyla əməkdaşlıq etdiyi, sizinlə ünsiyyətdə olduğu illəri dərin ehtiramla xatırlayırdı. Şair Abbasağaya gəldikdə isə, onun əziz xatirəsi həmişə məclislərimizdə böyük ehtiramla yad edilir. Unudulmaz şairimizin doğulub boya-başa çatdığı küçə indi Cəlilabad şəhərində onun adını daşıyır.

**- Sualımızın cavabı yarımçıq qaldığı üçün onu oxuculara bir də xatırladıram: Bir yazar olaraq sənin yazılarında çox gözəl bir kolorit duyulmaqdadı və bilirəm ki, sən bu şəhərlə də çox bağlısan. Ancaq bütün hekayələrində cənuba bağlılıq və cənub aksenti çox seçilir. Sizin tərəflərdən olan neçə-neçə yazarda bunu hiss etmək çox çətindi. Heç uzağa getməyək: çox istedadlı şair və yazar Aqşin Yenisey... bax ha... təxəllüsə bax... YENİSEY. Məsələn Sergey Yesenin yada düşür. Və onun yazılarında həmişə bir intellektuallıq özünü büruzə verir və bunu onun yazarlar haqqında yazılarında da görmək mümkündü. Məsələn, yazar Kamal Abdulla haqqında yazısı məhz bu əynəmdə yazılmış bir yazı idi. Sən bilən intellektuallıq yazara haracan lazımdı. Və ya zorla intellektuallıq haqqında fikriniz nədir?**

**-** AZƏRBAYCAN TARİXİNDƏN BİZƏ MÜHAZİRƏ OXUYAN RƏHMƏTLİK LƏTİF ƏSGƏROV MƏNİM SIXILDIĞIMI GÖRÜB DEDİ: "Siz bu oğlana gülməyin, o özüylə birlikdə auditoriyamıza Cənub ab-havasını gətirib. Sizin hər birinizin mənsub olduğunuz bölgənin ləhcəsində, uzaqbaşı, bir-iki milyona yaxın adam danışır, amma bu oğlanın ləhcəsində ən azı on milyondan çox Azərbaycan türkü bir-biriylə kəlmə kəsir, ünsiyyətdə olur..." Sonra Lətif müəllim əlavə elədi ki, xalqımızın ən gözəl ədəbi

abidələrindən biri olan "Heydər babaya salam" əsəri Cənub ləhcəsində yazılıb. "Kitabi-Dədə Qorqud" dastanları da Təbriz aşıqlarının dilindən yazıya alınıb. "Koroğlu" eposu da həmçinin. Cavandım. Bu sözlərdən sonra qoltuğum şişdi. Bir az da məşhurlaşdım. Yaşa dolduqca hiss etdim ki, dil baxımından, Cənub bölgəsində böyük bir xəzinə var. Bu xəzinənin qapılarını açmağa xiridar gərək. Ləhcəyə gəldikdə isə, o, hər hansı bir bədii əsərdəki surətlərin dilində, özü də zəruri hallarda özünü göstərə bilər. Bir şərtlə, dilimizin ədəbi qanun və normalarına ziyan vurmadan. Koloritə gəldikdə isə o, yazının ruhunda, canında və qanında olmalıdı. İsa Hüseynovun "Kollu koxa" povestində, İlyas Əfəndiyevin "Körpüsalanlar" əsərində, Sabir Əhmədlinin "Yamacda nişanə" kitabında olduğu kimi.  Bu barədə çoxlu misallar çəkmək olar. Amma bununla belə, dilimizdə lüğət kitablarına, sözlüklərə düşməyən xalqın gündəlik həyatında gen-bol istifadə etdiyi nə qədər canlı sözlər, gözəl ifadələr var. Onlar nə üçün ədəbiyyatımıza  gətirilməsin? Yeri gələndə, dilimizin ədəbi normaları dediyimiz çərçivəni sındırmaq olar - lüğət fondumuzun zənginləşdirilməsi naminə. Bu çərçivələr, qəfəslər giriftarı olmaqdan qurtulmaq gərək.

**NECƏ Kİ, NƏSİMİ DEYİRDİ:"...Sındır qəfəsi, tazə gülüstan tələb eylə".**

Əgər Puşkin, Qoqol, Turgenev və digər rus klassikləri ədəbiyyata yeni sözlər gətirməsəydilər, görün rus ədəbiyyatı nə qədər kasıb görünərdi. Mən böyük söz ustadımız Rəsul Rzanın "Qızıl gül olmayaydı", Səməd Vurğunun "Muğan", "Aygün", Nəbi Xəzrinin "Günəşin bacısı", Bəxtiyar Vahabzadənin "Etiraf", "Muğam", Əli Kərimin "İlk simfoniya", İsa İsmayılzadənin "Böyüdülmüş şəkillər" poemalarını, böyük şairimiz Məmməd Arazın təbiət mövzusunda yazdığı şeirləri, eləcə də Vaqif Bayatlının "Qonşu toyuna oynayan uşaq" şerini, Anarın "Dantenin yubileyi" povestini, "Yaxşı padşahın nağılı" hekayəsini, Bayram Bayramovun "Karvanyolu", İsmayıl Şıxlının "Dəli kür", Sabir Əhmədlinin "Gülmalı kişinin axırı", İlyas Əfəndiyevin "Geriyə boylanma, qoca", Elçinin "Ölüm hökmü" romanlarını, Əkrəm Əylislinin "Kür qırağının meşələri", Mövlud Süleymanlının "Dəyirman" povestlərini dönə-dönə oxumaqdan doymuram. Ona görə ki, bu əsərlərdə xalqımın ruhu, ürəyinin çırpıntıları, dilinin dadı-tamı var. Bu əsərlərin müəlliflərinin imzalarını gizlətsən, göstərməsən, yaxud sürətlərin adlarını digər millətlərin adlarıyla əvəzləsən də, mətnlərin koloritindən bilinəcək ki, bu yazılar məhz Azərbaycan xalqına, Azərbaycan təfəkkürünə məxsusdur. Əlbəttə, bu sözləri kitablardan, yaxud ədəbiyyatdan ədəbiyyata gələn intellekt "Dibçək güllərinin" - özlərini super yazar kimi təqdim edənlərin, savad gücünə quraşdırıb-uydurduqları və pişik alması kimi

müxtəlif nəşrlərdə tez-tez oxucuların qabağına çıxıb, onların ovqatını təlx eyləyən əndərəbadi sicilləmələrinə aid etmək olmaz. "Bu dibçək güllərinin" yazılarına nə qədər intellekt enerjisi yüklənsə də, xalqın ovqatını əks etdirən bədii söz baxımından müqayisədə onlar dərman və rayondakı kalorili yem gücünə  çəki artımı verən, günəşin altında gəzişib yaşıl otlarla qidalanmayan dadsız-tamsız yekrəng  fabrik toyuq-cücələrinə bənzəyir. Müqayisə, bir az kobud çıxsa da, bu həyat həqiqətidir. İş onda mütəqəlqəl olur ki, bu intellekt-yazarlar vəzifə, mənsəb sahibi olalar. Belələrinin dövrəsində fırlananlar başlayırlar onların ora-burasına xına yaxmağa. Bir deyən də yoxdur ki, ay qardaş, həvəsdi, bəsdi. Ayıbdı axı, bu adamlar nə Çexovdu, nə Mirzə Cəlil, nə Çəmənzəminlidir, nə də Ənvər Məmmədxanlı".

**- Siz tərəflərdən baxanda Azərbaycan nəsri necə görünür və Siz dünya ədəbiyyatı ilə ayaqlaşa bilirsinizmi, öyrənmək baxımından.**

- Zəmanədən gələn müəyyən çətinliklərə, qadağalara, ideoloji basqılara baxmayaraq Azərbaycan nəsri son yüz əlli ildə böyük inkişaf yolu keçib və bu barədə çox yazılıb, çox deyilib. Çağdaş nəsrimizin üfüqləri getdikcə genişlənir və bu bir oxucu kimi məni sevindirir. Anarın "Ağ qoç, qara qoç", "Otel otağı", Əkrəm Əylislinin "Ətirşahmasan", Elçinin "Ölüm hökmü", Sabir Rüstəmxanlının "Ölüm

zirvəsi", Elçin Hüseyinbəylinin "Balıq adam", Kamal Abdullanın "Yarımçıq əlyazma", İlqar Fəhminin "Aktrisa", Nəriman Əbdülrəhmanlının "Yalqız", Seyran Səxavətin "Yahudi əlifbası" romanları, məncə, çağdaş nəsrimizin uğurlarındandır. Ürəkaçan cəhəd odur ki, son illər nəsrimizə Pərviz, Nərmin Kamal, Aslan Quliyev, Aqşin Yenisey kimi istedadlı nasirlər gəlmişlər. Onların simasında nəsrimizin irəli gedəcəyinə ümidim çoxdur. O ki, qaldı dünya ədəbiyyatı ilə ayaqlaşmağa, bu çətin məsələdi. Avropa dillərindən müəyyən qədər ingilis dilinə bələdçiliyim var, gec də olsa bu dili həvəslə öyrənirəm. Nə yaxşı ki, bu sahədə Azərbaycan Tərcümə Mərkəzi və onun "XƏZƏR" dünya ədəbiyyatı jurnalı dadımıza çatır. Bu jurnal-xəzinə əlimizdən tutub bizi dünyanın nəhəng söz ustaları və onların ədəbi inciləri ilə tanış edir. Son illər bu jurnalda Afaq Məsud,Tehran Vəliyev, Saday Budaqlı, Rövşən Ramizoğlu, İlqar Əlifoğlu, Nəriman Əbdülrəhmanlı, Natiq Səfərov, Cavanşir Yusifli, Orxan Budaqlı kimi istedadlı tərcüməçilərin çevirmələrində Folknerin, Borxesin, Jorj Amadunun, V.Nabokovun, Kenzi Maruyamanın, Otar Çıladzinin, Tomas Vulfun, Moris Meterlinkin və dünya şöhrətli digər yazıçıların şedevrlərindən seçmələrlə tanış olmuşam. Lap elə bu günlərdə 2009-cu ilin Nobel mükafatı laureatı, alman yazıçısı Herta Müllerin "Nəfəs yelləncəyi" romanını oxudum (Zaur Səttarlı və Qurban Dağlının çevirməsində),

yetərincə zövq aldım, təsirləndim. Günlərin bir günündə "XƏZƏR" jurnalını vərəqləyərkən gözüm bir sərlövhəni tutdu: F.M.Dostayevski. "Karamazov qardaşları" (romandan parça). Görkəmli yazıçımız Afaq Məsudun çevirməsində bu parçanı oxumadım, su kimi içdim, yenə doymadım. Bir də içdim və Azərbaycan dilinin zənginliyinə, var-dövlətinə, öz qapısını dahi rus yazıçısının üzünə necə səxavətlə açıb, qonaqpərvərcəsinə zər-zibasını göstərməsinə heyran oldum...

**- Bir tərəfdən baxanda vallah, səni xoşbəxt yazar və insan kimi görürəm. Elinə, obana yaxın və bağlı bir ziyalı kimi yaşamağa davam edirsən. Darıxmırsan oralarda. Axı Cənubun qürub çağı çox ağır olur. Bəlkə mən yanlış düşünürəm. Necə olmasa da, mənim də oralarla bir bağlılığım var. Ata dədəm çox-çox illər öncə Ərdəbildən sizin tərəflərə gəlib, sonra köçərilik başlayıb. Dərbədərlik başlayıb.**

- Böyük mütəfəkkir, unudulmaz həmyerlimiz Əlibəy Hüseynzadənin dediyi kimi, bizim Muğan torpağında güclü enerji var. Adam ayağını yerə qoyanda sanki qoluna yeni bir qüvvət gəlir. Odur ki, öz el-obamın içində özümü rahat hiss edirəm. Vaqif Səmədoğlu demişkən, "mühit içində təpədən-dırnağa ümid içindəyəm". Bu yerlərə bələd olan bir yazar kimi özün yaxşı bilirsən ki, bizim Cənub bölgəsi

qoynunda xəzinələr saxlayan sirli-soraqlı bir aləmdi. Özünəməxsus bağlı boxçadı. Düz deyirsən, bu yerlərdə qürub çağı çox ağır olur. Biz tərəflərdə günəşin tülusu bir tamaşadırsa, qürubu isə, sizin sözün qüvvəti, son dərəcə kədərli, qəm-qüssəli vidalaşma anlarıdır... Muğanda günəş qürub edərkən nə uca dağların, nə də qalın meşələrin arxasına çəkilir, o, uzaq ənginliklərdə, haradasa yerlə-göyün qovuşduğu qanqırmızı bir məkanda anbaan əriyir, sanki can verir, son nəfəsində enib gəldiyi, dövran sürdüyü səltənətə acı-acı nəzər yetirib əbədiyyata qovuşur... Yetərincə kədərli, təsirli, ibrət götürüləsi bir səhnə. Ona görə də qocalar deyirlər ki, batan çağı günə çox baxmayın, canbəsər olar. Adama, ev-eşiyə sədəməsi dəyər. Özünnən yeyilər dar niyaz vaxtı, yəni axşam qürubunda qapınıza pis niyyətlə gələrlər. Bu xalq inancı bu gün də bizim Cənub bölgəsində gəzib-dolaşmaqdadır. Bizim Cənub bölgəsində, Muğan düzlərinin dəriniklərində yaz ağzı heç yerdə tayı-bərabəri olmayan, ətriylə insanı məst eləyən çiçəklər açır. Amma nə yazıqlar ki, gözdən-könüldən iraq olan, öpülüb göz üstünə qoyulmayan, pərqu ləçəklərinə nəvazişkar bir əl toxunmayan bu dərdli-kədərli çöl gözəlləri boyunlarını buraraq qarıyıb qalır, xəzələ dönüb torpağa gömülürlər. Halbuki, bu bəxtsiz çöl çiçəklərinin də göz önündəki dibçək gülləri kimi sevilmək, nəvaziş görmək ixtiyarı vardır... Tofiq, nədənsə o gənclik illərində Bakı-Astara qatarıyla sizin Qırmızıkəndin yanından keçəndə mən həmişə duyğulanar, gözdən-

könüldən iraq yerlərdə bitən və insan üçün darıxan o, çöl çiçəklərinin acı taleyi barədə düşünərdim. Və bu məqamlarda hardasa yadıma Vaqif Nəsibin "Durna gülü" şeri və bu şeirlə bağlı xalq şairi Rəsul Rzanın "Mənim fikrimcə" kitabında dərc olunmuş qeydləri düşərdi. Özlüyümdə deyərdim ki, nə olaydı, gecələrin birində Qırmızıkəndi bizim Cənub qatarına qoşaydılar, üstünə də yazaydılar: növcavan vaxtı Tofiq Məhərrəmoğlunu bax bu elləri gəzib, dolaşan kənddə İlham pərisi oxlayıb... Tələbəlik illərindən fərqli olaraq, indi daha mənim və eləcə də, bir çoxlarının yolu Qırmızıkənd stansiyasından keçmir. İndi Bakıya yüngül, sürətli və sərfəli maşınlarla gedib-gəlirik. Ancaq o, çöl çiçəkləri ilə və onların oxşarı hesab etdiyim Qırmızıkəndlə bağlı nisgilli duyğular hələ də içimdədi və yəqin ki, onlar məni heç vaxt tərk etməyəcək. Bizim Cənub qatarımız Qırmızıkənd stansiyasından adətən sübhün alatoranında, təbiətin yuxulu çağında keçirdi və bu dəmlər vaqonların pəncərələrindən maraqla ətrafa boylansaq da, təəssüf ki, sis-dumana bürünən kəndin boy-buxununu, qədd-qamətini, Muğanın bu tərəfinin özünəməxsus təbii gözəlliyini görə bilmirdik və həmişə buna çox heyfsilənirdim. Bu yaxınlarda xalq yazıçısı Anarın "525-ci qəzet"də, vaxtilə sizin kənddəki evinizdə qonaq olarkən ailə üzvlərinizlə birlikdə çəkdirdiyi şəkli görəndə, qəlbimdə həmin o çöl çiçəkləri ilə bağlı xoş bir duyğu baş qaldırdı. Düşündüm ki, vaxtilə ömrünün gur, axar-baxarlı, saçının qara çağında bizim Cənub bölgəsinə

gələrkən, ayaq saxlayıb, Muğan mənzərələrini seyr edən yazıçımızın Qırmızıkəndə səfəri, əgər yaz fəslinə təsadüf edibsə, demək o Muğanın dərinliklərindəki bənzərsiz çöl çiçəklərini, səmada oynaşan ağ buludları, üfüqdən göy qübbəsinəcən uzanan Fatma nənənin hanasını, çiçəkdən-çiçəyə qonan bal arılarını, bu yerlərin özünəməxsus boyalarını... görüb. Bəlkə də, heç belə deyil. Amma hər-halda nikbin olmağa əsas var. İndi Cənub bölgəsinə gediş-gəliş azaddır.

Daha Qırmızıkənd stansiyasına çataçatda qatarda sərhədçi "sarıqulaqlar" tərəfindən keçirilən, pasport yoxlanışı deyilən əcaib tamaşadan əsər-əlamət yoxdur və ola da bilməz. Artıq Qırmızıkənd stansiyasına çatanda, yuxunun şirin yerində əli avtomatlı sərhədçi sarıqulaqların "Qalxın, pasportlarınızı göstərin" deyə bağıraraq vaqonlar-dakı soydaşlarımızın əsəb sarsıntılarına, nevrozuna rəvac verdiyi əcaib anlar tarixin zibilliyinə gömülüb.

**Tofiq Abdin**

yazıçı-publisist

# YAZIÇININ BÖYÜKLÜYÜ ONDADIR Kİ...



Bəri başdan deyim ki, yazıçı dostumuz Böyükxan Bağırovun imzası onun ötən əsrin səksəninci illərində oxuduğum “Ağ yaylıqlar” hekayəsi ilə yaddaşıma həkk olunub. Gənclik illərinin romantik çağlarını yaşayan bir oxucu kimi bu hekayə uzun müddət məni öz sehrində saxlayıb. Dünyanın işləklərindən uzaq, hamını özünə doğma bilən, ülvi hisslərlə yaşayan, qatarın pəncərəsindən ona yaylıq yelləyən şəhərli qızın sorağıyla hər gün qatarların arxasınca boylanan o saf kəndçi balası uzun müddət gözümün önündən getməyib. Dönə-dönə oxumuşam hekayəni və mənə elə gəlib ki, şirin arzularla yaşayan o xəyalpərvər oğlan elə mən özüməm...

Yazıçının böyüklüyü ondadır ki, oxucu oxuduğu əsərdə özünü görür, qəhrəmanın yaşantılarını  öz içindən keçirib özünküləşdirir...

Bu baxımdan Böyükxan Bağırov müasir nəsrimizdə öz imzasını təsdiq elətdirən, yeni əsərləri intizarla gözlənilən və sevilən yazıçıdır. O, böyük oxucu məhəbbətini istedadı bahasına və gərgin əməyi sayəsində araya-ərsəyə gətirdiyi hekayə və povestləri ilə qazana bilib. Onun əsərlərində bədii dilin axıcılığı, folklor şirinliyi, qəhrəmanların təbii deyim tərzi, müəllif səmimiyyəti daha qabarıq özünü büruzə verir və oxucunu inandırır...

Maraqlıdır ki, Böyükxan Bağırovun əsərlərinin başlıca mövzusu yaşadığımız həyatın özüdür. Onun qələmə aldığı hekayələr elə bil ki, sənin, mənim və onun yaşantılarının, keçirdiyi hisslərin, qarşılaşdığı hadisələrin bədii inikasıdır. “Sərnişinlər”, “Döyüşçülər daş karxanasında”, “Göyərçinlər” və başqa hekayələri günümüzün reallıqlarını dolğun əks etdirir, bizə özümüzü və həyatı yaxından tanıtdırır...

Bu gün belə əsərlərin böyük tərbiyəvi əhəmiyyəti olduğunu xüsusi vurğulamalıyıq. Mənəvi dəyərlərimizin gözdən salındığı bir vaxtda gənc nəslin vətənpərvərlik ruhunda, sağlam əqidəli vətəndaş kimi formalaşmasında biz yazıçıların da üzərinə böyük məsuliyyət düşür. Biz öz nikbin əsərlərimizlə millətimizin sabahı olan gənclərə düzgün istiqamət gostərməliyik.

Sonda qeyd edim ki, əyalətdə yaşayan yazıçı dostumuz Böyükxan Bağırov paytaxtda yaşayan bir çox yazıçıdan daha çox oxunur və daha çox sevilir. Təəssüf ki,

biz qələm adamları “gözdən uzaqda” olduğumuz üçün diqqət və qayğıdan da uzaq düşürük, əsərlərimiz haqqında geniş tənqidçi rəyi yazılmır, dərsliklərə salınmır və bilərəkdən unuduluruq...

Qələm dostumun yaradıcılığı haqqında çoxdan demək istədiyim ürək sözlərimi, nəhayət ki, qələmə ala bildim. Söz adamlarını uca tutmaq, onların əsərlərinə dəyər vermək hər birimizin mənəvi borcudur.

**Ədalət SALMAN,**
**“Sözün işığı”** jurnalının baş redaktoru

# “Məmməd Əmin” adını ilk dəfə Elçibəydən eşitmişdim




**Düşünürəm ki, onun diqqətli oxucuya təqdimata heç ehtiyacı yoxdur. Cəlilabadda yaşayıb-yaradır. Kifayət qədər tanınan və oxunan yazarlarımızdandır.**

Bu dəfə “Qəfil qonaq” qismində onun - yazıçı Böyükxan Bağırlının qapısını döyürəm. Bazar günü olduğu üçün onun yaşadığı Alar kəndindəki evində olacağını dəqiq bilirəm. Alara yola düşməzdən öncə cəlilabadlı

yazar dostlarım Meyxoş Abdullaha və Əlirza Həsrətə zəng edib görüş üçün vədə alıram. Səhərin gözü təzə açılsa da, hər iki dostum görüş istəyimı "gözümdə qoymur". Evlərinə dəvət etsələr də, razılaşmıram. Dostlara hara getdiyimizi bildirmədim. Meyxoş duyuq düşür: "Qağa, olmaya harasa qəfil qonaq kimi gedib, döyülmək olsa, bizi qabağa vermək istəyirsən?"- deyib, layihəmizi xatırladır. Yolboyu etdiyimiz söhbət Alar kəndinə qədər salınmış körpümüz olur.

Yolda ikən şair, tədqiqatçı alim Bilal Alarlı ilə zəngləşirik. Böyükxan müəllimgildə olacağımızı deyirəm və razılaşırıq ki, o da gəlsin.

Cəlilabadda dərc olunan "Yeni gün" qəzetinin redaktoru, rayonun tanınmış ziyalısı olan Böyükxan müəllim Cəlilabadlı yazarların çoxunun ilk yazılarının işıq üzü görməsinə şərait yaradıb. Elə mənim də.

Həyətə ilk girişimizdə heç kəs gözümüzə dəymir.

**"Ay, ev yiyəsi, ay ev yiyəsi!"**

Çağırışımıza bağçada gəzişən ev quşları hay verir. Zəng edirəm. Böyükxan müəllimlə telefonda salamlaşırıq.

- Səsin nə yaxşı gəlir,- deyir.
- **Həyətinizdəyəm.**
- Nə danışırsan,- deyir və bir anın içində evin ikinci qatına qalxan pilləkənlərin qapısı açılır. Qəfil gələn qonaqları

çoxdan gözləyirmiş kimi xoş-beşdən sonra yuxarı dəvət edir.

## Qonağın dadı qəfil gəlməsindədir

**- Böyükxan müəllim, sizə qəfildən çoxmu qonaq gəlir?**

- Qonağın dadı qəfil gəlməsindədir də... Sənin qəfil gəlməyin bir yana, Meyxoşu, Əlirzanı da gətirmisən, bu, çox gözəl oldu.

**- Bir azdan Bilal Alarlı da gələcək.**

- Xoş gələcək. Sualına gəlincə onu deyim ki, biz böyük tayfa olduğumuzdan qəfil qonaqlarımız da çox olur.

**- Alarda bir neçə böyük tayfa yaşayır.**

- Hə, elədir. Mən kəndin ən böyük Alıcəfərli tayfasındanam. Qohum-əqrəbamız Cənubi Azərbaycanda Böyükağa bəylə tanınıb. Anamın atası Məmmədqulu Xan Alarlı Səttar Xan hərakatının üzvü və onun dostlarından olub. O, Nəcəfqulu Xanın atası idi. Nəcəfqulu Xan isə 32 Şahsevən tayfasından birinin rəhbəri olub. Nəcəfqulu Xan arada bəri üzə keçib, guya bizim camaatın da köməyinə çatarmış. Gələndə də xurcununu doldurub, gedərmiş. Qısası, qonaq cəhətdən qıtlığımız olmur. Hələ atamın vaxtından buraların qonaq-qaralı olmasına alışmışam.

**- Bu gün istirahət günüdür. Qəfil gəlişimizlə hansısa işinizə əngəl olmadıq ki?**

- Hacı Fərhadın əmisi oğlu Hacı Məmmədxan rəhmətə gedib. Üzümü təraş edib, hüzürə gedəcəkdim. Sizlər gəldiz, sonra gedərəm.

**- Yas yerlərinə adətən üzütüklü gedirlər. Bəs siz nəəcəb təraş olmaq istədiniz?**

- Məni indiyədək üzütüklü görən olmayıb. Amma bu yaşda insanın üzünün tüklü olması daha yaxşıdır.

**- Maşallah, geniş həyətiniz var, səliqə-sahmanı da öz yerində.**

- Əllərimin qabarına bax. Həyətdə çox işi özüm görürəm. Yay uzunu ancaq təsərrüfatla məşğul oluram. Qonşularımdan fərqli olaraq tərəvəzi bazardan almıram. Qardaşlarım mənə deyirdi ki, ay bala, camaat kənardan baxır, sən bizi biabır eləmə, tanınan, sayılıb-seçilən adamsan. Deyirdim ki, burda pis nə var ki? Hər bir şeyi özün əldə etmək məgər pisdir? Fiziki işlərlə məşğul olmaq mənə daim enerji verir. Həzz verir. Amma mən ən böyük həzzi mütaliədən alıram.

## Dəvə iynənin gözündən keçə biləndə

**- İndi kimi oxuyursuz?**

- İki gün olar ki, gənclik çağlarımda oxuduğum Lev Tolstoyun “Hərb və Sülh” əsərini yenidən oxuyuram. Yenidən oxuyanda yeni şeylər tapıram. Sizə bir rəvayət danışım... Bir gün Mədinədə ənsarlardan biri peyğəmbər

salavatullaha buyurub ki, ya Rəsulallah, bəs bu günahkarlar nə vaxt azad olunacaq? Peyğəmbər Qurandan ayə gətirir. Ayədə göstərilir ki, günahkarlar o vaxt azad olacaqlar ki, dəvə iynənin gözündən keçə biləcək. Bax onda insanlar bütün günahlardan azad olacaqlar. Mənə ən çox həzz verən mütaliə və rəsm əsərləridir.19-cu əsrin rus rəssamlarının rəsmlərinə baxıram. Şəkillərdə qeyri-adi, maraqlı məqamları tutmaq xusüsi zövq mənbəyimdir.

**Əlağa Kürçaylı mənə 50 manat verib dedi ki…**

**- Tələbə yoldaşlarınızdan kimi xatırlayırsınız?**

- Malik Fərrux, Nüsrət Kəsəmənli ilə bir qrupun uşaqları olmuşuq. Məmməd Oruc, Yunuz Hacıyev, Vaqif Yusifli və başqaları... O illərlə bağlı o qədər xatirələr var ki... Bir də görürdük ki, Zəlimxan Yaqub əlində saz otağa girdi. İsmayıl Məmmədov bizim otağa girib gözəl şeirlər deyərdi. O, indi tanınmış alimdir, professordur. BDU-nin yataqxanasında qalırdıq.16-cı otaqda. Bu otağın xatirələri digərlərindən fərqlənərdi. O dönəmlərdə çox aktiv idim. Tələbə sovetinin rəsmi sədri olmasam da, heyyətin bütün əsas işlərini özüm görürdüm. Əlağa Kürçaylı, Məmməd Araz, Söhrab Tahir və.s ilə görüşlər təşkil edərdik. Bir dəfə görüşdən sonra xudmani stol açdığımızı görən Əlağa

Kürçaylı mənə 50 manat verib dedi ki, ay bala, bunlardan heç nə olmaz, get nəsə al.

## Beçə yerinə qətfə…

**- Tələbəlik illərindən sonra görüşlər səngiyər…**

- Malik hər dəfə bu tərəflərə gələndə mütləq bizə dəyməli idi. Bir dəfə onu yola salmağa hazırlaşırdım. Anam da onun üçün sovqat hazırlamışdı. Bir neçə soyutma yumurta, kənd beçəsi və sair. Mənim də hamama getməyim üçün lazım olan şeyləri digər torbaya yığmışdı. Onunla sağollaşan zaman torbalarımız dəyişik düşür. Malik zəng edər Yunusa, Yunus Baba Vəziroğluna, beləliklə bir neçə nəfər kafedə yığışar ki, Böyükxan evdən "yeyib-içmək" göndərib. Yaxşı yeyib-içmək var. Yunus bu hadisəni olduqca maraqlı şərh etmişdi. Deyib ki, Böyükxan demək istəyir ki, sən kürdsən və kürdlər də ayda-ildə bir dəfə çimirlər. Sonradan Maliklə deyib-gülürdük.

## Abbasağa gələcəyin şairidir

**- Abbasağa və Qasid Nağıoğlu ilə yaxın olmusuz…**

- Abbasağa müəllim öz haqqını ala bilməyən, dəyərli şairlərdən idi. O, Məmməd Araz, Bəxtiyar Vahabzadə kimi ən uca zirvələrə layiq idi. Sadəcə, o dövr, o zamanə ondan çox şeyi oğurladı. O, təbliğ olunmadı. Əbədi tənqid onu

görmədi. Məncə, o hələ gələcəyin şairidir, bu günün yox. Gün gələcək, hər kəs onun istedadını fərq etmədiyi üçün təəssüflənəcək. Onunla ilk dəfə 1965-ci ildə tanış olmuşam. İmtahan verməyə gedirdik. Gördüm, Sabir Mirzəyev gəlir və onun yanında hündürboy, ağayana bir nəfər. Həmin anda onu Sabirin yanında gördüymə görə çox təəssüflənmişdim. Çünki Sabir olduqca əlçatmaz idi. Elə orda tanış olduq. Abbasağanın "Azərbaycan" jurnalında şeiri dərc olunmuşdu. Onun iki şeiri mənə olduqca təsir eləmişdi. O vaxt 16 nəfər gənc şairin kitabı birgə nəşr olunmuşdu. Onlara "onaltılar" deyirdilər. O zamandan onunla dost olduq. Rusca gözəl mütaliəsi var idi. Mən ondan çox şey öyrənirdim.

## "Məmməd Əmin" adını ilk dəfə Elçibəydən eşitmişdim

Qasid Nağıoğluna gəlincə, o bir fenomen idi.Mən ona öz yaxın adamım kimi münasibət bəsləyirdim. O, da qiymətini almayan insan idi. O, ən azından BDU-nin professoru olmalı idi. Rəhmətlik olduqca qısqanc idi. Onun xüsusi qısqanclığı mənə qarşı idi. İstəyirdi ki, daim onun yanında olum.

Bizim onunla söhbətlərimiz elmi, sənətin içinə girən ədəbi mövzular olurdu. Gənc şairlər söhbətimizə müdaxilə edəndə deyirdi ki, onlar bizə mane olurlar. Bu hallar onu qıcıqlandırırdı. Abbasağa və Qasid Nağıoğlu da çılğın

adamlar idi. Qasiddəki çılğınlıq vətənpərvərliklə əhatə olunurdu. Onun yanında millətə qarşı hər hansı bir söhbət onu təbdən çıxarırdı, onu sakitləşdirmək olmurdu. Qasid Elçibəylə xeyli yaxın dost idi. Qasidin vasitəsi ilə Elçibəylə görüşmüşdüm. Elçibəylə ilk görüşümüzdə onun dilindən "Cümhuriyyət" və "Məmməd Əmin Rəsulzadə" sözlərini eşitmişdim. Gördüm ki, o mənim kimi deyil. Saqqal saxlayırdı, özünə baxan deyildi. Köynəyinin kənarları əyiş-üyüşdü. Amma bütün bunlar ona olan marağı, sevgini azaltmırdı. Biz ondan BDU-da aldığımız mühazirələrdən çox Qala Qapısının dibində "Məxməri" çay evində bilgilər alırdıq. Burada bütün yazarlar, sənətkarlar toplaşırdı.

## Vidadi Məmmədov savadlı və avantrust idi

Habil Əliyev, Xan Şuşinski, Mehdi Məmmədov, Əlibaba Məmmədov daim burada toplaşardı... Onlar Xan Şuşinskinin yanında əyləşməzdilər. Bir də görürdük ki, Hüseyn Arif dəstəsi ilə gəlir. Yanında Musa Ələkbərli, Zəlimxan Yaqub və başqaları. Bizim ətrafımız ayrı idi. Bizim dəstədə Vidadi Məmmədov söhbət edəndə hər birimiz, Ramiz Rövşən də daxil olmaqla diqqətlə dinləyirdik. Vidadi Məmmədov olduqca savadlı biri idi, bir az da avantrust idi. Elə ədəbi simaların adını çəkirdi ki, onları böyük əksəriyyət tanımırdı. Danışdıqca əksər yazarlar aradan əkilirdi. Bir gün Vidadi mənə dedi ki, bu

cür adlar yoxdur, onları özümdən uydurmuşam. Bu da olduqca baməzə oldu. Onunla qonşu idik. Onun əsas məqsədi qəzetlərdəki səhvləri tutmaq idi.

## Salam Sarvanın kəşf olunması

**- Siz bizim Cəlilabad ədəbi mühitinin yaradıcılığını necə görürsünüz?**

- Bizim Cəlilabadda dostluğa münasibət, xanəndəliyə mənsub səs və yaradıcılıq eşqi çox fərqlidir. Bu iki varlıq bəlkə də heç yerdə yoxdur. Apardığım müşahidələrdən bəlli olub ki, içi təmiz olmayan adamın yaxşı səsi ola bilməz. Mir Möhsün ağanın "Hüzil Əlqəm" kitabında yazılıb ki, yaxşı səs yalnız Allaha məxsusdur. Səs insanın daxili gözəllyinin göstəricisidir. Bunların da hər biri bizim rayon camaatında var. Elə bilirsən Salam öz-özündən yetişib? Bəs Aqşin, sən özün, Əizadə Nuri, Bilal Alarlı, Meyxoş Abdullah, Əlirza Həsrət?

- **Yazarlarımızın çoxunun ədəbi mühitə qədəm qoyması sizin dərc etdiyiniz yazılarla olub.**

- Bir gün Ağavaqif və Seyid cavan bir oğlanla yanıma gəldilər. Dedilər, bunun şeirlərinə bax. Dedim ki, mən ədəbi yazılara ancaq evdə baxıram. Onlar təkid elədilər ki, indi oxuyub "hə", "yox" deməlisən. O cavan Salam idi. Şeirlərini oxuduqca gördüm ki, içimdə canlanma var. O şeirlərdən bir qəzet səhifəsi dərc etdim. Böyük etiraz oldu.

Rayon Partiya Komitəsinin birinci katibi Eybalı Ağayev yanına çağırdı məni. “Bu, partiyanın ideoloji qəzetidir,- dedi.- Hələ məktəbdə oxuyan gəncin bir səhifə yazısını çap etmisən”. Dedim ki, ədəbiyyat nə vaxtdan bu cür bəhanələr tanıyıb? Ədəbiyyat partiya işinin bir hissəsidir də elə. Ədəbiyyat ideoloji bir vasitədir. Bir silahdır. Salam o dövrlərdə kəşf olundu. Bütün bunlar o dövrlərin laboratoriyası idi.

**Sabir Əhmədliyə minnətdarlıq**

- **Bəs sizin yaradıcılığınız kimlərdən bəhrələnib?**

- Mənə yazmaqda ən böyük təsir göstərən Çingiz Aytmatovdur. Bir zamanlar onun dəlisi olmuşam. Ondan əvvəl isə Ənvər Məmmədxanlının “əsiri” olmuşam. Hətta onun Anna Kareninadan tərcüməsini orijinal əsər kimi qəbul edirdim. Mənim ədəbi yazılarımın üzə çıxmasında Sabir Əhmədlinin böyük zəhməti oldu. Bu hər zaman mənim çiyinlərimdə borc olaraq qalmaqdadır. Hətta, “Döyüşçülər daş karxanasında” adlı hekayəmi ona həsr etmişdim. Sabir Əhmədlidən mən çox şey öyrənmişəm. O, böyük yazıçı idi. Qələmi ağır idi. Mənim tanınmağımda onun rolu danılmazdı.

**Faiq BALABƏYLİ,**

şair-publisist

# ZƏRİF KƏPƏNƏK KİMİ



Böyükxan Bağırlını əvvəllər jurnalist kimi tanımışam. Yazılarıma səhifələrində səxavətlə yer ayıran rayon qəzetinin baş redaktoru kimi…

Sən demə, B.Bağırlı həm də yazıçıymış. Özü də necə!

B.Bağırlının yaradıcılığında diqqəti cəlb edən əsas məziyyətlər yazıçının müşahidə və mühakimə qabiliyyətinin itiliyi, kənd həyatının al-əlvan boyalarla təsviri peyzaj və məcazlardan məharətlə istifadəsidir. Onun bədii obrazları gah qaya kimi sərt, gah kəpənək kimi zərif və yumşaq olur.

Bir dəfə Böyükxan müəllimin «Çovğun» adlı hekayəsini çap olunmaq üçün “Ədəbiyyat qəzeti”nə aparmışdım. Hekayəni yanımdaca oxuyan unudulmaz Xalq yazıçısı Sabir Əhmədlinin hekayə haqqında məmnunluqla dediyi fikirlər hələ də yadımdadır…

Mən B.Bağırlının hekayələrindən aldığım bədii və mənəvi zövqə görə gözəl yazıçımıza minnətdaram.

**P.S.** Yeri gəlmişkən, onun yenicə çap olunmuş «Göyərçinlər» hekayəsindən aldığım xoş təəssürat hələ də uçub getməyib». Vəfalı göyərçinlər kimi…

**Əlizadə NURİ,**
şair, **«Dəfnə yarpağı»** mükafatı laureatı.

# Bizim Böyükxan müəllim



Tanınmış publisist və yazıçı Böyükxan Bağırov haqqında düşünərkən ilk növbədə yadıma söz düşür. O söz ki, insanın qəlbini riqqətə gətirir, onu düşündürür. Bu, adi söz deyil, yazıçının oxucuya ünvanladığı, böyük dəyər verdiyi, yəqin ki, hər biri üzərində dönə-dönə düşündüyü bədii sözdür. İstedadlı qələm sahibinin yazılarının tilisiminə düşən təkcə mən yox, həm də çoxsaylı oxucularıdır. Həmin oxuculardan və bu əsərləri dostlarıma, tanışlarıma ürəklə təbliğ edənlərdən biri də mənəm. Yeri gəlmişkən, Böyükxan müəllim el sözüylə desək, məndən bir neçə bayram böyükdür və elə istedadda da bu əlaməti bizi tanıyan adamlar çox asanlıqla müşahidə edə bilərlər. Dediyim kimi, o, yaşda məndən böyük olsa da, erkən cavanlığımdan onunla yaxınlıq və dostluq etmişəm. Mən orta məktəbdə oxuyanda Böyükxan Bağırov tələbə idi, jurnalist olmağa hazırlaşırdı. Onun qiymətli cəhətlərindən biri də o vaxtlar Azərbaycanda

yeganə universitetin tələbəsi kimi oxuyub imtahan verdiyi dərslikləri böyük ürəklə Bakıdan mənim üçün gətirməsiydi. Odur ki, mən tələbə olarkən bu sahədə heç bir çətinlik çəkmədim. Bu mənada mən həmişə Böyükxan müəllimə öz dərin təşəkkürümü bildirmişəm və bu gün də həmin əqidəm dəyişməyib.

Böyükxan Bağırov bildiyimə görə, yaradıcılığa şeirlə başlayıb. Tələbə olarkən "Ulduz" jurnalında Nüsrət Kəsəmənlinin, Malik Fərruxun və digər istedadlı şairlərlə yanaşı, Böyükxanın da "Qonşular" adlı bir şeiri çap olunmuşdu. O şeiri indi də yaxşı xatırlayıram. Digər bir tərəfdən isə, tələbə olarkən ölkəmizin ən qiymətli və səviyyəli bir jurnalında çap olunmaq hər yazarın işi deyildi. Sonralar mən də universitetə daxil oldum. Həmin illərdə Böyükxan müəllim Azərbaycanın yeganə tele-radio şirkətində məşhur insanlarla bir yerdə çalışırdı. O vaxtlar da ara-sıra görüşür, söhbətləşirdik. Günlərin bir günü Böyükxan müəllimin yenə də "Ədəbiyyat və incəsənət" qəzetində geniş həcmli bir hekayəsi çap olundu. Oxudum və heyrətləndim. Kəndimizin adamları, uşaqlığımızın keçdiyi yerlər, hətta dərələr və təpələr gözümün önündə canlandı. Qəzetdən bir neçə nüsxə alaraq bədii yaradıcılıqla məşğul olan həmfikirlərimə payladım və böyük bir fəxrlə bildirdim ki, bu cavan oğlan mənim kəndçim, qohumumdur. Tələbə yoldaşlarım tez-tez

məndən onun hekayələrini istəyirdilər. Çünki onlar da bu yazılara heyran olmuşdular.

Böyükxan müəllimə isredadlı bir nasir kimi azman yazıçımız Sabir Əhmədov xeyir-dua vermişdi. Lakin həyat elə gətirdi ki, Böyükxanı atası çətinliklə də olsa, rayona apara bildi. Böyükxan müəllim bir jurnalist kimi rayonda çıxan "Yeni gün" adlanan qəzetdə çalışmağa başladı və bu illərdə mən artıq müəllim işləyirdim. Ara-sıra yazdığım elmi-publisistik yazılarımı və şeirlərimi Böyükxan müəllim bu qəzetdə ürək açıqlığı ilə  çap etdirirdi. O, qısa bir zaman ərzində qəzetin redaktoru oldu. Çünki onun istedadlı qələm sahibi olduğunu hamı qəbul edirdi. Böyükxan Bağırov uzun illərdir ki, bu qəzetə rəhbərlik edir və bədii yaradıcılığını da gənclik həvəsiylə davam etdirir. O, Yazıçılar Birliyinin və Jurnalistlər İttifaqının üzvüdür. "Gənclik" nəşriyyatında onun hekayələrdən ibarət bir kitabı çap olunub. Amma respublika səviyyəli qəzet və jurnallarda da əsərləri vaxtaşırı çap olunur. Mən çox təəssüflənirəm ki, onun kifayət qədər maraqlı yazıları olsa da, çap olunmağa nədənsə  bir o qədər də can atmır. Bunu bir neçə dəfə yazarın özünə də söyləmişəm.

Bu yaxınlarda "Litparad" adlı hörmətli bir saytda onun "Göyərçinlər" hekayəsini oxudum. Hekayə Qarabağ mövzusunda idi. Nə gizlədim, hekayənin təhkiyəsi, qeyri-adi üslubu mənim göz yaşlarıma səbəb oldu. Onun haqqında çox danışa bilərəm. Ancaq mənə elə gəlir ki,

bunlar kifayətdir. Mən Böyükxan Bağırovun yaradıcılığını ürəklə davam etdirməsini, bizi tezliklə yeni bir kitabı ilə sevindirməsini istəyir və qəlbən deyirəm ki, hər şeyə görə çox sağ ol, Böyükxan müəllim, Sizə uzun və bədii sözlərlə zəngin mənalı bir ömür arzulayıram!

**Ələddin ƏZİMOV,**

AJB-in üzvü, şair, "ANS" Müstəqil Media və Yayım şirkətinin sabiq müxbiri.

# Əsl ziyalı və yaradıcı insan



Böyükxan müəllimlə bağlı ancaq xoş duyğularla danışmaq olar. Əsl ziyalı, gözəl yazıçıdır. Bir çox ödül sahibi olan jurnalistdir. Neçə gündür götür-qoy edirəm, nə yazım, necə bəhs edim onun haqqında. Həmişə də bu qənaətdə oluram ki, nə yazsam da, onun fövqündə çox az görünəcək. Həm də başqalarının dediklərinin təkrarı olacaq. Mənim şeirlərimi qəzetdə ilk dəfə Böyükxan müəllim dərc edib. Yadımdadır, onun baş redaktoru olduğu “Yeni gün” qəzetinin redaksiyasına utana-utana, çəkinərək getmişdim. Otağına keçdim, xoş qarşıladı, əminin balası dedi, nə gətirmisən? Şeir yazdığımı dedim, ona təqdim etdim. Baxdı, qalsın dedi.  Getdim. Səhv etmirəmsə, qəzetin növbəti sayı həftənin 5-ci günü çıxacaqdı. Və həmin sayda “Qazan dağım” adlı şeirimi qəzetdə gördükdə o qədər sevindim ki... Elə bilirdim ki, kəndin küçəsində hər kəs ardımca baxır, “bu oğlan şeir yazırmış” deyə pıçhapıç edir.

O vaxtdan çox illər keçib. Böyükxan müəllim yenə də həmin görəvindədir. Qəzetin sükanı arxasındadır. Yerlərdə

yazıb yaradan gənclərin tanınmasında bacardığını edir, məsləhətlərini verir.

Bu yaxınlarda ondan müsahibə götürdüm. Səhərin gözü açılmamış Alar kəndindəki qapısının darvazasından içəri keçdim. “Qəfil qonaq” layihəsində söhbət edəcəkdim. Etdim də. Amma məni qəfil qonaq kimi deyil, Böyükxan müəllim özünün yaxınını, doğmasını görürmüş kimi qəbul etdi, köksünə sıxdı. Bu istilikdən çox kövrəldim. Eynən ilk görüşümüzdə məni xoş qarşılayıb, şeirimi dərc edib, sevindirdiyi, kövrəltdiyi kimi...

Yazıçı kimi sevdiyim yazıçıdır. Bir vaxtlar əlindən tutduğu, şeirini dərc etdirdiyi, onu özünə ustad bildiyi birinə - mənə hekayələrini göndərmişdi. Baş redaktoru olduğum “Yeni Xəbər” qəzetində dərc etdim o hekayələri. Amma o, bunu necə göndərmişdi, necə müraciət etmişdi, yadıma düşəndə indi də xəcalət çəkirəm, utanıram. O, bunu ərklə, tələblə, hökmlə də edə bilərdi. Şəxsən mənə haqqı çatır. Amma, xüsusi bir etika, əxlaq çərçivəsində demişdi, “vaxtın olsa, bir baxarsan”, demişdi. Onun - ustad yazarın əxlaqı qarşısında da hörmətlə dayanıb baş əyirəm.

Sinəsi xatirələrlə doludur Böyükxan müəllimin. Görüşlərimizdə kimlərdən bəhs etmir? Tələbəlik illərindən ta bu günə qədər yaşadıqları şirin bir hekayət kimi yaddaşında vərəqlənir. O qədər maraqlı xatirələri var ki...
Şair, yazıçı, publisist və gözəl ziyalı Böyükxan Bağırlıya uzun ömür, ədəbi yaradıcılığında nailiyyətlər arzulayıram.

**Faiq BALABƏYLİ,**

şair-publisist

# Böyükxan Bağırlı dünyası



***Həm manerası, həm də yazı mədəniy-yəti etibarilə çoxlarına oxşamayan, reportajvari stildə yazılmış şirin, oxunaqlı əsərlər yaradır.***

***Onun hekayələrində təsvir olunan mənzə-rələr təbii təsir bağış-layır və asan da oxunur.***

Bədii yaradıcılıq istedad tələb edir və bəzən həqiqi istedad sahibi illər boyu yazıb-yaradır, daxilən zənginləşə, püxtələşə-püxtələşə əsərlərini cilalayır. Şəxsiyyətinə və bədii zövqünə hörmət bəslədiyim Böyükxan Bağırlı xarakterizə eləmək istədiyim bu cür yaradıcı şəxsdir. Böyükxan müəllimin ara-sıra qəzetlərdə, saytlarda rast gəldiyim yazılarını böyük maraqla oxuyuram. Yazı manerasında və redaktorluq fəaliyyətində maarifçilik deyilən bir ab-havanın üstün bir cəhət olduğu açıq-aydın görünməkdədir. Bir çox psixoloji əsərlərində isə insan qəlbinin dramalarını yaradıb. O, sözdən ehtiyatla, zərgər

dəqiqliyi ilə istifadə edən və sözün üstündə əsim-əsim əsən lirik-psixoloji hekayələr ustasıdır. Hiss olunur ki, müəllif nə yazırsa ürəyinin hökmü ilə yazır, şəxsən yaşadıqlarını, gördüklərini qələmə alır, özü də elə ustalıqla qələmə alır ki, bu hekayələrdə oxucu yazıçıdan çox, qəhrəmanların özü ilə üz-üzə durub həmsöhbət ola bilir. Bu hekayələr nə qədər obrazlı təfəkkürün məhsulu olsa da, inandırıcı süjetləri var, hadisələrin mahiyyətinə enmək, varmaq bacarığı nəzərə çarpır. Buna bir-birindən fərqli yaradıcılıq musiqisi altında qələmə alınmış, özünəməxsus ritmə otuzdurulmuş hekayələrini oxuyarkən şahid oldum. Bu hekayələr olduqca yığcamdır, süjet xətti başlanğıcdan oxucunu dalınca çəkməyi bacarır. Görünən odur ki, müəllif oturub özündən Amerika kəşf eləmir, reallıqları qələmə alır. Bu hadisələrin xeyli qismi həyatda baş verənlərdir. Yazıçının təxəyyülü qidasını həyat materialından götürüb. Ona görə təsvir olunan mənzərələr təbii təsir bağışlayır və asan da oxunur.

Hekayə ədəbiyyatda ən yığcam, ən çevik janrdır. Əgər ədəbiyyatımızda bu ədəbi kökün Mirzə Cəlil kimi bənzərsiz nümayəndəsi varsa, elə indi də yaxşı hekayə yazıb ortaya qoymaq cəsarət tələb edir. Bizdə yaxşı şeir yazan müəlliflər çox olsa da - əbəs yerə demirlər ki, Azərbaycan şairlər ölkəsidir- təəssüf ki normal nəsr əsəri yazan sənətkarlar barmaqla sayılası qədərdir. Xoşbəxt o sənətkardır ki, böyük nəsrin xofu onu basmır, onu

qorxutmur və sözünü öz çəkisində deməyi bacarır. Böyükxan Bağırlı da özünəməxsus təhkiyə ilə, rəvan dil ilə xarakterlərini yaradır, ədəbi qəhrəmanlarının obrazlarını canlandırır. Onun qəhrəmanları eldən-obadan çıxmış bizim müasirlərimizdir. Hər gün gördüyümüz, həmişə rastlaşdığımız insanlardır.

Onun özünəməxsus yaradıcılığı aydın, səlis poetik dili və üslubu, həyat hadisələrinin real təsviri, obrazların psixoloji planda təqdimi ilə diqqəti cəlb edir. Yazdıqları olduqca axıcıdır və bu səbəbdən də oxunaqlıdır. O, nəsrində lirikaya meyl edir, lövhə və surət çəkməyi bacarır. Hekayələrdəki təbiilik, yığcam bir süjet daxilində maraqlı, düşündürücü mətləb ifadə etməyi, ən başlıcası, yaddaqalan obrazlar yaratmaq istəyi təqdirəlayiqdir. Ola bilsin bir çox hekayələrində yazıldığı dövrün ab-havası duyulsun, dövrün ictimai çaları hiss edilsin, ancaq yenə təkrar etməyə dəyər ki, Böyükxan Bağırlı mümkün qədər bu şablondan - “dövrün həqiqətlərini realistcəsinə əks etdirmək” stereotipindən qaçan sənətkardır. O insan qəlbini, insan mənəviyyatını əks etdirməyə çalışır.

Hiss olunur ki, Azərbaycan nəsrinin tematikasına yaxından bələddir. Böyükxan müəllim gündəlik rast gəldiyimiz, geniş xalq kütləəri içərisindən çıxan insanların mənəvi dünyasını qələmə alır, onların daxili aləmindəki

hiss və həyəcanlarını ustalıqla təsvir edir. Müəllifin qənaətinə görə, hər kəs həyatdan ibrət dərsi götürməli, mənəvi dünyasını kamilləşdirməlidir. Bu hekayələri oxuyarkən qətiyyən onları dövrün "sifarişi" olan yazılar kimi qəbul eləmirsən. Çünki həmin hekayələrdə dövr şərtidir, onlarda təsvir olunan ölməz məhəbbət ideyası, mənəvi qəhrəmanlıq isə əbədidir.

Azərbaycanın klassik yönümlü müasir tipik nəsrini duymaq üçün Böyükxan Bağırlı nəsrini oxumaq kifayətdir. Bu, həqiqətdir. Və doğrudan da bir hissəsini itirdiyimiz maddi-coğrafi sivilizasiyamızı və itirmədiyimiz milli mənəviyyatımızı daha dərinliklə duymaq, sevmək üçün belə əsərlər ən etibarlı qaynaqlardır. Onun əsərlərində milliliyimiz (bəzilərinə "kəndçi"liyimiz kimi də görünə bilər, olsun, nəyi pisdir ki?) bütün əlvanlığı və rəngarəngliyi ilə göz oxşayır və bu, böyük göstəricidir. Yazıçının müxtəlif hekayələrində qələmə aldığı surətlər sanki eyni usta əli ilə toxunulan zərif xalçanın müxtəlif rənglərini, çeşidlərini xatırladır.

O əsərlərində Azərbaycan kəndinin mənəvi problemlərini işıqlandırır. Cəmiyyətin ictimai-siyasi mənzərəsini deyil, yenə də insan qəlbinin dialektikasını ön plana çəkir. Həm manerası, həm də yazı mədəniyyəti etibarilə çoxlarına oxşamayan, reportajvari stildə yazılmış şirin, oxunaqlı əsərlər yaradır. Bu əsərlər dolğun xarakterlərlə, kəskin konfliktlərlə, maraqlı süjet xətti ilə zəngindir.

Dostoyevski qəhrəmanlarından birinin dili ilə belə deyir: “Gərək bu dünyada hər kəsin bir gediləsi yeri olsun”. Saytlardakı hekayələri ilə tanış olduqdan sonra Böyükxan müəllimə görə çox sevindim: O öz gediləsi yerini, açılası qapısını tapıb. O bu darıxdırıcı dünyanın adamlarından, sifətlərindən keçib o qapını açan kimi sehrli bir aləmə düşməyin yolunu tapıb. Doğrudan da, sənət böyük mənada böyük xariqələr yaradan və insana mənəvi ümmanlar bəxş edən bir qüvvədir.

O yaradıcılığının ən coşqun çağını yaşayır. Böyükxan Bağırlı yaradıcılığı ilə yaxından tanış olan ziyalılar məclisində dəfələrlə onun haqda maraq və ehtiramla danışıldığının şahidi olmuşam. İnanıram ki, Böyükxan müəllimin yaradıcılığına olan məhəbbət onu sevənlərin qəlbində daim yaşayacaq.

Bu yazdıqlarım Böyükxan müəllimin hekayələri haqqında qısa təəssüratlarımdır. Əlbəttə bu kalibrdə yazıçıların daha böyük, sanballı təhlilə ehtiyacı vardır.

**Ibrahim SEL,**

yazıçı-publisist

# MƏN SİZİ BELƏ TANIMIŞAM!

**Bu vəfasız ömür, bu coşqun dəniz,**
**Gərək boş-boşuna axıb keçməsin!**
**Bu gözəl cahanı sanıb pəncərə,**
**Hər gələn sadəcə baxıb keçməsin.**

***Mikayıl Müşfiq***



Dünyanın gərdişi, çərxi fələyin dövr etməsi haqqında düşünən kimi yadıma Osmanlı İmperatorluğunun banisi Osman Qazinin müəllimi Ədəbalı ilə söhbəti düşür: Üfüqləri seyr edən şahzadə Osmanı görən Ədəbalı soruşur:

- Nə düşünürsən, Osman?
- Düşünürəm ki, dünya necə böyük, necə sərhədsizdir.

İllər sonra eyni yerdə yenidən üfüqləri seyr edən İmperator Osmanı  görüb Ədəbalı yenidən soruşur:

- Nə düşünürsən, Osman?
- Düşünürəm ki, dünya niyə belə kiçikdir.

İllər nəyi dəyişdi,  dünya kiçildimi? Osman Qazidən sonra dünya hələ 800 ildir ki, yerindədir. Nə azalıb, nə artıb. Artan və azalan insandır. İstər mənəvi cəhətdən,

istər fiziki baxımdan. Yaşımızın bəlli bir vaxtında bir zaman anlamadıqlarımızı anlayıb gülümsəyirik. Demək, onu anlamaq üçün yaşamaq, yaşamaq üçün isə illər lazımdır.

Bu gün yaşıdım olan insanlar Osman Qazinin dünyanı kiçik gördüyü yaşdadırlar. Haqqında söbhət açacağım Böyükxan müəllim kimi. Bir zaman parlaq bir perspektivi olan karyerasının başlanğıcında onu qəfil tərk edən Böyükxan müəllimi o zaman başa düşməmişdilər. Bu söhbətə bir qədər sonra qayıdacağam.

60 ilin zirvəsində dayanıb düşünürəm. Arxaya boylanıb dünyanın necə kiçik olduğunu düşünərkən o yolda nələri itirib, nələri tapdığımı araşdırmağa çalışdım. Sadə, bəzəksiz-düzəksiz onları çatdırmaq istədim.

Yaşadığım bu illər ərzində demək olar ki, mütaliəsiz günüm olmayıb. Əgər mənə sual versəydilər ki, çox sevdiyim film hansıdır. Düşünmədən deyərdim ki, kinorejissor Mixail Kalatozovun 1957-ci ildə müharibə mövzusunda çəkdiyi «Mosfilm»in istehsalı olan «Durnalar uçur» filmi. Ürəyimdə özümlə müsahibəni davam etdirərək ən çox sevdiyim hekayə hansıdır sualına, tərəddüd etmədən: "Böyükxan Bağırovun «Aynalı gölün payızı» kitabındakı hekayələrin hamısı" - deyə cavab verərdim.

1986-cı ildə oxuduğum həmin kitabdakı hekayələr zamanında məni necə təsirləndirmişdisə, hələ də

xatırladıqca o təsiri damarlarımda hiss edirəm. Nə üçün? Gəlin bu sualın cavabına hələlik burada nöqtə qoyaq.

Böyükxan müəllimin 70-ci illərdən bu günə qədər insanların ürəyinə yol tapması, sevilməsi, rayon, kənd yerlərində hər ziyalıya qismət olan şey deyildi. Çünki, şəhərdən fərqli olaraq rayonda, kənddə bəzi bürokrat məmurlar özlərini Xudayar bəy kimi aparırdılar.

Qabusnamədə deyilir: «Həyatdan dərs ala bilməyən insana heç kəs dərs verməməlidir, çünki, əməyi hədər gedər. Bir də elmi olub ağlı olmayan adama elm əziyyət verər».

Burada rəhmətlik şair - publisist Tofiq Abdinin Böyükxan Bağırovla müsahibəsində Böyükxan müəllimə verdiyi sualı, həmin sualın cavabını yada salmaq yerinə düşərdi.

**«Böyükxan müəllim, necə oldu ki, jurnalistikanı və yazarlığı seçdiniz? Doğrudur, yazarlıq seçilmir. Bunu hamımız bilirik».**

Cavab: - Mənim yazı-pozuya meylim içində böyüyüb boya-başa çatdığım mühitlə bağlıdır. Gözümü açıb ətrafımda nağılları avazla oxuyan dərvişləri, el arasında «Lotu» adlandırılan xalq məzhəkəçilərini, növbə ilə uzun qış gecələri ayrı-ayrı məhəllələrdə haqq aşiqləri barədə dastan söyləyən telli saz ustaların, ilaxır çərşənbə

gecələrində çillə çıxaran, dilək tası quran sevdalı qızları, Kərbəla müsibətindən əhvalatlar söyləyən rövzəxanları, yazda havalar qızanda ilan tutan ovsunçuları, tas quranları, divara arpa yeridən cadugərləri, hoqqabazları… görmüşəm. Bütün bunlar zəngin bir aləm, yazılmalı ədəbiyyat idi».

Mənim nəzərimdə həyatdan dərs almayan, həyat təcrübəsi olmayan yazarın əsərləri bir o qədər də geniş auditoriyanı əhatə edə bilməz.

Tofiq Abdinin dili ilə desək, Qazax, Tovuz, lap elə Salyan rayonundan fərqli olaraq Azərbaycanın cənub bölgəsində, ələlxüsus Cəlilabadda şair, yazıçı olmaq bir müşkül idi. Tofiq Abdin haqlı idi. Allah onu qəni-qəni rəhmət eləsin. Bizim bölgədə yazara şairə hətta psixoloji cəhətdən yarımçıq, bir az da divanə kimi baxırdılar. Rəhmətlik şair Abbasağa ömrünün sonuna qədər Cəlilabad şəhər orta məktəbində müəllim işlədi. 70-80-ci illərdə

**Pulun yoxdu cibində,**
**Batdın dərya dibində.**
**Hər şey köhnə dəbində,**
**Biletli bəy, xanı gör.**

- deyən şairin paytaxtı atıb rayonda adi müəllim işləməsinə irad tutub qınayanlar çox oldu. Lakin şairin

onu qınayanlara cavabı vardı: «Bakıda dayı qoltuğuna sığınıb şair olmağa nə var ki, hünərin var rayonda, kənddə şairlik et». Burada Mirzə Cəlil yadıma düşdü: «Gözümü açanda hər yeri qaranlıq gördüm».

1966-71-ci illərdə Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsində ali təhsil alan Böyükxan müəllim əmək fəaliyyətinə respublika - tele-radiosunda redaktor kimi başlayır. Sovet dönəmində tele-radioda redaktor işləmək hər adama qismət deyildi. Azərbaycan KP MK-nın nəzarəti altında olan tele-radioda işə düzəlmək üçün mərkəzi komitənin «zəngi» lazım idi. İndi şükürlər olsun ki, telekanalların sayı getdikcə çoxalır. Böyükxan müəllimin başına şahlıq quşu qonmuşdu. Necə deyərlər, vəzifə karyerasına bir neçə pillə qalmışdı. Lakin, günlərin bir günü 1973-cü ildə Böyükxan müəllim doğulduğu Alar kəndinə qayıtdı. Rayonda «Taxılçı» ( indiki "Yeni gün") qəzetinə işə düzəldi. Bakıda yüksək vəzifəni buraxıb rayona gəlməyinə dodaq büzənlər, qınayanlar çox oldu. Bütün bunların hamısına Böyükxan müəllim hazır idi. Çünki, onun uşaqlığı, gəncliyi zəhmətlə yoğrulmuşdu. Yeniyetmə çağlarında kolxozda işləyib valideynlərinə kömək edən bu gənc həyatın bərkindən boşundan çıxmış, səbr və təmkinli, dözümlü olmuşdu. Onda sabaha, gələcəyə inam böyük idi.

30 il Bakı mühitində yaşayan adi bir vətəndaş kimi deyirəm: Bakıda yaşı 70-80-i ötmüş istedadlı qələm sahibləri tanıyıram. Yazdıqları kitabların sayına söz ola bilməz. Onlar Cəlilabad torpağından çıxıblar. Amma, nə faydası, onları yalnız Bakıda kiçik ziyalı təbəqəsi, dostları, qohumları tanıyır. Sadə xalq isə onları tanımır. Lakin, ömrünün 69-cu baharını yaşayan Böyükxan müəllimi təkcə Cəlilabad deyil, azərbaycanın bütün bölgələrində tanıyırlar. Hətta ona qibtə edənlər, həsəd aparanlar da var.

Uzağı görən bir insan kimi Böyükxan müəllim başa düşürdü ki, Bakı mühitində nə qabağa, nə də arxaya yol yoxdur. Bir gün əldən düşüb el-obaya qayıdacağın günü var.

Fəxri adları ilə tanınan rəhmətlik şair Qasım Qasımzadəni burada yada salmamaq mümkün deyil. Bakıda gözəl şəraitə malik şair ömrünün 70-ci baharında xəstə, taqətdən düşmüş halda doğulduğu Qubadlıya gəlir. (O illər Qubadlı işğala məruz qalmamışdı). Uca zirvəli dağlara baxaraq dərindən ah çəkib deyir:

**Sizdən ayrılanda cavandım, dağlar,**
**İndi görüşünə qoca gəlmişəm.**
**Qayğılar üstümə düşdü, talandım,**
**Üzümə üz tutub borca gəlmişəm.**

Ulu öndər Heydər Əliyev1969-cu ildə Azərbaycana rəhbər təyin ediləndə, Cəlilabad da bir çox rayonlar kimi kasıb bir rayon idi. Taxılçılıq üzrə ikinci Ukrayna sayılsa da, əhalisinin maddi rifah səviyyəsi xeyli aşağı idi.

Heydər Əliyevin sərəncamı ilə 70-ci illərdə üzümçülüyün inkişafı başladı. 1975-76-cı illərdə artıq Cəlilabadın və ətraf kəndlərin siması əhəmiyyətli dərəcədə dəyişmişdi. Sovxoz fəhlələri pul mükafatları alır, özlərinə təzə evlər tikirdilər. Sözsüz ki, burada Cəlilabad rayon Partiya Komitəsinin orqanı olan «Taxılçı» ("Yeni gün") qəzetinin də rolu böyük idi.

Yaxşı yadımdadır, 70-ci illərdə üzümçülüyün vüsət aldığı Cəlilabad rayonunda «Taxılçı» qəzetinə istedadlı jurnalist, respublika tele-radiosunda yüksək vəzifəni icra edən Əlövsət Bəşirov Mərkəzi Komitənin qərarı ilə baş redaktor təyin edildi. Əlövsət Bəşirov gəlişi ilə istedadlı qələm sahiblərinə sanki yaşıl işıq yandırdı. Redaksiyada yeni ab-hava yarandı.

1970-ci ildə Cəlilabad Partiya Təşkilatında yerli icra nümayəndəliklərində, kolxoz və sovxozlarda, təhsil ocaqlarında və başqa sahələrdə nöqsanların sayı-hesabı yox idi. 1973-cü ildə Böyükxan müəllimin Əlövsət müəllimlə birlikdə qəzetdə fəaliyyətə başlaması rayonda nöqsanların aradan qaldırılmasına sanki bir təkan oldular. Əlövsət Bəşirov jurnalistdə iki keyfiyyəti əsas hesab edirdi:

istedad və tərbiyə. Hər ikisi Böyükxan müəllimdə var idi. Bu amili nəzərə alan Əlövsət Bəşirov Cəlilabad rayon Partiya Komitəsinin ikinci katibi seçilərkən yerinə məhz Böyükxan müəllimin namizədliyini vermişdi. 1980-ci ildən Böyükxan müəllim bu günə qədər «Yeni gün» (keçmiş "Taxılçı") qəzetinin baş redaktoru vəzifəsində çalışır.

Mövlana Cəlaləddin Ruminin belə bir kəlamı var. "Ya göründüyün kimi ol, ya olduğun kimi görün". Böyükxan müəllimi illərdir necə görmüşəmsə, bu gün də elədir. Şan-şöhrətdən həmişə uzaq duran, xalqının acılı-şirinli günlərində daim yanında olan, xeyirxah bir insandır Böyükxan müəllim. Rayonda hər hansı bir vəzifəni tutmaq, idarə etmək şansı olsa da, o, bunlara getməyib. Onun üçün blaknot və qələm vəzifə və kürsüdən üstün olub həmişə. 1992-93-cü illərdə Qarabağ Müharibəsində Böyükxan müəllimi hərbi geyimdə gah döyüş bölgəsində, gah da şəhid ailələrinin yanında görmüşəm. 90-cı illərdə artıq Bakının yolu açılıb deyə, bir çox yazarlar kənddə qazın, işığın olmamasını bəhanə edib Bakıya axın etdilər. Lakin Böyükxan müəllimdə istər paytaxtda, istər xarici ölkələrdə işləmək imkanı dəfələrlə yaransa da, o, bundan yararlanmaq istəmədi. El-obanı ağır gündə buraxmadı, əksinə ona dayaq oldu. Necə deyərlər, torpağa bağlı olan Böyükxan müəllimin səyahəti Cəlilabaddan başlayıb doğma kəndi Alarda bitirdi.

Əziz Böyükxan müəllim, mən Sizə qibtə edirəm. Kənddə, rayonda, ələlxüsus Tofiq Abdinin sözü ilə desək, bizim bölgədə şair olmaq, yazıçı olmaq çox çətindir. Amma, siz bu çətinliyin öhdəsindən gəldiniz. Bu gün siz təkcə bölgədə deyil, respublika miqyasında, paytaxt səviyyəsində sevilirsiniz.

Ömrünün 69-cu baharını yaşayan əziz Böyükxan müəllim, mən Sizi belə tanımışam. Şair də belə deyib:

**Unutmaz tarixin böyük günləri-**
**Dünyaya mərd gəlib, mərd gedənləri.**

**Mirzəağa MƏMMƏDOV,**
Tədqiqatçı - jurnalist

# Ədəbi yaradıcılıqda ilk yolgöstərənim



Belə bir el deyimi var: «Qardaşın necə adamdı? Yoldaşlıq etməmişəm». Mən də Böyükxan Bağırlını 1980-ci ildən rayonda uzaqdan-uzağa tanıyırdım. Bilmirdim ki, o Cəlilabad rayon Partiya və İcraiyyə Komitəsinin orqanı olan «Yeni gün» qəzetinin redaktorudur və rayon ictimaiyyəti arasında xüsusi hörmətə malikdir.

Özüm, respublika Avtomobil Nəqliyyatı nazirliyinin Cəlilabad rayonunda yerləşən 27 saylı hərbiləşdirilmiş avtomobil dəstəsində işləyirdim və Böyükxan müəllimi bir dəfə dəstənin rəisinin otağında görmüşdüm. Onun sakit təmkinli hərəkəti mənim gözümdən yayınmır, təmkini və səbrinə görə ona qibtə edirdim. Onun şəxsən redaktorluğu ilə nəşr olunan «Yeni gün» qəzetinə abunə idim və onun nömrələrini izləyib maraqla oxuyurdum.

1991-ci ildə respublikamız müstəqilliyini elan etdi. Öz müstəqil dövlətimiz yarandı. Xalqımıza din və vicdan azadlığı verildi. Gənc, kövrək dövlətimiz bazar iqtisadiyyatı münasibətlərinə keçdi və avropaya inteqrasiya yolunu seçdi. Xalq özü öz mülkünün sahibi oldu. Dövlət

müəssisələri özəlləşdirildi və kommunist rejimi süqut etdi. Xalqımız vicdan azadlığı, əqidə azadlığı şərbətini nuş etdi. 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin ikinci dəfə rəhbərliyə gəlməsi ilə müstəqilliyimizin bünövrəsi möhkəmləndi. Onun apardığı müdrik, ardıcıl daxili və xarici siyasəti nəticəsində respublikada özbaşınalığa, anarxiyaya və dərəbəyliyə son qoyuldu. Ölkəmizdə siyasi sabitlik bərqərar oldu. Elə həmin ildə əsrin müqaviləsi olan neft müqavilələri bağlandı və neft strategiyası gənc dövlətimizin əsas iqtisadiyyatının şah damarına çevrildi. Ölkədə senzura və qadağalar ləğv edildi, xarici ölkələrə gedib-gəlmək sadələşdirildi. Mən də bu fürsətdən istifadə edib, 1995-ci ildə turist kimi Suriya Ərəb Respublikasının Hələb şəhərinə səfər etdim. Bir neçə gün şəhərlə tanışlıqdan sonra, orada dəfn olunmuş Azərbaycanın görkəmli şairi İmaməddin Nəsiminin məzarını ziyarət etdim. Qayıdarkən yolum Türkiyə respublikasının İstanbul şəhərinə düşdü. Axşam gecələmək üçün otelə gəldim və yer almaq məqsədi ilə inzibatçıya pasportumu təqdim edib, otaq verməsini ondan xahiş etdim. İnzibatçı mənim Azərbaycandan olduğumu bilib, mənə otaq verməmişdən əzəl İstanbulda nəfis şəkildə nəşr olunmuş bir dərgini qarşıma qoyub vərəqlədi və dərginin bir səhifəsində dərc olunmuş «Göyərçinlər uçub getdi» hekayəsini mənə göstərib dedi:

- Bu hekayənin müəllifi sənin həmşərindi, abi.

Mən bu sözdən qürur hissi keçirib aşağıda adı yazılmış müəllifin kim olduğu ilə maraqlandım və Böyükxan Bağırlının adını oxudum. Səhifənin yuxarı hissəsində isə Böyükxan müəllimin şəklini gördükdən sonra bildim ki, bu müəllif bizim Böyükxan müəllimdi. İllər ötdü mən bu hadisəni unutdum, Böyükxanla yaxından əlaqəm olmadığı üçün bu barədə ona bir söz demədim, hesab etdim ki, özünün bu barədə məlumatı var.

2000-ci ildən mən bədii yaradıcılıqla məşğul olmağa başladım, bu sahədə bilirdim ki, addımlarım kövrəkdi. Anlayırdım ki, bu sahəni bilən bir adamın köməyinə ehtiyacım var. Etiraf etməliyəm ki, utandığımdan yazdıqlarımı heç bir kəsə göstərmirdim.

Bir gün məktəb yoldaşım Sulduzla (Allah ona rəhmət eləsin) rastlaşıb görüşdük. Biz, biri-birimizdən hal-əhval tutduqdan sonra mən onun «Yeni gün» qəzeti redaksiyasında işlədiyini nəzərə alıb yaradıcılıqla məşğul olduğumu ona bildirib, köməyə ehtiyacım olduğunu ondan gizlətmədim. O, məni dinlədikdən sonra bir qədər fikrə gedib gözləri yol çəkdi və dönüb mənim gözlərimin içinə baxaraq ciddiliklə dedi:

- Mirkamil, mən səni bizim yerli qəzetin redaktoru Böyükxanla tanış edərəm. O, bu sahədə sənə köməklik edə bilər. Amma qabaqcadan səni xəbərdar edib deyirəm ki, çox ciddi adamdı, bu sahədə qardaşına belə güzəştə gedən deyil. Sənin yazılarını oxuyub sənin yaradıcılıq

sahəsində nəyə qadir olduğunu o müəyyən edib, nəticəsini mənə deyəcək. Əgər səndə yaradıcılığa dair zərrə qədər işıq görsə, sənə kömək edəcək, yox, olmasa, özündən küs. Mən onunla razılaşdım və görüşüb ayrıldıq.

Bir neçə gün keçdikdən sonra Sulduzun təşəbbüsü ilə Böyükxan müəllimlə görüşüb yaxından tanış oldum, çayçıda oturub üçümüz çay içə-içə söhbət edirdik. Böyükxan müəllim söhbəti bədii yaradıcılığın üstünə gətirib mənə bir neçə sual verdi və hazırda hansı mövzu üzərində işlədiyimi soruşdu. Mən özümlə gətirdiyim əl yazmamı ona təqdim etdim. (Bu əlyazmam nəzmlə yazılmış dini mövzu, On dörd məsumun hekayəti idi). Böyükxan müəllim əlyazmanı məndən alıb vərəqlədi və söz verdi ki, əlyazmanı oxuyub qeydlərini etməklə fikrini bildirəcək. Belə də oldu, o, əlyazmanı oxuyub qeydlərini etmiş, bəyəndiyi üçün kitaba ön söz yazmaqla kitabın redaktoru olmağa razılıq verdi. Beləliklə, onunla yaxın münasibətimiz yarandı və sonralar bu münasibət dostluğa çevrildi.

Böyükxan müəllim, 2003-cü ildə mənim birinci cild «Qəzəllər», 2005-ci ildə 400 səhifəlik «Pyeslər», 2011-ci ildə «Vətən sizə oğul dedi» (Milli qəhrəman Mübariz İbrahimova həsr etdiyim pyeslər) kitablarımın redaktoru olmaqla hər dörd kitaba ön söz yazdı.

Böyükxan müəllim realist yazıçıdır. Onun müşahidə qabiliyyəti çox güclüdür, çox həssas və ayıq adamdı. O qarşısında olan həmsöhbətini diqqətlə və səbrlə dinləmək

bacarığına malikdi. Dost və tanışlarına xüsusi hörmət bəsləyir. Böyükxan müəllim daim əxlaq və idrakına arxalanır və bunun sayəsində də istədiyi uğuru əldə edə bilir. Onun Cəlilabad ədəbi mühitində xüsusi yeri var, rayon yazarları onunla hesablaşırlar. O səbrlidir, təmkinlidir, danışanda aramla danışır, danışanın sözünü kəsmir, onu sona qədər dinləməyi bacarır. O çətinlik çəkmədən ani olaraq yaranmış vəziyyətdən çıxmağa qadir adamdı (yaxşı mənada). Onun lirikanı sevdiyini bilirəm. Buna sübut olaraq qələmə aldığı «Qu nəğməsi» hekayəsindəki obrazın diliylə dediyi sözləri olduğu kimi yazıram:

«Sevincin sualına cavab verərkən, qeyri-ixtiyari üzünə baxdım. Onun dodaqlarının küncündə, adamı hər an daxili aləmində xoşbəxt eləməyə qadir olan şirin bir təbəssüm gizlənmişdi. Bu təbəssüm mənə Rəhiləni xatırlatdı. Rahilə, niyə bu boyda şəhərdə mən səni seçdim? Niyə bir-birimizdən xəbərsiz bir məktəbə sənəd verdik?...»

Doğrusu, mən sətiraltı mənada Böyükxan müəllimin özünü görürəm. Eşq olsun sənə deyirəm dostum, əladır!

Böyükxan müəllimin Kommunist rejiminin tüğyan etdiyi dövr qələmə aldığı «Çovğun» hekayəsində sətiraltı fikirləri ilə ədalətsizliyin ayaq tutub yeridiyini, rejimin bu ədalətsizliyin qarşısının alınmasında aciz olduğunu ustalıqla oxucuya çatdıra bilir. Hekayədə mənfi obrazın xarakter və xüsusiyyətlərini qabarıq şəkildə oxucuya

«sırımaqla» (Mən bu sözü məcazi mənada işlətməklə oxucuya öz səmimiyyətimi bildirirəm, ona görə ki, özüm də bu hekayənin oxucusuyam). Mənvi obraza oxucunun nifrətini deyərdim ki, kuliminasiya nöqtəsinə qaldıra bilir. Mən şəxsən buna ustalıq kimi baxıram.

Böyükxan müəllim bu hekayəsində işlətdiyi el sözləri, el deyim və adət-ənənələri, əsərin dadını – duzunu daha da artırıb oxucuya sevdirə bilir. Hekayədə ferma müdiri Nuğay çoban işləyən Məmi kişinin qızı Bənövşəni almaq üçün fənd işlədib kolxozun 15 baş camışını qonşu binəyə ötürüb. Məmi kişidən tələb edir ki, ya camışları tapırsan, ya da səni milisə verəcəm. Yox, əgər tutulmaq istəmirsənsə, qızın Bənövşəni mənə ərə verməyə razı olmalısan. Məmi kişi camışları tapa bilmədiyini və ferma müdiri Nuğayın şərtlərini ailəsinə və qızına nəql edir. Qızı Bənövşə atasına öz həyatını qurban verir (mən buna qurban deyərəm, Nuğay kimi bir şərəfsizə ərə getməyə cəhənnəmi qəbul etmək kimi baxıram. Bu mənim şəxsi fikrimdir). Nuğay kimi bir şərəfsizlə ailə həyatı qurmağa razı olur. Nəticədə Nuğay içib sərxoş vəziyyətdə evə gəlib ailəsi Bənövşəyə böhtan atıb şərləyir. Bənövşə daha bu təhqirə dözə bilməyib çovğunlu, qarlı qış gecəsində çıxıb qonşu binədə yaşayan qardaşının yanına gedərkən çovğunlu gecədə azıb donur. O son nəfəsində Məhəmməd Peyğəmbər (s) cigər guşəsi olan qızı Zəhranı köməyə çağıraraq deyir: «Ya Zəhra!» bu sözləri yazmaqda məqsədim odur ki,

Böyükxan müəllim bu sözü yazmaqda da, cəsarət və ustalıq göstərib son nəfəsdə sözü qəhrəmanının dilinə gətirə bilib. Bu bir kəlmə sözü yazarkən belə hesab edirəm ki, onun qəlbi imanına tabe olub əqlinin hökmündən çıxmışdır. O imandan danışıram ki, o şəxsiyyətin cisimdə şaxələnən damarda qan ilə daim dövr edir. Kommunist rejimində saatdan dəqiq işləyən senzur bu sözü aşkar etsəydi əgər, əminəm ki, Böyükxan müəllim bu günə kimi əldə etdiyi bütün karyerasını itirmiş olardı. Amma bu baş vermədi.

Bir daha deyirəm, əhsən sənə, Böyükxan müəllim!

Mən yuxarıda qeyd etdim ki, Böyükxan müəllim gözəl ziyalı olmaqla yanaşı, el adət-ənənələrini öz yığıncaqlarında və həyatı fəaliyyətində məharətlə istifadə etməklə, onların mühafizəsini daim diqqət mərkəzində saxlayır. Buna nail olaraq şahidi olduğum bir məsələni xatirələrimdə yazmağı özümə borc bilirəm.

Bir gün mənim yeni kitabım nəşr olunmuşdu. Şair dostumuza təqdim etmək üçün Böyükxanla birlikdə dostumuzun iş yerinə getdik. Böyükxan müəllim mənə hörmət əlaməti olaraq maşından düşməyimi rəva bilməyib dedi:

- Ağa sən düşmə, mən kitabı dostumuza təqdim edərəm!

Mən ondan yaşca böyük olduğum üçün razılaşıb gözləməli oldum.

Az keçmiş o kitab əlində geri qayıdıb dedi:

- Ağa, dostumuz nahar fasiləsinə çıxıb - dedi:

Mən dedim:

- İşçilərinə verəydiniz!

O, fikirləşmədən sərt şəkildə:

- Olmaz! - dedi.

Mən anladım ki, səhv edib düşməmişəm. Özüm olsaydım, iş yoldaşından xahiş edərdim ki, kitabı dostumuza çatdırsın. Anladım ki, Böyükxan müəllim düz edərək qürurunu gözləmiş, kitabı dostumuzun işçisinə verməmişdir. Mən bu fikirdə ikən, yanımızdan dostumuzun qohumunun keçdiyini görüb, Böyükxan müəllimə məsləhət etdim ki, verəkmi kitabı dostumuzun qohumuna?

O yenə qəti etiraz edib "yox" dedi. Bu epizodda anladım ki, Böyükxan müəllim mənim qürurumu qorudu. Bax, Böyükxan müəllim belə dost, belə yoldaşdı. Mən Böyükxan müəllimə uzun ömür, can sağlığı, ailə səadəti, ədəbi yaradıcılığında da uğurlar arzulayıram.

**Mirkamil MİRXƏLİLOĞLU,**

*Azərbaycan Yazıçılar Birliyinin üzvü, şair-dramaturq*

# O, BİZİM USTADIMIZDIR



Böyükxan müəllim barədə rəhmətlik atamdan eşitmişəm. Onlar hələ gənclik illərində bir-biri ilə tanış olmuşdular. Dost idilər. Atam Böyükxan müəllim haqqında xoş sözlər deyərdi. Elə məni Böyükxan müəllimlə atam tanış edib. Mən musiqiçi idim. Tar çalırdım. Toylara gedirdim. Şeirə-sənətə böyük marağım vardı. Şeir yazmağımı atam da hiss eləmişdi. Bir gün o şeir dəftərlərimi nəzərdən keçirəndən sonra üzünü mənə tutub dedi: «Hazırlaş, sabah səni «Yeni gün» qəzeti redaksiyasına – Böyükxan müəllimin yanına aparacağam, görək yazıların barədə nə deyəcək».

Həm sevinir, həm də həyəcanlanırdım. Böyükxan müəllim kimi tanınmış bir yazıçı-jurnalistlə görüşüb ona yazı - özü də bu ola şeir, - təqdim etmək böyük məsuliyyətdi. Gizlətmirəm, bu görüş ərəfəsində çox həyəcan keçirirdim. Ancaq bu narahatlığımın ömrü çox az

oldu. Sən demə, zəhmi məni basan Böyükxan müəllim sadə, qayğıkeş, dostcanlı bir ziyalıymış. O, atamla bir qardaş kimi doğmacasına görüşdü, hal-əhval tutdu, səhhətini soruşdu. Atam məni ona təqdim edəndə çox sevindi, əlimi əlindən çəkməyərək üzümdən öpdü. Əlbəttə, bu, atama bəslədiyi dostluq duyğusunun əlaməti idi. Sonra atam Böyükxan müəllimə gəlişimizin məqsədini dedi. Mənim yazılarıma baxmağa vaxt ayırmasını xahiş etdi.

İşinin çox olmasına baxmayaraq, Böyükxan müəllim öz kabinetində bizə yer göstərib əyləşməmizi xahiş etdi, təqdim etdiyim şeirləri elə yanımızdaca gözdən keçirtdi. Çap olunmaq üçün bir neçəsini seçib kənara qoydu. Sonra bir sənət müəllimi kimi mənə dəyərli məsləhətlər verdi. Dedi ki, çox oxumalısan. Klassiklərimizlə yanaşı, çağdaş poeziyamızı çox oxumalısan. Mənimlə qısa söz-söhbətdən, necə deyərlər, «qabımdakılarla» tanışlıqdan sonra mənə bir əmi, bir böyük kimi dönə-dönə tapşırdı ki, çox mütaliə elə. Dedi ki, gərək ədəbiyyatçının sinəsi dolu olsun. Bir də tapşırdı ki, çağdaş ədəbi prosesi diqqətlə izləyim, ustad sənətkarlardan öyrənim. “Hələ bunları yerinə yetir, sonrasına baxarıq” dedi.

Bu görüşdən bir neçə gün sonra «Yeni gün» qəzetində şeirlərim dərc olundu. Elə sevinirdim ki, uçmağa qanadım yox idi. Böyükxan müəllimlə tanışlıq mənə çox

şey verdi. Bir şagird kimi ondan ədəbiyyat, sənət, poeziya haqqında müəyyən şeyləri öyrəndiyimə görə özümü xoşbəxt hiss edirəm. Böyükxan müəllimin mənəvi dəstəyi, xeyir-duası ilə şeirlər kitabımı çap etdirdim. Kitabımın ədəbi ictimaiyyət tərəfindən rəğbətlə qarşılandığına görə, ilk növbədə ustadım Böyükxan müəllimə minnətdaram. İlk kitabımdan sonra çox çəkmədi ki, sevimli yazıçımız, böyük sənətkar Anar müəllim yüksək etimad göstərərək məni Yazıçılar Birliyinə üzv qəbul etdi. Sonra mətbuatda yeni-yeni şeirlərim işıq üzü gördü, növbəti kitabımı oxuculara təqdim etdim. Bütün bu uğurlarımda Böyükxan müəllimin mənəvi dəstəyini yaxından hiss etmişəm. Ancaq bu sözləri onun üzünə deyə bilmərəm. Çünki belə şeylərdən xoşu gəlmir. Deyir ki, mən heç kimin canına, qanına istedad yeridə bilmərəm. İstedad Allah vergisidir. Hər bir insan həyatdakı uğurlarını öz əməyinə görə qazanır. Hər bir uğur, nailiyyət zəhmətlə, əməklə bağlıdır.

Yeri gəlmişkən qeyd etmək istəyirəm ki, Cəlilabadda Böyükxan müəllimin qayğısından təkcə bəhrələnən mən deyiləm. O, rayonda ümid verən istedadlı gənclərdən öz köməyini əsirgəməmişdir və bu gün də əsirgəmir. Cəlilabad ədəbi mühitinin formalaşmasında Böyükxan Bağırlının özünəməxsus xidmətləri vardır. Otuz ildən çoxdur ki, o, baş redaktoru olduğu «Yeni gün» qəzetinin

nəzdindəki «Cəlilabad töhfələri» ədəbi birliyinə rəhbərlik edir.

Ustadımıza möhkəm can sağlıbı, yeni-yeni uğurlar arzulayıram.

**İman ABDULLA,**
*Azərbaycan Yazıçılar Birliyinin üzvü, şair*

# Onun hekayələrinə zamanın havası faciə dumanı kimi çökmüşdür



Böyükxan Bağırlının imzası ədəbi ictimaiyyətə qədərincə tanışdır. 1946-ci il təvəllüdlü yazıçının 1985-ci ildə "Aynalı gölün payızı" kitabı nəşr olunmuşdur. Həmin 80-ci illərdən məxsusi izlədiyim istər kitabındakı, istərsə də "Azərbaycan", "Ulduz" jurnalları, "Ədəbiyyat qəzeti"ndə dərc olunmuş povest və hekayələrindən yadımda daim içi ilə əlləşən, sosial ağrıları iç düşüncələrinə çevirən, təhlilə gətirən bir insanın obrazı qalmışdır. Böyükxan Bağırlı bu gün də qəhrəmanına sadiqdir. "Nöqtələr" toplusunda (1998) dərc olunan "İlğım", "Azərbaycan" jurnalında "Göyərçinlər uçub getdi..." (2000, 6) hekayələri üstəlik qəhrəmanın çağın fəci durumundan keçərək daha da kamilləşdiyini göstərdi.

Hekayələrə zamanın havası ağır bir faciə dumanı kimi çökmüşdür. İlğım - hələ hərəsi bir rakursdan: foto-şəkildə ürkək xatirə və biznesmen dayının gəlişində zəif bir

ümiddirsə; ikinci hekayədə əvvəldən axıra getdikcə sıxlaşan qatı sosial faciə durumudur. Mənəvi insan ictimai həyatın çabaları içrə. Cəmiyyət ilkin halqası-ailədə, bircə yığcam süjet, vahid təhkiyə xətti, qəhrəman və bir neçə personaj iç yaşantıları ilə... B.Bağırlı hər bir hekayəsində hekayə ustalığına tam yiyələndiyini təsdiq edir.

"Göyərçinlər uçub getdi" ilk sətirlərindən izlədiyi mətləbi - yaşadığımız durumun dramatizmini süjet vasitəsilə mətnə yeridir. "Dünən günorta çağı uşağa iynə vuranda, vallah, Saroğlan həkim düz deyirdi. Bu bekara dünyanın urvatsız çağında Allahın bu nadinc bəndəsi - bu qırışmal gədə Səlimbala oturduğu yerdə atası Əsəd müəllimi işə salmışdı..." Bir az sonra oxucu biləcək ki, bəli, urvatsız çağlardır. Əsəd müəllim güzaran çətinliyindən hətta qul bazarına getməyə məcburdur. Bəli, bekara dünyadır, uzun illər mehriban ər-arvad ömrü yaşasalar da, Gülzar müəllimin (Kiyevdə əsgərlikdə nakam getmiş deyiklisi Hüseynbalayla bağlı) niskili var, hamıdan gizli qanovuz boxçasında bir faciə gəzdirib bəsləyir. (Üstəlik müəllif qısqanclıq səhnəsində zamanın faciəsini - qolu minaya düşmüş qaçqın Fizzə müəllimə detalını məharətlə daxil edir). Hər məqamından üzüqara kasıblığın boylandığı ailənin belə vaxtında "bu il birinci sinfə gedəcək Səlimbala" damda bəslədiyi sülh göyərçinlərini yemlərkən yıxılıb bu insanın iç gərginliyinə (habelə mənəvi simasına) ayna tutur; dərman almağa pul yox, həkimə verməyə pul yox,

“böyük həkim gətirmək” imkanı yox... Kənd həkimi Saroğlan həmin - Hacıbala Əmir qələminə layiq tiplərdəndir. Qazancı heç vəchlə əldən vermək istəmir, hər cür pula bağlı, yarıtmaz işini gözə soxur, “yəni, balam, uşaq day yaxşıdı, durun məni yola salın”. Amma “yaxşı” deməklə deyil ki, bu dəfə lağlağı yerimir, Səlimbalanın ölümü aman yeri qoymur, oxucu sosial faciənin mündəricəsi barəsində küll halında düşünməlidir. Məişət planından qanadlanan süjet son halda faciə həddində yaşayan mənəviyyat sahiblərini - mənəvi insanı təqdim və təsvir etmiş olur.

Ən nəhayət, onu demək gərəkir ki, Böyükxan Bağırlının cavan həmkarları sırasında olması sevindiricidir, bu püxtə qələmin müsbət təsiri özlüyündə aydındır”.

**Tehran ƏLİŞANOĞLU,**

filologiya elmləri doktoru, professor

**“Ədəbiyyat qəzeti**”, 24 avqust 2001- ci il.

# Sübh yuxusu

(hekayə)

Bayırdan boğuq səs gəldi. Tez qapını açıb eyvana çıxdı, aynabənddən həyətə boylandı… Küləyin səsiymiş. Bax e, bir-iki dəqiqənin ərzində bağ-bağçanı viran qoymuşdu bu külək. Odur, suvağı çat vermiş çil-çopur barının, nəmli divarları payız otları bitirmiş dam-daşın üstündə yarpaqlar qırmızı bahar kəpənəkləri kimi aramsız uçuşurdu. Həyətin başında, qovun-kəliyi çoxdan sovulub uralanmış bostan yeri tərəfdə isə hələ də səngiməyən küləyin ley kimi qabağına qatıb qoparağını götürdüyü bir dəstə yarpaq canını qoymağa yer gəzirdi…

Çiyinlərini çəkib əsnədi. Havadan xoşu gəlmədi. Ağaclar tamam-kamal lüt-üryan qalmışdı. Gör nə qədər xəzəl süpürməliydi. Hələ yandırılandan sonra bunun tüstüsü, külü, zir-zibili vardı. Qəfil payız küləyilə durduğu yerdə Xumarın işini artırmışdı. «Eh, qadam canına…» deyib aynabəddən çəkildi. Allahın küləyi ilə duruşmayacaqdı ki. Əsir, qoy əssin də, can onun, cəhənnəm tanrının.

Gözü iri divar saatına dəyəndə, barmağını dişlədi, yadına düşdü ki, paho, aşağı siniflərdə oxuyan oğluyla qızı bir azdan məktəbdən qayıdacaqdılar. Elə əri Türbət də,

dediyinə görə, nahara evə gəlməlidi. Xumar onlarçün bişdüş hazırlamaq havası ilə mətbəxin qapısını açarkən yadına səhərki yuxusu düşdü. O sübh yuxusu necə də şirindi. Onun şirinliyi büsbütün canına, qanına, sinirlərinə yayılmışdı. Bəs nə görmüşdü, kimləri görmüşdü yuxuda?!

Qapıya söykənib gözlərini mətbəxin güllü kafellərinə dikdi, səhərki yuxusunun üstündən tül örtük ehmalca çəkildi, güllü kafellər aralandı, uzun bir dəhliz göründü. Dəhliz boyunca rəngi soluxmuş, çil-çopur skamyalar düzülmüşdü. Açıq pəncərədən məktəbin həyətindəki qızılgüllər aydın görünürdü. Deyəsən, bu, Xumargilin sinfiydi. Onbirincilər ədəbiyyat fənnindən yazılı imtahan verirdilər. Gəncəli Naseh müəllim ortada gəzişir, imtahanın gedişinə nəzarət edir, elə hey gülümsəyirdi. Amma dodağındakı təbəssümlə gözlərindəki kədər heç də bir-birinə uyuşmurdu. Xumar nəyisə bəhanə edib ondan bir söz soruşmaq, iri ala gözlərinə baxmaq və gözlərinin içindəki o kədərli ifadənin sirrini, mənasını bilmək istəyirdi. Amma utanırdı, ağlını başından alan yaraşıqlı müəlliminə baxmağa utanırdı. Axı, bəs necə baxmasın, nətəhər baxmasın?! Ürəyi elə atlanmışdı ki…

Naseh müəllim əyilib Xumara nəyisə izah eləyərkən qıvrım saçı qızın üzünə toxundu. Sonra o, Xumarın dəftərinin arasına bir məktub qoydu. Dedi ki, məktubu evdə açıb oxuyar, indi olmaz. Çünki dərs hissə müdiri arxadan onları güdür. Xumar bu sözlərdən uçundu,

yanaqları dağ laləsi kimi allandı, pörtdü. İstədi ki, başını qaldırıb Naseh müəllimin o ala gözlərinə baxsın, uduxmamış quzu tükünə bənzəyən buruq-buruq, qıvrım, zil qara saçına baxsın. Ancaq baxa bilmədi. Ürəyinin döyüntüsündən, alışıb yanan yanaqlarının hərarətindən yuxudan ayıldı. Yerindəcə çömbəlib çılpaq dizlərini qucaqladı, başındakı havanın təsiri ilə heyfisləndi: «Ay Allah, görəsən o məktubda nə yazılmışdı?! Bunu necə, haradan, nətəhər öyrənmək olar…»

İndi Xumar bunu qol-qola verən güllü kafellərdən soruşurdu. Yalvarırdı, rica edirdi, döşəmədən tavanadək qol-qola verən güllü kafellər şıdırğı rəqs eləyir, Xumarsa əlini dizinə vurub elə hey təəssüflənirdi: «Gərək elə yuxudaca məktubu açıb oxuyaydım…»

O, gənc, yaraşıqlı ərini, Allahın verdiyi bir cüt gözəl payı - iki gülüzlü balasını, başı buludlara dəyən «İmarət» dediyi ev-eşiyini, sarı imperial sikkələrlə ləbaləb cehizlik mücrüsünü, yamangünlük dür-düyüncəyini, evinin ballı-bollu xəm-xurudunu… gözlərinin önünə gətirərək, nə qədər özünü tox tutmaq istəsə də, ürəyi elə hey gördüyü yuxuya tərəf uçunurdu. Sanki büs-bütün vücudu, canı, qanı, qəlbi o şirin yuxunun ağuşunda, ixtiyarındaydı. Artıq əli uzaq-uzaq səhralarda ilğım kimi ağaran, ləpələnən gənclik karvanından biryolluq üzülsə də, ruhu, huşu bir vaxtlar Gəncəli Naseh müəllimin gəzib dolaşdığı, divarlarına əli toxunduğu, nəfəsi hopduğu köhnə

məktəblərinin dövrəsində hələ də səfil-sərgərdandı. Söylənilәsi, açıb ağardılası deyildi bu dərd. Xoşbəxt anlarında, bəxtəvər çağlarında, bir şirin tikəni ağzına aldığı dəmdə qəflətən böyüründə peyda olub gözlərini ona bərəldəndi bu dərd!

«…Görəsən o məktubda nə yazılmışdı?! Ay anam, ay bacım, ay Allahın saya-sadıq bivec bəndəsi, bunu övliyalardan, ənbiyalardan, o gözəgörünməz qurbanı olduğumuzdan başqa kim bilər?! Heç kim! - Xumar qollarını çarpazlayıb mətbəxin yallı gedən kafelləri ilə söhbət eləyirdi: - Vallah qonşumuz seyid Tamamın da əli yetməz bu işə, deyirdi. - Amma, öz aramızdı, Tamam da Tamamdı ha, otaş-paraş, yeddi qazanın damazdığı. Cin atına mindi, ta üzünü görmə, dədəsin tanımaz. Keçən yay demişdi ki, el içində qozu-qozu gəzib imannan, dinnən üyüdüb tökən, təziyə mərasimlərində mərsiyəxanlara vagirlik edən, ziyarətdən gətirdiyi yüsür təsbehi boyu bərabərində olan Kəblə İsminin paxırını açmasam, dədəm Seyid Sucunun dölü döyüləm. Sözün nədi, dili də varmış, dilçəyi də, mafi-qaydayla qaranlıq otaqda tas qurub Kəblə İsminin Talış tərəfdə nəvəsi yaşında bir qız uşağının qoynuna nə sayaq girdiyini, oğru pişik tək necə yalmandığını firiştələrin köməyiylə arvadı Naxış xalaya göstərmişdi və demişdi ki, ay mələməz, ətəyində namaz qıldığın Kəblə İsmi köpoyoğlu bax belə qurumsağdı, dəyyusun yekəsidi…

Yox, Xumarın işi ayrı bir müsibətdi, Seyid Tamamlıq deyildi. «Sulamadığı ocaq başı qoymayan, havadan şeh çəkən, acgöz, barmağını göstərəndə biləyindən yapışan Tamamlıq nə iş vardı burda. Əgər rüsvay-cahan olmaq istəyirsənsə, zurna püflətdirmək, boynundan zınqrov asdırıb qarğa məndə qoz var demək istəyirsənsə, o yol, o da sən, beş-on manatlıq ayın-oyunla get seyid Tamamın ziyarətinə, görüm nə təməssük tapacaqsan?!

«Günah özümdədi, - deyə başını sinəsinə söykəyib düşünürdü: - Gərək məktubu elə oradaca açıb oxuyaydım. Ta ovcumda gizlətməyəydim. Gərək… yox, e, yox, anam, bacım, nə «gərək-mərək», məktubu ovcumda gizlədəndə… artıq yuxudan ayılmışdım. İş işdən keçmişdi. Deyirəm, barı, heç olmasa, təkcə, bircə kəlmə oxuya bilsəydim…»

«Nə olacaqdı, nə dəyişəcəkdi? Heç utanmırsan?! – ürəyindən qopan bu sözləri sanki əri Türbətin dilindən eşidirmiş kimi diksinib yan-yörəsinə boylandı. Gözü ərinin divardan asılmış şəklinə dəydi. Elə bil ki, ərinin bu şəkili çəkilərkən, onun adamın yeddi qatından keçən qıyıq, mənalı baxışlarının durumu indiki anların ovqatına hesablanıbmış. «Yenə nolub, nəyin çatmır?» deyən bu incik baxışların önündə duruş tuta bilməyən Xumar barmaqlarının ucunda ehmalca qonaq otağına keçib divanda uzandı, ərinin asılqandakı qəttəzə, bir-birindən bahalı kostyumlarına baxıb, nə isə, qiymətli bir şey

itiribmiş tək heyfisləndi. Canını ilmüdam, peydərpey evə daşıdığı əşya-ərzaqçün fəda eliyən Türbətə yazığı gəldi. Bəs o əcəri getməyən, asılqandaca saqqalları ağaran «ağayana» paltarları nə vaxt adam balası kimi geyinib qohum-əqrəbanın xeyir-şərində görünəcəkdi, bazar-dükana gedəcəkdi? Bu bədbəxt balası qarışqa kimi hər gün əlinə keçəni elə hey bir ucdan daşıyıb tökür evə ha. Şiləbarandı e, şiləbaran. Elə bil ki, yer üzünə aclıq gələcəkdi deyə zumar yığırdı. Türbətin bu yığındarlığına, daşıhadaşısına baxanda, Xumarın yadına köçüb gəldiyi kənddəki qonşuları Ağamalı dayının el arasında aralıq atı deyilən qaşqa kəhəri düşürdü. Səhərin gözü açılandan ta qaş qaralanadək benava atın dincəldiyi yoxuydu. Görürdün ki, budu ha, şəbbün xeyir, kimi bu yazıq heyvanın belində dəyirmana dən aparır, kimi də onu təkatlıq arabaya qoşub çöldən ot-əncər daşıyır. Gözünə döndüyüm qaşqa kəhərin beli yağır olub ayaqlarının şatırı çıxsa da, gör bir nə gahgirləyirdi? Qətiyyən yox! Nə gəldi daşıyırdı. Sağolmuş Türbət də, elə bil udumunu bu atdan almışdı, onun üzünə tərpənmişdi. Daşımaqdan savayı bu gen dünyada sanki əlindən ayrı bir iş gəlmirdi.

Bir dəfə Xumar zarafata salıb bu sözləri Türbətə deyəndə o, arvadını çəpəki süzüb başını buladı: «Ağzın isti yerdədi, - dedi, - heç dünyadan xəbərin var?! Dünənki abırlı adamların bu gün ehtiyac içində nə kökə düşdüyünü görsəydin, belə gijdəməzdin.

Həyatla ayaqlaşmayıb, ya da ayaqlaşa bilməyib, hər gün ayaqlar altında qalanların necə çərlədiyini mən yaxından görürəm, balası. Odu ki, onnardan biri olmamaqçün özümü oda, közə atıram. Ruzu qazanmaq man dögü. Bir də ki, çay həmişə kötük gətirməz. Nə bilmək olar, sabah nə baş verəcək?.. Budu, mən ciddi söz deyirəm, amma sən sağolmuş dişlərini ağardırsan. Gülürsən. Gül, gül, gülən vaxtındı. Xumar, vallah sənin işin oyundu. Ay qız, sən xəyalpərvərsən e, həyatdan xəbərin yoxdu. Oxuduğun səfeh-süfeh romannar başını xarab eləyib…»

Beləsinə nə deyəsən, o gün Türbət ağzında bir quranlıq söz danışırdı, Xumarsa altdan-altdan onun iş qiyafəsini süzüb qımışır, arada da bir əliylə burnunu tutub bərk-bərk sıxır, o biri əliyləsə havanı qovurdu; Türbət «Araz» ticarət şirkətində anbardar işləyirdi, vaxt tapıb əynini dəyişməmişdi. Paltarına hopmuş «Teksun» yağının iyi adamı gendən vururdu. Elə indicə, divana uzandığı yerdə haradansa həmin qoxu Xumarın burnuna dəydiyindən əti ürpəşdi, ürəyi bulandı. Mətbəx otağına keçib üz-gözünə su vurmaq, xörək hazırlamaq istəyərkən bayırdan yenə qulağına səs gəldi. Ancaq bu səs bayaq eşitdiyi küləyin səsinə oxşamırdı. Yoox, yooox, nəsə… ayrı bir iş vardı. «Görəsən, o məktubda nə yazılmışdı?!...» Bu səs-sədayla o yuxunun nə yozumu, nə bağlılığı? Allahım, sən özün xeyrə cala.

Pəncərədən bayıra boylanarkən rəngi-rufu qaçdı, əl-ayağı yerdən üzüldü: - Bu nədi, vayyy, vayyy!… Həyətdə "ambulans" dayanmışdı. Dizləri əsə-əsə, ayaqları bir-birinə dolaşa-dolaşa özünü həyətə necə atdığını və bu tərəflərdə təkəmseyrək görünən qardaşı Kamalın qollarının arasına nə sayaq düşdüyünü hiss eləmədi. Qardaşının onu qırağa çəkib nə təhər dilə tutmasından da heç xəbəri olmamışdı…

Həyətin ortasında maya dəvətək xıxmış ambulansın qapıları taybatay açılanda huşu özünə gəldi və nə baş verdiyini onda anladı: həkimlər Türbəti xərəklə yataq otağına aparırdılar. Onlar küsülü adamlar kimi üzlərini kənara tutmuşdular və sanki kimdənsə heç kimlə danışmamaq tapşırığını almışdılar. Qırımlarından belə görünürdü ki, ta Türbətin işi bitib, üzü oyannıqdı… Və nəhayət, irəlidə gedən tosğun, girdəsifət həkim ayaq saxlayıb iri, qızılı sağanaqlı çeşməyini silə-silə Xumara yanaşdı, şəhadət barmağını dodağının üstünə qoyub him-cimlə ona hay-küy qoparmamağı tapşırdı.

- Xanım, Türbət müəllim infarkt keçirib, - dedi, - özü də… ağırınnan. Biz əlimizdən gələn yardımı elədik. Sizli-bizli Allaha yalvaraq ki…

Həkim, Xumarın titrədiyini görüb sözünü tamamlaya bilmədi. Sözünün qalanını Xumarın qardaşı Kamalın qulağına pıçıldadı: «Yanına adam buraxmayın, - dedi, - Otağı qaranlıq olmalıdı. Bizim tibb bacısı Nərgiz xanım da burda qalacaq, dava-dərmanla, Allaha təvəkkül…»

Kamalın çarəsizlik ifadə eləyən çaşqın, ölgün baxışları qeyri-ixtiyari olaraq bacısının donub daşlaşmış sifətinə dikildi. Ha istədi ki, gözlərini ondan yayındırsın, bacarmadı. Onsuz da, gizlətmək istədiyi sözün məşum ifadəsi artıq onun çöhrəsində, üzündəydi. Bunu görməyə nə vardı ki. Elə gördüyünə görəydi ki, bir andaca gen, işıqlı dünya Xumarın gözündə qaralıb zülmətə döndü. Məktəbdən qayıdan uşaqlarını bağrına basıb astadan içini çəkdi: «Yazıq balalarım, atasız qaldız…» Çiyinlərini ata-ata gözlərini sıxıb sakitcə ürəyini boşaltdı. Türbətsiz bu uşaqları necə böyüdüb boya-başa çatdıracağını düşü-nəndə, bayaqkı sübh yuxusu qəflətən, ani bir sürətlə gəlib gözünün önündən keçdi: Görəsən, o məktubda nə yazılmışdı?

Bu arada tibb bacısı Nərgiz üzündəki soyuq ifadəylə xəstənin yanından çıxıb eyvanda girlənən Kamalı yanladı, arxadan onlara göz qoyan Xumar eşitməsin deyə astadan: «Xəstə ağırlaşdı» - dedi. Kamal bir gözünü intizarla onları izləyən bacısından çəkmədən yavaşca: - Doxdur, - dedi, - üzü axşama gedir, deyirəm, bəlkə, biz…» Tibb bacısı onun ürəyindən keçəni duydu və odu ki, - Həlbət də, dedi, - siz ehtiyatınızı görün…»

Söhbətin nədən getdiyini artırmanın o başından qadın fəhmiylə duyan Xumar artıq dul qaldığına inandı. Qonşu kənddən köçüb gəldiyinə və dərdləşməkçün bu ətrafda, «avalaşda» yaxınınnan, simsarınnan heç biri

yaşamadığına görə bir qərib kimi bundan sonra bəlalı günlərə ürcah olacağını, çox uzaq çəkməyərək, elə haradasa, bu yaxınlardaca ərinin movru pişik tək onların dudmanından gözünü çəkməyən, sıçramağa fürsət gəzən yaxın qohum-əqrəbasıyla üz-üzə gələcəyini düşündü. Onlardan artıq ikisi göz önündəydi. Hələ əvvəllər də müxtəlif bəhanələrlə bu həyət-bacaya soxularaq, Xumardan gözünü çəkməyən ərinin əmisi oğlu bayaqdan onun dövrəsində fır-fır fırlanıb canıyananlıq eləyirdi. Türbətin iynəsi bir yerdə tikiş tutmayan bacısı Bikə isə onu qaranlıq otaqda qoyub, o biri otaqlarda vəlleyli vurur, bu topdağıtmaz evin əntiq qab-qacağını, çin-çin xalı, xalçasını müştəri gözüylə seçib sonalayırdı…

Qonaq otağında isə kənd məscidinin axundu gələndən sonra vacibət işlərinə hazırlıq görülürdü. Kəfən biçilmişdi, yuyat yerində isti su, sabun, qab-qacaq, sidr-kafur müntəzirdi. Hamının gözlədiyi o məsələ hələ hazır olmadığınnan bekarçılıqdan söhbət yenə hərlənib fırlanıb Türbətin işə saf-sağlam gedib evə xərəkdə gəlməyindən düşmüşdü. Söz gəzirdi ki, o, şirkət rəhbəriylə haqq-hesab üstündə dehiddəşdiyinnən qəflətən ağzı əyilib, kələfi dolaşıb.

Xumar qonaq otağının yanından keçərkən eşitdiyi bu sözün təsiriylə «Kələfi dolaşan mənəm, evi yıxılan mənəm…» deyə dil-boğaza qoymadan vaysındığı bir məqamda hələ nə baş verdiyini yaxşı anlamayan balaca

məktəbli oğlu arxadan onun dizlərini qucaqlayıb: - Atamı istəyirəm, - dedi.

Xumar dodaqlarını oğlunun dünyanın ən xoş qoxusunu verən pırtlaşıq, qıvrım saçında gəzdirərək: - Atan xəstədir, yatır, indi olmaz… sora, - dedi və dolmuş gözlərini oğlunun israrla ondan cavab gözləyən nigaran baxışlarından yayındırmaqçün üzünü kənara çevirdi.

- Onda ağlayacağam, deyən oğlu ayağını yerə dirəyib şinidi: - Atamın yerin deməsən, - dedi, - qışqıracam, de, yoxsa, bax…
- Yaxşı, di gəl görüm, burnunu çəkmə, - Xumar kürlüyü tutmuş oğlunu atası yatan qaranlıq otağa tərəf çəkib apardı, ürəyində «can bala, - dedi, - əvvəl-axır sən bunu bilməlisən…»

O, qatı qaranlıq otaqda üzü o yanlıq olan, nəfəsi quyunun dibindən gələn ərini narahat etməməkçün usta balerinalar kimi dabanlarını qaldırıb barmaqlarının ucuyla yeriyir, tibb bacısı Nərgizin bayaq arxadan onun gəldiyini hiss etmədən, aranı xəlvət görüb baldızı Bikənin qulağına pıçıldadığı «…daha az qalıb» sözlərini yadına salaraq, bir azdan bu xanimanda gör nələr yaşanacağını, nələr baş verəcəyini düşünürdü. Hələ gözü alışmadığı qaranlıqda əlinin havasıyla ərinin uzandığı taxta yaxınlaşarkən Türbətin sağ çiyni üstə dikəlib pəncərənin pərdəsinin qırağından azacıq süzülən işığa tərəf boylanaraq yorğun, çox yorğun bir səslə sayaqladığını eşitdi. Xumar arxasınca

gətirdiyi oğlunun əlindən əlini çəkərək, ərinin boynunu qucaqladı, qurumuş ətli dodaqlarını onun tük basmış üzündə, tər təmi verən boyun-boğazında gəzdirdi. Bir neçə dəfə «Çox şükür, çox şükür» deyə əllərini qoşalayıb yuxarı qaldırdı. De bayaq qızıl zəncirli «Səng-sitarə»sini boynundan sivirib kitab dolabının üstündəki nəzir qutusuna atdı, təsəddüqçün evdən dəyərli, özü də abırlı başlı bir yatır-əşya çaxaracağını dilinə gətirdi: «Ya Fatimeyi - Zəhra, kənizinəm» dedi.

Türbət Xumarın xırda, yumyumşaq əlini ovcuna alıb, hövüllənmiş, çaşqın gözlərini pəncərədən düşən o nazik, iynənin gözü boyda işıq zolağından çəkmədən nəfəsini dərə-dərə:

- Bir az əvvəl, - dedi, səninlə… atangilin o köhnə gilas bağında gəzişirdik. Bir də baxıb gördüm ki, yoxsan, harasa getmisən. Ürəyim… - əlini Xumarın əlindən çəkərək sinəsində gəzdirdi. - bərk döyündü… Demə, həmişəki kimi, yasəmən ağacının dalında gizlənibmişsən… Hər dəfə bir ağacın, bir gül kolunun arxasında gizlənəndə, səni tapanacan canımda can qalmırdı. Yadındadı, məktəbi bitirdiyimiz ilin may bayramında hörüklərindən bərk-bərk yapışıb dedim ki, yox e, yox, day bir də səni gözümdən uzağa buraxan dögürəm.

Türbət danışdıqca Xumar ətli al dodaqlarını büzüb heç nə anlamırmış kimi, çiyinlərini çəkirdi. Axı heç vaxt atasının gilas bağı olmamışdı və məktəb illərində, yeniyetmə

çağlarında hansısa bir yasəmən ağacının arxasında gizləndiyi də yadına düşmürdü. Bu dəqiqələrdə əli Xumarın əlində olan, huşu-guşu isə çox-çox uzaqlarda, gənclik güzərgahlarında gəzib dolaşan Türbətin bu sayaqlaması nəydi belə?! Üstündən çox sular axıb getmiş bu hekayəti axıradək dinləməyə Xumarın hövsələsi çatmadı. Ərinin yaxşı olması barədə şad xəbəri səliqə-sahmanlı eyvanda, al-əlvan dibçək güllərinin boyun-boyuna verdiyi artırmada, təzə gəlin kimi bəzədilmiş gen-geniş otaqlarda, payız küləyinin üstünə qızılı yarpaqlar səpələdiyi həyət-bacada hələ yetişməmiş bir iş üçün him-cimlə tədarük görən «qohum - əqrəba»ya çatdırsın deyə tez özünü bayıra atdı. Bir-bir otaqları gəzib dolaşdı, amma gözünə heç kim dəymədi. Hamı səhərki o sübh yuxusutək səssiz, səmirsiz çəkilib getmişdi. Qurumalı işdi, bəlkə, başına gələn, yaxasından tutub onu yaxşıca silkələyən bu həngamənin özü də bir yuxuydu?!

**Böyükxan BAĞIRLI**

# Mündəricat

Vətəndaş və fədakar yazıçı................................................11

Örnək insan və yaradıcı şəxsiyyət....................................15

Uşaqlıq illəri..........................................................................26

Məktəb illəri...........................................................................31

Tələbəlik illəri.........................................................................40

Bu onun həyatıdır..................................................................46

Böyükxan Bağırlı...................................................................92

Həyatdan həqiqətə...............................................................101

Kiçik hekayələrdə böyük həqiqətlər....................................107

Arzularına çatan insan.........................................................112

Ağ yaylıqlar...........................................................................117

Altmışıncılar..........................................................................120

Yazıçının böyüklüyü ondadır ki...........................................144

“Məmməd Əmin” adını ilk dəfə Elçibəydən eşitmişdim...147

Zərif kəpənək kimi...............................................................157

Bizim Böyükxan müəllim.....................................................159

Əsl ziyalı və yaradıcı insan..................................................163

Böyükxan Bağırlı dünyası....................................................165

**Mən sizi belə tanımışam......................................................170**

**Ədəbi yaradıcılıqda ilk yolgöstərənim................................179**

**O, bizim ustadımızdır..........................................................187**

**Onun hekayələrinə zamanın havası faciə dumanı kimi çökmüşdür.......................................................................191**

**Sübh yuxusu.......................................................................194**

**Camal Zeynaloğlu: “Xəyalındakı ağ yaylıqlar”**

(Azərbaycan dilində)

**Bakı, “Print - S” nəşriyyatı - 2015, - 210 səh.**

Nəşriyyatın direktoru: **Bəxtiyar Əliyev**
Rəssam: **Süleyman Mustafaoğlu**
Operator: **Aysel Zeynalova**
Korrektor**:** **Nərmin Zeynalova**

Çapa imzalanmışdır: 15.08.2015
Kağız formatı: 60 x84 1/16
Şərti çap vərəqi: 13.1
Sayı: 250 nüsxə
Sifariş: № 67
Müqavilə qiyməti ilə.

**“Nərgiz”** mətbəəsində çap edilmişdir.

# Qeydlər üçün: